

KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

№ 442 Sentyabr 2024

AYLIQ JURNAL
ISSN 2218-2772
khazar-review.khazar.org



*İradə Xəlilova*

Sentyabrın 16-da Xəzər Universitetində yeni dərs ilinin açılış mərasimi oldu. Tədbirdə universitetin rəhbərliyi, fakültə dekanları, departament müdirləri və əməkdaşlar, tələbələr və valideynlər iştirak edirdilər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlandı. Sonra universitetin rektoru Dos. İradə Xəlilova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva,

İqtisadiyyat və menecment fakültəsinin dekan əvəzi Dr. Xanım Öməroğlu və Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan əvəzi Aygün Verdiyeva çıxış edərək, tələbələri, xüsusən də birinci kursa qəbul olunanları təbrik etdilər, onlara qarşıdakı təhsil illərində uğurlar arzuladılar.

Yeni qəbul olunmuş tələbələrə və valideynlərə Xəzər Universitetinin ölkənin təhsil məkanında mövqeyi və dünya təhsil sisteminə sıx inteqrasia

# XƏZƏR UNİVERSİTETİNDƏ YENİ DƏRS İLİ BAŞLADI

şəraitində yüksək ixtisaslı mütəxəssislər yetişdirmək sahəsindəki fəaliyyəti haqqında məlumat verildi. Universitetdə təcrübəli professor-müəllim heyətinin çalışdığı, xarici universitetlərdən pedaqoji kadrların dəvət olunması, tələbələrin mübadilə proqramları ilə xaricdə təhsil alması və digər imkanlar nəzərə çatdırıldı.

Tədbir universitet kollektivləri və solistlərin konsert proqramı ilə müşayiət olundu.



# KHAZAR UNIVERSITY BEGINS NEW ACADEMIC YEAR



*Fəxrəndə Əfəndiyeva*

On September 16, the opening ceremony of the new academic year was held at Khazar University. The event was attended by the university administration, faculty deans, department heads, staff, students, and parents.

The event began with the performance of the National Anthem of the Republic of Azerbaijan. Then speeches were delivered by the university's rector, Assoc. Prof. Irada Khalilova; the Dean of the School of Science and Engineering, Dr. Fakhranda Efendiyeva; the Acting Dean of the School of Economics and Management, Dr. Khanim Omaroghlu; and the Acting Dean of the School of Humanities, Education, and Social Sciences, Aygun Verdiyeva, who congratulated the students, particularly the first-year entrants, and wished them success in their studies ahead.

Newly admitted students and parents were briefed on Khazar University's prominent role in the nation's educational sector and its commitment to training highly qualified professionals through close integration with the global education system. They were also informed about the university's experienced faculty, the involvement of foreign professors, student exchange opportunities, and other available benefits. The event featured performances by university ensembles and soloists as part of a concert program.



# İÇİNDƏKİLƏR


**Prof.Akad. Hamlet İsaxanlının tərtib etdiyi "Azərbaycan sevgi poeziyası" kitabı iranda çap olunub ........6**

**Təhsil eksperti: Çinlə Azərbaycan arasındakı təhsil əlaqələrində Xəzər Universiteti fəal iştirak edir ........8**

**Akademik Vaqif Fərzəliyev: "Dünya" məktəbinin şagirdləri institutumuzda apardıqları tədqiqat işinə görə Kaliforniya Beynəlxalq Elm və Mühəndislik Yarışmasında bürünc medala layiq görülüblər ........9**

**Nailəxanım təqaüdünün ilk məzunu Brilliant Windy Khairunnisa`nı təbrik edirik! ........10**

**Bakıda Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu keçirildi........12**

**Prof. Akad. Hamlet İsaxanlının Pekin Xarici Dillər Universiteti Asiya fakültəsinin "Beynəlxaq nüfuzlu alimlərin qısamüddətli akademik səfərİ" proqramı uğurla başa çatmışdır ........15**

**Prof. Akad. Hamlet İsaxanlı Birinci Çin Azərbaycanşünaslıq Beynəlxalq Elmi Konfransında iştirak etmişdir........16**

**Xəzər Universitetinin əməkdaşları Türkiyənin Erciyes Universitetində ........18**

**İstanbul Arel Universitetinin rəhbər heyəti "Xəzər"də........19**

**Dırna layihəsi çərçivəsində GDU-da yay məktəbi keçirilib........20**

**Xəzər Universitetinin rəhbərliyi AMEA-nın Lənkəran Regional Elmi Mərkəzində........25**

**Gümüşhane Universitetinin rəhbərliyi "Xəzər"də........27**

**Qafqazinfo.az-ın Xəzər Universitetinin professoru Cavanşir Quliyevlə müsahibəsi........30**

**"Xəzər"in məzunları: "Yelo Bank" ASC-nin İnformasiyalar Texnologiyaları Əməliyyatlar Departamentinə yeni direktor təyin edilib ........33**

**Xəzər Universiteti Qahirə Təhsil Sərgisində ........34**

**"Xəzər"in əməkdaşı Qahirə Bədr Universitetində ........35**

**Xəzər Universiteti ilə Təbriz universitetləri arasında anlaşma memorandumu imzalanıb ........36**

**AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri........36**

*Hamlet İsaxanlı*. **Şahmat ehtirası ........40**

**Çin Təhsil Nazirliyinin Dil Təhsili və Əməkdaşlıq Mərkəzinin nümayəndə heyəti "Xəzər"də ........56**

**Xəzər Universiteti əməkdaşlarının beynəlxalq tədqiqat layihəsi ilə əlaqədar Estoniyaya səfəri ........58**

**Əməkdaşlar ERASMUS+Tərəfdaşlıq layihəsi çərçivəsində KU Leuven Universitetində ........60**

**Departament müdiri Rumıniyada beynəlxalq konqresdə ........61**

**Pakistan İnstitutunun təsisçisi Xəzər Universitetində........62**

**"Üzeyir sənətinin gənclik sədaları" adlı konsert........64**

**İsaxan İsaxanlı Beynəlxalq Yesenin Konfransında........66**

**Naxçıvan Dövlət Universitetinin xəbərləri ........70**

*İsaxan İsaxanlı*. **Gecikən pizza (*hekayə*) ........74**

*İlkin İlhamlı*. **Şeirlər........77**



1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan

**İngilis dilində** mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

"Azerbaijani Love Poetry" Book by Prof. Acad. Hamlet Isakhanli Published in Iran......................6
Education Expert: Khazar University Plays Key Role in Strengthening Educational Ties Between China and Azerbaijan......8
Academician Vagif Farzaliyev: "Khazar University's 'Dunya' School Students Win Bronze Medal at California International Science and Engineering Fair for research work they conducted in our institute" ......9
Congratulations to Brilliant Windy Khairunnisa, the First Graduate of the Nailekhanim Scholarship! ......10
Baku Hosts Forum of Azerbaijani Scientists Living Abroad......12
Prof. Acad. Hamlet Isakhanli successfully completed the "Short-term Academic Visit of Internationally Renowned Scholars" program at the Asian Faculty of Beijing Foreign Studies University......15
Prof. Acad. Hamlet Isakhanli participated in the First Chinese International Scientific Conference on Azerbaijan Studies......16
Khazar University Representatives Visit Erciyes University in Türkiye ......18
Istanbul Arel University Management at Khazar University......19
GSU Organizes Summer School as Partof Dirna Project ......20
Khazar University Management at Lankaran Regional Scientific Center of ANAS......25
Gümüşhane University Management Team at Khazar University......27
Interview of Qafqaz.info with Khazar University Professor Javanshir Guliyev (*in Azerbaijani*) .30
Khazar University Alumni: "Yelo Bank" OJSC Appoints New Director to IT Operations Department ......33
Khazar University Participates in Cairo Education Fair ......34
Khazar University Staff Member Visits Badr University in Cairo......35
Khazar University and Tabriz University Sign Memorandum of Understanding......36
News of the Institute of ANAS Named after Nizami (*in Azerbaijani*) ......36
*Hamlet Isakhanli*. Passion for Chess (*in Azerbaijani*)......40
Khazar University Hosts Delegation from China's Center for Language Education and Cooperation......56
Khazar University Staff Visit Estonia for International Research Project......58
Staff Members Participate in ERASMUS+ Partnership Study Visit at KU Leuven University.....60
Khazar University Department Head at International Congress in Romania......61
Founder of Pakistan Institute at Khazar University ......62
Concert Titled "The Sounds of Youth in Uzeyir's Art"......64
Isakhan Isakhanli at the International Yesenin Conference......66
Nakhchivan State University News ......70
*Isakhan Isakhanli*. "Belated Pizza" (*Short Story; in Azerbaijani*) ......74
*Ilkin Ilhamli*. Poems (*in Azerbaijani*)......77

It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova




# PROF.AKAD. HAMLET İSAXANLININ TƏRTİB ETDİYİ "AZƏRBAYCAN SEVGİ POEZİYASI" KİTABI İRANDA ÇAP OLUNUB

# "AZERBAIJANI LOVE POETRY" BOOK COMPILED BY PROF. ACAD. HAMLET ISAKHANLI PUBLISHED IN IRAN

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, polimat - çoxbilgin şəxsiyyət kimi tanınan Prof.Akad. Hamlet İsaxanlının tərtib etdiyi "Azərbaycan sevgi şeirləri" kitabı İranda çap olunub. Kitab Hamlet İsaxanlının tərtib etdiyi, 2008-2009-cu illərdə Xəzər Universiteti Nəşriyyatında işıq üzü görmüş üççildlik "Azərbaycan sevgi poeziyası" kitabı əsasında hazırlanmışdır. İranlı mütəxəssislər Mürtəza Salmani və Sanaz Müvəhhid tərəfindən üççildlik qısaldılaraq, bir kitab halında (296 səhifə) "Azərtürk" nəşriyyatında ərəb əlifbası ilə min nüsxə tirajla nəfis şəkildə çap olunub. Onlar kitaba ön söz də yazmışlar.

Qeyd edək ki, qısaltma zamanı üççildliyə daxil edilmiş müəlliflər saxlanılmış, ixtisar yalnız şeirlərdə aparılmışdır.

The book "Azerbaijani Love Poetry," compiled by Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and Trustees, recognized as a polymath, has been published in Iran. The book is based on the three-volume "Azerbaijani Love Poetry," which was compiled by Hamlet Isakhanli and published by Khazar University Press in 2008-2009. Iranian specialists Morteza Salmani and Sanaz Movahed abridged the three-volume collection into a single book (296 pages), which was elegantly published by Azerturk Publishing House in Arabic script with a print run of 1,000 copies. They also wrote a preface for the book.

Note that while the collection of authors from the original three volumes was retained, the reductions were made within the poems.

# ÖN SÖZ YERİNƏ

*Ön sözdəki bəzi fikir və iddialara qatılmasaq da, oxucularımızın onları bilməsini istədik...*

**Redaksiya**

Azərbaycan şeir tarixində yazılı və şifahi əsərlərə diqqətlə baxdığımızda, şübhəsiz, bir mövzu daha qabarıq görünməkdədir: sevgi və insanların ona aid düşündükləri. Bu mövzuya başqa prizmadan baxmaq mümkündür. Şairlərin qələmi ilə bir çox dərin hisslər, topluma aid baxışlar, tənqidlər və başqa mövzular sevgi mövzuları ilə doğmalaşaraq yenidən doğulmuş və topluma qayıtmışdır.

Müasir dövrdə də az-çox belədir; 1900–cü illərdən bəri bir çox müasir şairlər sevgi mövzularından yararlanaraq öz siyasi-tənqidi baxışlarını yumşaq bir şəkildə oxucuya çatdırmışlar (Nazim Hikmət, Pablo Neruda, Nizar Qabbani, Yannis Ritsos, Atilla İlhan və b.). Sanki tarix boyu qələm sahiblərinin ən çox düşündüyü mövzu bu mövzu olmuşdur. Ancaq Azərbaycan şeirlərinə gəldikdə, klassik dövrü nəzərə almadan müasir dövrdə yazılmış sevgi şeirləri sanki dünya səviyyəsində yazılan sevgi şeirlərindən bir az geridə qalmış, klassik şairlərdən yalnız dil və baxış açısı cəhətindən fərqlənmişdir. Bu mövzuya toxunmaq qaçılmazdır. Belə ki, başqa ölkələrdə adlarını daha öncə qeyd etdiyimiz şairlər sevgi janrından istifadə edərək başqa mövzulara da toxunmuş, ancaq bizim şairlərimiz yalnız və yalnız "Sevgi şeirləri" qələmə almaqla kifayətlənmişlər.

Bu əsərlərdə bədii təsvirlər, baxışlar, yeni düşüncələr olmaqla yanaşı, şairin öz ictimai durumunu oxucuya açıqlamaq fürsəti yoxdur. Bizim şeirlərimizin üst qatını görmək asandır. Ancaq bu mövzuda alt qatlara nüfuz edən şair az olmuşdur. Oxucunu yalnız emosional vəziyyətə sürükləmək, gənc yaşlarında yaşadığı hissiyyatı oyatmaq, keçmişə həsrətlə baxmaq istər-istəməz onu təsirləndirməyəcək, yeni baxış bucağı yaratmayacaq, Azərbaycan şeirinin irəliləməsinə səbəb olmayacaqdır.

Azərbaycanda yazılan sevgi şeirləri avanqard baxışlardan az faydalanmışdır və məhdud sayda mövzularda yazılmışdır (sevgilisindən uzaqlaşmaq, ayrılıq, sevgilisini tərifləmək, nadir hallarda segvidən uzaqlaşmaq və s.). Amma biz Nizar Qabbani kimi şairləri örnək kimi götürdükdə çox fərqli və çox geniş dünya ilə üzləşirik. O, klassik şeirdə olan əzəmətdən, geniş rəvayətlərdən uzaq gəzərək kiçik detalları, təsvirləri, hadisələri qabarıq nümayiş etdirmiş və oxucunu təəccübləndirməyi bacarmışdır. Bizim şeirimiz isə daha çox "emosional" faktordan faydalanmaq və oxucunu emosional bir vəziyyətə salmaq istəyir.

Bu kiçik yazıda Azərbaycan şeirinin vəziyyətini açıqlamaq və izah etmək fikrində deyilik. Yalnız oxucunu aldatmayaraq, bu kitabı geniş bir baxışla oxumasını istəyirik. Belə ki, bu kitabda Arazın o tayında yaşayan bir çox şairin seçilmiş şeirlərini oxuyaraq, bunları özünə "keçmiş" bilib yeni düşüncə, yeni dil, yeni baxışla şeirə yanaşsın.

Əlinizdəki kitab barəsində bunu deyə bilərəm ki, bu üççildlik kitab Hamlet İsaxanlı tərəfindən ərsəyə gəlmiş, Azərbaycan Respublikasında çap olunaraq işıq üzü görmüşdür. Ancaq biz bu üç cildlik kitabdakı ən çox sevilən əsərləri seçərək bir cilddə topladıq və oxuculara təqdim etdik. Oxucular hər şairdən bir neçə şeir oxumaqla həmin şairin necə və hansı səviyyədə şeir yazması onlar üçün müəyyənləşəcəkdir. Eyni zamanda, Azərbaycan Respublikasında yazıb-yaratmış bir çox şairlərlə tanışlıq imkanına da nail olacaqlar. Bu kitabın bütün oxuculara faydalı olacağına və daha yaxşı əsərlərin ərsəyə gələcəyinə stimul olacağına ümidvarıq.

**Mürtəza Salmani, Sanaz Müvəhhid**

TURAN
INFORMATION AGENCY

# TƏHSİL EKSPERTİ: ÇİNLƏ AZƏRBAYCAN ARASINDAKI TƏHSİL ƏLAQƏLƏRİNDƏ XƏZƏR UNİVERSİTETİ FƏAL İŞTİRAK EDİR

# EDUCATİON EXPERT: KHAZAR UNIVERSITY PLAYS KEY ROLE IN STRENGTHENING EDUCATIONAL TIES BETWEEN CHINA AND AZERBAIJAN

*Turan İnformasiya Agentliyi* 2024-cü il iyulun 25-də "Çin və Azərbaycan münasibətlərində "Bir yol, bir kəmər" layihəsi" adlı geniş analitik məqalə dərc etmişdir. İki ölkə arasındakı mədəni əlaqələrin də icmalını verən müəllif, Çin üzrə ekspert Aqil Əliyev qeyd edir ki, bu, daha çox təhsil sahəsini əhatə edir və Azərbaycanın dörd universitetində - Bakı Dövlət Universiteti, Xəzər Universiteti, Azərbaycan Dillər Universiteti və Azərbaycan Universitetində Çin Mədəniyyət Mərkəzi və ya Konfutsi İnstitutunun fəaliyyətini misal göstərir.

Müəllif çinli tələbələrin bu universitetlərdə və ölkənin digər ali təhsil müəssisələrində, eyni zamanda azərbaycanlı tələbələrin Çində təhsil almasını mühüm amil kimi nəzərə çatdırır.

Qeyd edək ki, Xəzər Universiteti Çinin bir sıra ali məktəbləri ilə ikitərəfli müqavilələr əsasında geniş işgüzar əlaqələr qurmuş, Çində Azərbaycan dilinin distant tədrisi təşkil olunmuş, digər tədbirlər həyata keçirilməkdədir. Xəzər Universitetinin rəhbər heyəti dəfələrlə Çində səfərdə olmuş, qarşılıqlı münasibətlərin bir çox istiqamətləri üzrə əməli fəaliyyətə başlanılmış və davam etməkdədir.

On July 25, *Turan Information Agency* released a comprehensive analytical article titled "The Belt and Road Initiative in China-Azerbaijan Relations." The author, China expert Agil Aliyev, who also explored the cultural relations between the two countries, notes that these relations primarily focus on the field of education. He highlights the activities of the China Cultural Center or Confucius Institute at four universities in Azerbaijan: Baku State University, Khazar University, Azerbaijan University of Languages, and Azerbaijan University.

The author emphasizes the significance of Chinese students studying at these universities and other higher education institutions in the country, as well as Azerbaijani students pursuing their education in China. It should be noted that Khazar University has established extensive business relations with several Chinese universities through bilateral agreements. Azerbaijani language courses are being offered online in China, and other initiatives are being implemented. The leadership of Khazar University has visited China multiple times, and practical activities have been initiated and are ongoing in various areas of cooperation.

***https://turan.az/az/soz-isteyirem/cin-ve-azerbaycan-munasibetlerinde-bir-yol-bir-kemer-layihesi-782887***

# AKADEMİK VAQİF FƏRZƏLİYEV: "DÜNYA" MƏKTƏBİNİN ŞAGİRDLƏRİ İNSTİTUTUMUZDA APARDIQLARI TƏDQİQAT İŞİNƏ GÖRƏ KALİFORNİYA BEYNƏLXALQ ELM VƏ MÜHƏNDİSLİK YARIŞMASINDA BÜRÜNC MEDALA LAYİQ GÖRÜLÜBLƏR

# ACADEMICIAN VAGIF FARZALIYEV: "KHAZAR UNIVERSITY'S 'DUNYA' SCHOOL STUDENTS WIN BRONZE MEDAL AT CALIFORNIA INTERNATIONAL SCIENCE AND ENGINEERING FAIR FOR RESEARCH WORK THEY CONDUCTED IN OUR INSTITUTE"

İyulun 30-da *AZƏRTAC* Dövlət İnformasiya Agentliyi 2024-cü il üçün Azərbaycan Respublikasının texnika sahəsi üzrə "Xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalının təşkili" kompleks elmi-texniki işinə görə Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüş Aşqarlar Kimyası İnstitutunun direktoru akademik Vaqif Fərzəliyevlə (institutun professorları Həqiqət Cavadova və Əfsun Sucayevlə birlikdə) "Dünya elminə tam inteqrasiya etməsək də, bu istiqamətdə bir çox nailiyyətlər əldə olunub" başlığı ilə geniş müsahibə dərc etmişdir (müəllif Sevda Cəfərova).

Müsahibədə akademik başçılıq etdiyi institutun son illərdəki fəaliyyətindən ətraflı bəhs edərək, bu qənaətə gəlir ki, Azərbaycan elmi göstəricilərinə görə Cənubi Qafqazda liderdir. O, eyni zamanda, istedadlı şagird və tələbələrin elmə cəlb olunması üçün məqsədyönlü tədbirlər həyata keçirdiklərini də vurğulayıb. Buna misal olaraq qeyd edib ki, Xəzər Universitetinin "Dünya" məktəbinin X sinif şagirdləri Səid Aslanov və İbrahim Allahverdiyev institutun Fizioloji fəal üzvi birləşmələr laboratoriyasında institutum icraçı direktoru professor Əfsun Sucayevin elmi rəhbərliyi ilə "Altsheymer xəstəliyinə qarşı yeni nəsil enzim-izoenzim inhbitorların yaradılması" mövzusunda apardıqları tədqiqat işinə görə bu ilin may ayında Kaliforniya şəhərində keçirilən Beynəlxalq Elm və Mühəndislik Yarışmasında (ISEF) "Biotibb və sağlamlıq elmləri" kateqoriyası üzrə bürünc medala layiq görülüblər.

On July 30, *AZERTAC* State Information Agency published a comprehensive interview titled "Although We Haven't Fully Integrated into Global Science, We Have Achieved Many Milestones in This Field" with Academician Vagif Farzaliyev, Director of the Institute of Chemical Reagents, who, along with the institute's professors Həqiqət Cavadova and Əfsun Sucayev, was awarded the State Prize of the Republic of Azerbaijan for the 2024 complex scientific and technical work on the "Creation and Production Organization of Specialty Lubricants." The interview was conducted by Sevda Jafarova.

In the interview, the academician eloborates on detail the recent activities of the institute he leads and concludes that, in terms of scientific indicators, Azerbaijan is the leader in the South Caucasus. He also emphasizes the purposeful measures taken to engage talented students in science. As an example, he notes that Khazar University's 'Dunya' School students, Said Aslanov and Ibrahim Allahverdiyev, were awarded a bronze medal in the 'Biomedical and Health Sciences' category at the International Science and Engineering Fair (ISEF) held in California this May. Their research on 'The Creation of New-Generation Enzyme-Isoenzyme Inhibitors for Alzheimer's Disease,' conducted under the scientific supervision of Professor Əfsun Sujayev at the institute's Physiologically Active Organic Compounds Laboratory, was recognized for its excellence.

*https://azertag.az/xeber/akademik_dunya_elmine_tam_inteqrasiya_etmesek_de_bu_istiqametde_bir_chox_nailiyyetler_elde_olunub_musahibe-3118422*




Brilliant Windy Khairunnisa, Aygün Gardiner

# NAİLƏXANIM TƏQAÜDÜNÜN İLK MƏZUNU BRİLLİANT WINDY KHAİRUNNİSA`NI TƏBRİK EDİRİK!

*Xəzər Universitetinin Nailəxanım Fondunun təsis etdiyi təqaüdün ilk məzunu kimi indoneziyalı Brilliant Windy Khairunnisa`nı ürəkdən təbrik edirik. O, qısa müsahibəsində öz ruhlandırıcı həyat hekayəsini və gələcək planlarını bölüşüb.*

**- Nailəxanım təqaüdünə müraciət etməyə sizi nə həvəsləndirdi?**

- Mən çətin bir mühitdə doğulmuşam, xüsusilə anama görə. O, hər dəfə dünyaya uşaq gətirəndə ətrafındakılar onu təhqir edirdi, çünki beş övladının beşi də qız idi. Buna görə mənə həmişə tövsiyələr verilirdi ki, qız olsam da, təhsilə davam etməli, biliklərimi genişləndirməli, dözümlü olmalı və hər şeyə nail olmaq üçün səy göstərməliyəm. Nailəxanım təqaüdü haqqında məlumat aldıqda, bu təqaüdün yalnız qızlar üçün olması da məni çox ruhlandırdı. Bu səbəbdən, sənədlərimi hazırladım, bacardığım ən yaxşı essemi yazdım və təqdim etdim, çünki qadınlar üçün olan bir təqaüdün qadınları gücləndirmək üçün bir cəhd olduğunu düşündüm.

**- Nailəxanım təqaüdünün ilk məzunu olmaq sizin üçün nə deməkdir?**

- Dərin minnətdaram - Əlhəmdülillah, həmd olsun Allaha. Bu uğuru gözləmirdim. Özümü rahat hiss edirəm, çünki geniş biliyə sahib olmağın, mümkün olan yüksək səviyyəyə çatmağın və ya başqalarına töhfə vermənin cinslə bağlı olmadığını özümə sübut edə bildim; bu, insanın qətiyyəti, əzmkarlığı və daxili arzularını alovlandırmağı ilə bağlıdır. Bu səbəbdən, Nailəxanım təqaüdünün ilk məzunu olmaq - başqalarına nümunə olmaq deməkdir. Bu çətin ola bilər, amma ümid edirəm ki, başqalarını da öz məhdudiyyətlərini aşmağa ruhlandıracağam

**- Siz artıq məzun oldunuz. Gələcək planlarınız nədir? Qazandığınız bilik və təcrübədən necə istifadə etməyi düşünürsünüz?**

- Həyatın kitab kimi olduğuna inanıram - növbəti fəsilə keçmək üçün səhifəni çevirməliyik. Məzun olduqdan sonra ölkəmə qayıtmağı, valideynlərimlə görüşməyi və şəxsən onlardan xeyir-dua istəməyi planlaşdırıram. Tədqiqatlarımın nəticələri dərc ediləcək və ümid edirəm ki, həmkarlarım, xüsusən də mənim ixtisasım üzrə olanlar üçün faydalı olacaq. İnanıram ki, ən yaxşı insanlar digər insanların həyatına töhfə verənlərdir.

**- Gələcək müraciət edənlərə hansı məsləhətləri verə bilərsiniz?**

-Nailəxanım təqaüdçüsü olmaq qadınlar üçün bir nümunə və onlarin güclənməsinin tərəfdarı olmaq deməkdir. Buna görə də, bu inanılmaz fürsəti əldən verməyin. Bir kişiyə təhsil vermək yalnız bir insanın həyatına təsir edə bilər, amma bir qadına təhsil vermək bütün bir nəslə təsir edə və təhsil verə bilər.

*Söhbət etdi:* **Arzu Bədəlova**

# CONGRATULATIONS TO BRILLIANT WINDY KHAIRUNNISA, THE FIRST GRADUATE OF THE NAILEKHANIM SCHOLARSHIP!

*Khazar University proudly extends its heartfelt congratulations to Brilliant Windy Khairunnisa from Indonesia for her remarkable achievement as the first graduate of the prestigious Nailekhanim Foundation Scholarship. In her exclusive interview, she shares her inspiring journey, motivations, and future plans.*

**- What inspired you to apply for the Nailekhanim scholarship?**

- I wasn't born into a favorable environment, especially for my mom. Every time she gave birth, those around her would insult her because all five of her children were girls. Therefore, especially as a middle child, I was raised with strong advice that despite being a girl, I should pursue education, broaden my knowledge, be resilient, and strive to achieve anything. Learning about the Nailekhanim scholarship initially sparked my ambition because it is exclusively for females. That's why I promptly prepared my documents, crafted my best essay, and submitted it, believing that a scholarship for women signifies a commitment to women's empowerment.

**- What does being the first graduate of the Nailekhanim scholarship mean to you?**

- I am deeply grateful-Alhamdulillah, praise be to Allah. I didn't anticipate this achievement. I feel relieved because I can prove to myself that possessing extensive knowledge, pursuing the highest degree possible, or contributing to others isn't about gender; it's about determination, ambition, and igniting our inner fire. Therefore, being the first graduate of the Nailekhanim scholarship represents setting an example, which might be challenging, but I hope to inspire others to exceed their perceived limitations.

**- What are your plans now that you have graduated? How do you intend to use the knowledge and experience gained?**

- I believe life is like a book—we must turn the page to move to the next chapter. After graduating, my immediate plan is to return to my country, meet my parents, and seek their blessings in person. I will continue my research journey with the knowledge and experience acquired from Khazar University. The outcomes of my research will be published and, hopefully, beneficial to fellow scholars, particularly those in my field of specialization. I firmly believe that the best individuals are those who contribute positively to others' lives.

**- What advice do you have for future applicants?**

- Being a Nailekhanim scholar means more than just being a typical scholar. It signifies being a role model for educated women and an advocate for women's empowerment. Therefore, seize this incredible opportunity. Educating one man impacts only one person, but educating one woman can influence and educate an entire generation.

*Interviewer:* **Arzu Badalova**

# BAKIDA XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLI ALİMLƏRİN FORUMU KEÇİRİLDİ

# BAKU HOSTS FORUM OF AZERBAIJANI SCIENTISTS LIVING ABROAD

Sentyabrın 9-11-də Bakıda Gülüstan sarayında Diasporla İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Dərnəyinin təşkilatçılığı ilə Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu keçirildi. Forumun məqsədi müxtəlif ölkələrdə yaşayan azərbaycanlı alimləri bir araya gətirmək, yerli alimlərlə görüşdürmək, bilik və təcrübə mübadiləsi aparmaq, dünya azərbaycanlı elm adamlarının şəbəkələşməsinə töhfələr vermək idi. Forumda 23 ölkədən 80-dən çox azərbaycanlı alim, ümumilikdə 200-ə yaxın elm xadimi iştirak edib.

Açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Forum iştirakçılarına təbrik məktubunu oxuyub. Sonra "Heydər Əliyev və təhsil" mövzusunda videoçarx nümayiş olunub.

Tədbirin moderatoru, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov bu günü Azərbaycanın tarixində əlamətdar hadisələrdən biri kimi dəyərləndirib. Qeyd edib ki, dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlı alimlərin iştirakı ilə keçirilən forum Azərbaycanın gücünün və birliyinin ifadəsidir. Akademikin sözlərinə görə, azərbaycanlı alimlərin birliyi ölkəmizin zəka gücünün artması deməkdir.

Sonra çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev vurğulayıb ki, xaricdə yaşayan Azərbaycan alimlərinin iştirakı ilə elmimizin səviyyəsinin artırılması, yeni dövrün tələblərinə uyğun kadrların yetişdirilməsi zamanın tələbidir.

Əməkdar elm xadimi, Münhen Texniki Universitetinin professoru, Humboldt mükafatı alan ilk azərbaycanlı alim, fizika-riyaziyyat elmləri doktoru, dünyaşöhrətli azərbaycanlı alim Məsud Əfəndiyev qeyd edib ki, məqsəd peşəkar və gənc alimlər arasında körpü yaratmaqdır. Alim Azərbaycanın beynəlxalq nüfuzunun daha da gücləndirilməsi, elmimizin yüksək səviyyədə inkişaf etdirilməsi üçün səylərin birləşdirilməsinin vacibliyini vurğulayıb. "Xalqımızın inkişafına əlimizdən gələn qədər töhfə verməyə hazırıq" - deyə, azərbaycanlı alim qeyd edib.

From September 9-11, the Forum of Azerbaijani Scientists Living Abroad took place at Gulustan Palace in Baku, supported by the State Committee for Work with Diaspora, the Ministry of Science and Education, and organized by the World Association of Azerbaijani Scientists. The forum aimed to unite Azerbaijani scientists residing in various countries, facilitate meetings with local researchers, encourage the exchange of knowledge and expertise, and foster networking among Azerbaijani scientists worldwide. Over 80 Azerbaijani scientists from 23 countries, along with approximately 200 local scientists, participated in the forum.

At the opening ceremony, Farah Aliyeva, head of the Department of Humanitarian Policy, Diaspora, Multiculturalism, and Religious Issues of the Presidential Administration of the Republic of Azerbaijan, read a congratulatory letter from President Ilham Aliyev addressed to the Forum participants. Following that, a video titled "Heydar Aliyev and Education" was presented.

The event's moderator, academician Rafael Huseynov, who is also the director of the National Azerbaijan Literature Museum named after Nizami Ganjavi, described this day as a crucial moment in Azerbaijan's history. He emphasized that the forum, featuring Azerbaijani scholars from various regions of the world, showcases the strength and unity of Azerbaijan. The academician stated that the collaboration among Azerbaijani scientists signifies a boost in the intellectual capacity of our nation.

Next, Hafiz Pashayev, the rector of ADA University, highlighted the importance of advancing our scientific standards with the involvement of Azerbaijani scientists living abroad and training specialists to meet the demands of the modern era.

Distinguished scholar and professor at the Technical University of Munich, Masud Efendiyev, the first Azerbaijani to be awarded the Humboldt Prize and a doctor of physics and mathematics, highlighted the aim of fostering connections between professional and young scientists. He stressed the significance of combining efforts to further enhance Azerbaijan's global standing and elevate the level of scientific progress in the country. "We are prepared to contribute as much as possible to the advancement of our nation," said the renowned Azerbaijani scientist

Forumda Azərbaycan elminin inkişaf etdirilməsi istiqamətində maraqlı müzakirələrin aparılacağına əminliyini diqqətə çatdıran elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, tədbir çərçivəsində ən vacib məqam Azərbaycandan kənarda yaşayan alimlərimizlə inteqrasiya məsələsidir. Elm və Təhsil Nazirliyi tərəfindən göstəriləcək dəstək və imkanlar barədə danışan nazir transformasiyanın ən böyük problem olduğunu qeyd edib. Elmi rəqəmlərlə ölçməyin mümkün olmadığını deyən nazirin sözlərinə görə, Azərbaycan üçün elm və təhsil sahəsində müəyyən problemlər var. Lakin son on il ərzində bu sahədə xeyli müsbət işlər görülüb.

Çıxışında təşkilatlanma işinin əhəmiyyətini qeyd edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov komitənin öz fəaliyyətini dövlətin siyasətinə, "Yol xəritəsi"nə uyğun qurduğunu bildirib: "Dövlət Komitəsinin fəaliyyəti həm də işğaldan azad edilən Qarabağda aparılan işlərlə bağlıdır. Qarabağ Universitetində dünyaşöhrətli azərbaycanlı alimlərin çalışması elmimizə töhfə olardı."

Sonra forum işini panellərdə davam etdirib. "Qadınlar nüvə sahəsində" ("Women in nuclear") Ümumdünya Assosiasiyasında Azərbaycanın rəsmi nümayəndəsi Dinara Abbasovanın (Avstriya) moderatorluğu ilə keçən ilk paneldə "Azərbaycanda elm və ali təhsilin beynəlmiləlləşməsində alimlərin rolu" mövzusunda müzakirələr aparılıb.

Müzakirələrdə ADA Universitetinin rektoru Hafiz Paşayev, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Ceyran Mahmudova, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Sumqayıt Dövlət Universitetinin rektoru Rüfət Əzizov çıxış ediblər. Çıxışlarda əcnəbi tələbə və müəllimlərin tədrisə cəlbi, qrantlara nail olunması, mübadilə proqramlarının həyata keçirilməsi, regional və beynəlxalq səviyyədə tədbirlərin təşkili, universitetlərdəki kadrların xarici alimlərlə işləmə bacarığının artırılması və digər məsələlərə toxunulub.

Azərbaycanın hüdudlarından kənarda da polimat-çoxbilgin alim kimi yaxşı tanınan Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Hamlet İsaxanlı paneldəki çıxışında diqqəti daha çox mövzunun praktik cəhətinə yönəldərək demişdir: "Ali təhsildən söz düşəndə "keyfiyyətli təhsil" istənilir və bunun "güclü universitet"də əldə ediləcəyi düşünülür. Ali təhsildə iştirak edən canlı insanlar və qaynaqlar yaxşı olmalıdır. Bunlar kimlərdir, nələrdir? 1) Öyrənən, yəni tələbə; 2) Öyrədən, yəni alim, mütəxəssis, müəllim; 3) Öyrədən öyrənmək istəyənə nə

Emin Amrullayev, the Minister of Science and Education, expressed confidence that the forum would host valuable discussions aimed at advancing Azerbaijani science. He emphasized that the key issue within the event's framework is the integration of scientists living abroad. The minister also spoke about the support and opportunities provided by the Ministry of Science and Education, pointing out that the biggest challenge lies in transformation. He noted that science cannot be quantified and acknowledged that Azerbaijan faces certain challenges in the fields of science and education. However, he highlighted that significant progress has been made in these areas over the past ten years.

In his address, Fuad Muradov, the chairman of the State Committee for Work with the Diaspora, emphasized the significance of organizational efforts and mentioned that the committee operates in line with the state's policy, its "Road Map." He also highlighted that "The committee's work is connected to the ongoing activities in Karabakh, which was recently freed from occupation. The involvement of internationally renowned Azerbaijani scientists at Karabakh University would be a valuable contribution to the country's scientific community."

The forum then proceeded with discussions in various panels. The first panel, led by Azerbaijan's official representative Dinara Abbasova (Austria) at the World Association "Women in Nuclear," focused on "The Role of Scientists in the Internationalization of Science and Higher Education in Azerbaijan."

Rector of ADA University Hafiz Pashayev, Rector of Azerbaijan State University of Economics Adalat Muradov, Rector of Azerbaijan State University of Culture and Arts Jeyran Mahmudova, Rector of Azerbaijan Technical University Vilayat Valiyev, Rector of Sumgayit State University Rufat Azizov spoke at the discussions. Attracting foreign students and faculty to teaching, obtaining grants, implementing exchange programs, organizing events at the regional and international level, enhancing the capacity of university staff to collaborate with foreign scientists and other issues were touched upon in the speeches.

Hamlet Isakhanli, the founder of Khazar University and chairman of its board of directors and trustees, who is widely recognized as a polymath outside of Azerbaijan, emphasized the practical side of the issue during his panel speech. He stated, "In higher education, 'quality education' is the goal, and it is believed that this can be achieved within a 'strong university.' The people and resources involved in higher education must be excellent. Who are they, and what do they entail? 1) The learner, or student; 2) The educator, which includes scientists, specialists, and teachers; 3) The content and methods of teaching—

öyrədir və necə öyrədir? Yəni təhsil modeli, tədris plan və proqramları və nəhayət, 4) təhsilə kömək edən maddi və intellektual baza, yəni uyğun binalar, kitabxana, laboratopriyalar, texnoloji vasitələr, həmçinin sağlam və cazibəli mənəvi mühit.

Bu sırada, zənnimcə, ən vacib olan yaxşı alimin, mütəxəssisin varlığıdır. Yaxşı tələbə yaxşı müəllimin yanına gələcək. Maddi bazanı addım-addım yaratmaq mümkündür. Yaxşı müəllim və tələbə ilə, yaxşı idarəetmə vasitəsilə mənəvi mühit yaratmaq mümkündür. Beləliklə, hər şey alim, mütəxəssis üzərində qurulur. Alim və mütəxəssisləri bir ölkə, bu halda Azərbaycanın daxili imkanları ilə təmin etmək mümkün deyil. Dünyanın müxtəlik ölkələrindən mütəxəssis cəlb edə bilməyən ali məktəb güclü ola bilməz, dünya yarışına, rəqabətə girə bilməz. İş dünyası, sənaye dünyası ilə əlaqə qura bilməz."

Hamlet İsaxanlı çıxışında, həmçinin, Wilhelm Humboldt`un 1810-cu ildə Berlin Universitetinin açılışı zamanı bu məsələ ilə bağlı çıxışını yada salıb, onun güclü univesitet ideyası barədə danışıb, Xəzər Universitetinin qurulma prinsiplərinə toxunub. O, suallara cavab verib və xaricdən gəlmiş alimlərlə söhbət edib.

Forumda digər mövzularda da panel iclasları, sessiyalar, tanışlıq mərasimləri, kitab təqdimatları və digər tədbirlər keçirilmişdir.

Forumun iştirakçıları Xankəndi və Şuşa şəhərlərinə səfər ediblər. Onlar Xankəndi şəhəri ilə yaxından tanış olandan sonra Qarabağ Universitetinin rektoru və kollektivi ilə görüşüblər. Universitetin rektoru Şahin Bayramov universitetin fəaliyyəti, müasir standartlara uyğunlaşdırılması barədə məlumat verib, gələcək planlardan danışıb. Xaricdə yaşayan alimlərlə Qarabağ Universiteti arasında elmi əməkdaşlığın qurulması, onların bilik və təcrübələrindən də istifadə olunması imkanları barədə fikir mübadiləsi aparıblar.

Xankəndi şəhərində xaricdə yaşayan azərbaycanlı alimlərin Prezident İlham Əliyevə müraciəti səsləndirilib.

Sonra forum iştirakçıları Şuşaya yola düşüblər. Şuşada aparılan yenidənqurma işləri ilə tanış olub, mədəniyyət paytaxtımızın tarixi məkanlarına baş çəkiblər.

Azərbaycanlı alimlər forumun öz işini Qarabağda davam etdirməsini və burada yekunlaşdırmasını tarixi hadisə adlandırıb, ölkəmizin gələcəyi naminə bundan sonra da əllərindən gələni əsirgəməyəcəklərini, dünya elmi ilə Azərbaycan elmi arasında daha möhkəm körpülərin qurulmasına töhfələr verəcəklərini bildiriblər.

what is taught and how it is delivered to those eager to learn, such as the educational model, curriculum, and programs; and finally, 4) The material and intellectual infrastructure that supports education, including well-equipped buildings, libraries, laboratories, technological tools, and a healthy and inspiring spiritual environment."

He continued by stating that, in his view, the most crucial factor is the presence of a skilled scientist and specialist. A capable student will be drawn to a competent teacher. The material infrastructure can be developed gradually. With effective management, a positive spiritual environment can be created if both the teacher and student are strong. Ultimately, everything relies on the scientist and expert. However, it is impossible to supply scientists and specialists solely from one country's internal resources, including Azerbaijan. A university that cannot attract professionals from various countries cannot become strong, nor can it compete on the global stage. Moreover, the business sector cannot effectively connect with the world of industry under these conditions.

In his address, Hamlet Isaxanlı also referred to Wilhelm Humboldt's speech on this topic during the 1810 inauguration of the University of Berlin, discussing Humboldt's profound concept of universality and highlighting the founding principles of Khazar University. He answered questions and talked with scientists from abroad.

The forum featured panel discussions, sessions, introduction ceremonies, book presentations, and other events on various topics. Participants visited the cities of Khankendi and Shusha. After exploring Khankendi, they met with the rector and staff of Karabakh University. The university's rector, Sahin Bayramov, provided an overview of the institution's activities, its alignment with modern standards, and discussed future plans. They also exchanged ideas on establishing scientific collaborations between international scholars and Karabakh University, as well as the possibilities of using their knowledge and experience.

An appeal to President Ilham Aliyev from Azerbaijani scientists living abroad, was delivered in the city of Khankendi.

Following this, the forum participants traveled to Shusha, where they observed the ongoing reconstruction efforts and visited the historic sites of our cultural capital.

The Azerbaijani scientists described the continuation and conclusion of the forum in Karabakh as a historic event, pledging to keep working for the future of our country and to help strengthen the connection between Azerbaijani science and global scientific communities.

# PROF. AKAD. HAMLET İSAXANLININ PEKİN XARİCİ DİLLƏR UNİVERSİTETİ ASİYA FAKÜLTƏSİNİN "BEYNƏLXAQ NÜFUZLU ALİMLƏRİN QISAMÜDDƏTLİ AKADEMİK SƏFƏRİ" PROQRAMI UĞURLA BAŞA ÇATMIŞDIR

# PROF. ACAD. HAMLET ISAKHANLI SUCCESSFULLY COMPLETED THE "SHORT-TERM ACADEMIC VISIT OF INTERNATIONALLY RENOWNED SCHOLARS" PROGRAM AT THE ASIAN FACULTY OF BEIJING FOREIGN STUDIES UNIVERSITY




*Hamlet İsaxanlı*

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlının Pekin Xarici Dillər Universiteti (PXDU) Asiya fakültəsinin "Beynəlxaq nüfuzlu alimlərin qısamüddətli akademik səfəri" proqramı (16-28 sentyabr 2024-cü il) başa çatmışdır. Səfər çərçivəsində Prof.Akad. Hamlet İsaxanlı silsilə məruzələr oxumaqla bərabər universitet rəhbərliiyi ilə görüşlər keçirmiş, universitetlərarası əlaəqələrin dərinləşməsi istiqamətində fikir mübadiləsi aparmışdır.

Prof. Akad. Hamlet İsaxanlının elmi məruzələri iki istiqamətdə müəyyən olunmuşdur: universitetin bütün tələbə və müəllim heyəti üçün və yalnız PXDU-da Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələr

*(Ardı səh.16-da)*

The "Short-term Academic Visit of Internationally Renowned Scholars" program (September 16-28, 2024) at the Asian Faculty of Beijing Foreign Studies University (BFSU) for Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, has concluded. During the visit, Prof. Acad. Hamlet Isakhanli delivered a series of lectures and held meetings with the university administration, exchanging ideas on deepening inter-university relations.

Prof. Acad. Hamlet Isakhanli's scientific lectures were organized in two directions: for the entire university community, and specifically for students majoring in Azerbaijani language at BFSU. The lectures "Two Cultures: Barriers and Bridges Between Natural Sciences and Humanities" and "The Concept of Quality in Higher Education," intended for the entire university community, were met with great interest by a wide audience, and Prof. Acad. Hamlet Isakhanli received numerous questions related to the topics. Before the lectures, the moderator, Dr. Agshin Aliyev, Head of the Azerbaijani Language Department at BFSU and Ph.D. in Philology, provided the audience with extensive information about the speaker's life and professional activities. Additionally, Prof. Acad. Hamlet Isakhanli delivered a comprehensive lecture titled "The Development History of Azerbaijani National Identity" for students majoring in Azerbaijani language at the university.

It should be noted that the "Short-term Academic Visit of Internationally Renowned Scholars" program of the Asian Faculty of Beijing Foreign Studies University aims to broaden students' worldview and deepen academic connections by inviting renowned scholars from various countries. Prof. Acad. Hamlet Isakhanli is the first Azerbaijani scholar to participate

*(To be continued page 16)*

üçün. Bütün universitet tələbə və müəllim heyəti üçün nəzərdə tutulmuş "İki mədəniyyət: Təbiət və humanitar elmlər arasında səddlər və körpülər" və "Ali təhsildə keyfiyyət konsepsiyası" geniş

in this program.

In 2023, a memorandum of understanding on cooperation was signed between Khazar University and Beijing Foreign Studies University.



auditoriya tərəfindən maraqla qarşılanmış, Prof. Akad. Hamlet İsaxanlıya mövzu ilə əlaqəli çoxsaylı suallar ünvanlanmışdır. Məruzələrdən öncə moderator, PXDU Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev natiqin həyat və faliyyəti haqqında dinləyicilərə geniş məllumat vermişdir. Bundan başqa Prof. Akad. Hamlet İsaxanlı universitetin Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələri üçün "Azərbaycan milli kimliyinin inkişaf tarixi" adlı məruzəylə geniş çıxış etmişdir.

Qeyd edək ki, Pekin Xarici Dillər Universiteti Asiya fakültəsinin "Beynəlxaq nüfuzlu alimlərin qısamüddətli akademik səfəri" proqramı müxtəlif ölkələrdən nüfuzlu alimləri dəvət etməklə tələbələrin dünyagörüşünü genişləndirmək, akademik əlaqələri dərinləşdirmək xarakteri daşıyır. Prof. Akad. Hamlet İsaxanlı bu proqramda iştirak edən ilk azərbaycanlı alimdir.

2023-cü ildə Xəzər Universiteti ilə Pekin Xarici Dillər Universiteti arasında əməkdaşlıqla bağlı anlaşma memorandumu imzalanmışdır.

## PROF. AKAD. HAMLET İSAXANLI BİRİNCİ ÇİN AZƏRBAYCANŞÜNASLIQ BEYNƏLXALQ ELMİ KONFRANSINDA İŞTİRAK ETMİŞDİR

Sentyabrın 28-də Pekin Xarici Dillər Universitetinin ev sahibliyi və təşkilatçılığı ilə Birinci Çin Azərbaycanşünaslıq Beynəlxalq Elmi Konfransı keçirilmişdir. Konfransın məqsədi Çində azərbaycanşünaslıq elminin inkişafına təkan vermək, iki ölkə alimləri arasında təmasları dərinləşdirmək, Çinin gənc alimləri üçün müzakirə platforması yaratmaq olmuşdur.

Prof.Akad. Hamlet İsaxanlı konfransın əsas məruzələr bölümündə çıxış etmişdir. Prof. Akad. Hamlet İsaxanlı "Azərbaycan və regionda Çinin obrazı:

## PROF. ACAD. HAMLET ISAKHANLI PARTICIPATED IN THE FIRST CHINESE INTERNATIONAL SCIENTIFIC CONFERENCE ON AZERBAIJAN STUDIES

On September 28, 2024, the First China International Scientific Conference on Azerbaijan Studies was held, hosted and organized by Beijing Foreign Studies University. The conference aimed to stimulate the development of Azerbaijan studies in China, deepen contacts between scholars of the two countries, and create a discussion platform for young Chinese scholars.

Prof. Acad. Hamlet Isakhanli delivered a keynote speech at the conference. He presented his report titled "The Image of China in Azerbaijan and the

Azərbaycan-Çin tarixi əlaqələri" adlı məruzəsini geniş auditoriyanın nəzərinə çatdırmışdır. Natiq öz məruzəsində Azərbaycanın mədəniyyətində, ədəbiyyatında Çin mədəniyyətinin elementlərini və obrazlarını tarixi-müqayisəli metodla analiz edərək, iki ölkə xalqlarının tarixi bağlılığını sübut edən elmi faktları ortaya qoymuşdur.

Prof.Akad. Hamlet İsaxanlı, eyni zamanda, konfransın açılış mərasimində çıxış edərək, belə tədbirlərin əhəmiyyətini xüsusi vurğulamış, Xəzər Universiteti və Pekin Xarici Dillər Univeriteti arasında əməli əməkdaşlıq barədə dinləyicilərə məlumat vermişdir.




*Aqşin Əliyev*

Qeyd edək ki, "İpək Yolu ruhu ilə Çin-Azərbaycan münasibətlərini möhkəmləndir!" devizi altında təşkil olunan beynəlxalq elmi konfransda Azərbaycan və Çinin siyasi, iqtisadi və humanitar sahələrini təmsil edən 50-yə yaxın ekspert və alimin ölkəmizin ədəbiyyatı, mədəniyyəti, iqtisadiyyatı, siyasəti haqqında məruzələri dinlənilib.. Konfransın təşəbbüskarı və təşkilatçısı - Pekin Xarici Dillər Universiteti Asiya fakültəsi Azərbaycan dili kafedrasının müdiri filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev, eyni zamanda, Xəzər Universiteti Çin Tədqiqatlar Mərkəzinin direktoru kimi də fəaliyyət göstərir.

Region: Historical Relations between Azerbaijan and China" to a wide audience. In his presentation, the speaker analyzed elements and images of Chinese culture in Azerbaijani culture and literature using a historical-comparative method, presenting scientific facts that prove the historical connection between the peoples of the two countries.

Prof. Acad. Hamlet Isakhanli also spoke at the opening ceremony of the conference, emphasizing the importance of such events and informing the audience about the practical cooperation between Khazar University and Beijing Foreign Studies University.

It should be noted that the international scientific conference, organized under the motto "Strengthen China-Azerbaijan relations with the spirit of the Silk Road!", featured presentations by nearly 50 experts and scholars representing political, economic, and humanitarian fields from Azerbaijan and China, discussing the literature, culture, economy, and politics of our country. The initiator and organizer of the conference - Dr. Agshin Aliyev, Head of the Azerbaijani Language Department at the Faculty of Asia, Beijing Foreign Studies University, also serves as the director of the China Studies Center at Khazar University.





*Mustafa Soylak, Fəridə Tatardar, Fatih Altun, Əhməd Asimov*

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI TÜRKİYƏNİN ERCİYES UNİVERSİTETİNDƏ

# KHAZAR UNIVERSITY REPRESENTATIVES VISIT ERCIYES UNIVERSITY IN TÜRKIYE

İyulun 5-12-də Xəzər Universitetinin Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar və müəllimi Əhməd Asimov Erciyes Universiteti Prof.Dr. Mustafa Soylakın dəvəti ilə universitetdə ezamiyyətdə olmuşlar.

Səfər zamanı onlar Erciyes Universitetinin rektoru Prof.Dr. Fatih Altunla da görüşüb, iki universitet arasında əməkdaşlığın inkişaf etdirilməsi imkanlarını nəzərdən keçiriblər. Sonra Mustafa Soylakın başçılıq etdiyi araşdırma qrupu ilə birgə işlər müzakirə edilmiş, universitetin elmi - tədqiqat mərkəzləri ilə tanışlıq olmuşdur.

From July 5 to 12, Farida Tatardar, head of the Physics and Electronics Department at Khazar University, along with the faculty member Ahmed Asimov, visited Erciyes University at the invitation of Prof. Dr. Mustafa Soylak.

During their visit, they met with the rector of Erciyes University, Fatih Altun, and explored opportunities for collaboration between the two universities. They also engaged in discussions with Prof. Dr. Mustafa Soylak's research team and were introduced to the university's scientific and research centers.

# İSTANBUL AREL UNİVERSİTETİNİN RƏHBƏR HEYƏTİ "XƏZƏR"DƏ

T.C. İSTANBUL AREL ÜNİVERSİTESİ

# ISTANBUL AREL UNIVERSITY MANAGEMENT AT KHAZAR UNIVERSITY



*Ercan Gegez* *İradə Xəlilova*

İyulun 18-də İstanbul Arel Universitetinin rektoru Prof. Dr Ercan Gegez, rektor müşaviri Prof. Dr Özgür Çengel, Beynəlxalq əlaqələr ofisinin müdir müavini Omid Salimi Lak və Askunicom Təhsil Şirkətinin baş direktoru Burak Gönül ilə Xəzər Universitetində görüş keçirilib.

Görüşdə Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər.

Görüşdə ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə dair müqavilə imzalanıb, eləcə də təhsil müəssisələri arasında tərəfdaşlıq və əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılıb.

İmzalanma mərasiminin sonunda hədiyyələr təqdim olunub.

On July 18, a meeting was held at Khazar University with the Rector of Istanbul Arel University, Prof. Dr. Ercan Gegez, Rector's Advisor Prof. Dr. Ozgur Chengel, Deputy Director of the International Relations Office Omid Salimi Lak, and CEO of Askunicom Education Company Burak Gonul.

The meeting was attended by the Rector of Khazar University, Assoc. Prof. Irada Khalilova, Director of Public Relations and Media Alovsat Amirbeyli, and Head of the International Relations Department Fatima Valiyeva.

At the meeting, a bilateral agreement was signed to strengthen relations, and discussions were held on enhancing partnerships and cooperation between the educational institutions. At the end of the signing ceremony, gifts were exchanged, and memory photos were taken.

## DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GDU-DA YAY MƏKTƏBİ KEÇİRİLİB

## GSU ORGANIZES SUMMER SCHOOL AS PART OF DIRNA PROJECT



İyulun 29-da Xəzər Universitetinin koordinatoru olduğu Erasmus+ KA2 proqramının "Azərbaycanda İnstitusional Repozitoriyalar (Elektron Arxiv) şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı" (DIRNA) adlı layihəsi çərçivəsində Gəncə Dövlət Universitetində (GDU) yay məktəbi keçirilib.

5 günlük yay məktəbində layihənin tərəfdaş Azərbaycan universitetlərindən – Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti, Avropa tərəfdaşlarından isə Finlandiyanın Yyuvyaskyulya Universiteti, İtaliyanın l'Aquila Universiteti və Türkiyənin İzmir Yüksek Texnologiya İnstitutunun nümayəndələri iştirak ediblər.

Yay məktəbinin açılış mərasimində Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov çıxış edərək, layihə çərçivəsində keçiriləcək təlimlərin əhəmiyyətini vurğulayıb. Diqqətə çatdırıb ki, layihə elmi tədqiqatların idarə edilməsi ilə yanaşı, həm də tədqiqat nəticələrinə açıq çıxışın təmin edilməsinə dəstək verəcək və ali təhsil müəssisələri arasında elmi əlaqələri gücləndirəcək.

Xəzər Universitetinin rektoru İradə Xəlilova çıxışında universitetlərin tədqiqat potensialının artırılmasında DIRNA layihəsinin əhəmiyyətli rolundan danışıb, yay məktəbinin təşkilinə görə Gəncə Dövlət Universitetinə minnətdarlığını bildirib və layihənin işinə uğurlar arzulayıb.

On July 29, Ganja State University (GSU) organiZed a summer school as part of the Erasmus+ KA2 program titled "Developing Research Capacity through Institutional Repositories Network (Electronic Archives) in Azerbaijan" (DIRNA), coordinated by Khazar University.

During the 5-day summer school, representatives from Azerbaijani partner universities involved in the project Baku State University, Azerbaijan Technical University, the Academy of the Azerbaijan State Customs Committee, Ganja State University, Nakhchivan State University, Lankaran State University, and Mingachevir State University along with European partners from Finland's University of Jyväskylä, Italy's University of L'Aquila, and Türkiye's Izmir Institute of Technology, took part.

Ganja State University Rector Yusif Yusibov addressed the opening ceremony of the summer school, highlighting the significance of the trainings scheduled within the project. He noted that the project would not only facilitate open access to research results but also enhance the management of scientific research and strengthen scientific collaborations between higher education institutions.

Irada Khalilova, Rector of Khazar University, discussed the DIRNA project's crucial role in boosting the research potential of universities, expressed appreciation to Ganja State University for organizing the summer school, and wished the project success.

Raziye Isayeva, Khazar University's Development

Xəzər Universitetinin İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva layihə haqqında ətraflı məlumat verib. Bildirib ki, layihənin məqsədi elektron arxiv şəbəkəsinin yaradılması ilə Azərbaycan universitetlərinin çap materialının, məqalələrin, kitabların və digər elmi nəşrlərin bir platformada toplanması, qorunub saxlanması, həmçinin bu materialların beynəlxalq aləmə çıxışının təmin edilməsidir. Eyni zamanda, Azərbaycanda elektron arxiv işini təkmilləşdirmək, aparılan elmi-tədqiqatların profilini yüksəltmək və beynəlxalq sferaya inteqrasiya olmasına köməklik etməkdir.

Director, provided detailed information about the project. She explained that the project's aim is to establish an electronic archive network to collect and preserve printed materials, articles, books, and other scientific publications from Azerbaijani universities on a single platform, while also ensuring that these materials are accessible to the international community. Additionally, the project seeks to enhance the functioning of electronic archives in Azerbaijan, elevate the visibility of conducted scientific research, and facilitate its integration into the global arena.

Gultekin Gurdal, Director of the Library at Tür-




*Xəzər Universitetinin əməkdaşları: Nicat Abdullayev, Cəmilə Quliyeva, Aytac Misgərli, Lyudmila Sotova, Raziyə İsayeva, Səbinə Quluyeva*

Türkiyənin İzmir Yüksek Texnologiya İnstitutunun kitabxana müdiri Gültekin Gürdal təqdimatla çıxış edib, universitet kitabxanasının təhsilin və tədqiqatın inkişafında rolundan, İnstitusional Repozitoriyalar (Elektron Arxiv) şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafından və Türkiyənin bu sahə üzrə təcrübəsindən danışıb.

İtaliyanın L'Aquila Universitetinin nümayəndələri Anna Tozzi, Francesco Tarquini və Grazia Dibartolomeo "Açıq Giriş və açıq elmin faydaları", "Açıq elm alətləri", "Kitabxana sistemləri və Açıq Girişin rolu" mövzusunda hibrid şəkildə təqdimatlarla çıxış etmişlər.

Avqustun 2-dək davam etmiş yay məktəbində Avropa tərəfdaş universitetlərinin nümayəndələri "Açıq elm və institusional repozitoriyaların önəmi", "Açıq nəşriyyat etikası, müəllif hüquqları, hüquqi problemlər" , "İnstitusional repozitoriyaların texniki tələbləri və xüsusiyyətləri", "Etibarlı tədqiqat və innovasiyalar, araşdırma üçün etibarlı nəşriyyatlar" adlı təqdimatlar ilə çıxış edərək, təcrübələrini bölüşmüşlər.

kiye's Izmir Institute of Technology, gave a presentation discussing the role of university libraries in advancing education and research, the developing of research capacity through Institutional Repositories (Electronic Archives), and Türkiye's experience in this area. Representatives from Italy's University of L'Aquila Anna Tozzi, Francesco Tarquini, and Grazia Dibartolomeo elivered hybrid presentations on topics including "Open Access and the Benefits of Open Science," "Open Science Tools," and "Library Systems and the Role of Open Access."

The representatives from European partner universities gave presentations and shared their experiences on topics such as "The Importance of Open Science and Institutional Repositories," "Ethics of Open Publishing, Copyright, Legal Issues," "Technical Requirements and Features of Institutional Repositories," and "Reliable Research and Innovations, Trusted Publishers for Research" during the 5-day summer school at Ganja State University, which continued until August 2.

## XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİNİN RƏHBƏRLİYİ İLƏ ARXEOLOJİ TƏDQİQAT APARILMIŞDIR

AMEA Arxeologiya və Antropologiya İnstitutunun böyük elmi işçisi, Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Dr. Yaqub Məmmədovun rəhbərlik etdiyi "Qazax paleolit arxeoloji ekspedisiyası" 1-30 iyul tarixlərində Qazax və Ağstafa rayonları ərazisində tədqiqat aparmışdır.

Kəşfiyyat işləri zamanı "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində, Candar gölündən 950 metr cənubda, dəniz səviyyəsindən 320 metr yüksəklikdə Paleolit dövrünə aid yeni tapıntı yeri aşkar olunub. Orta Paleolit dövrünə aid daş məmulatlarının aşkar olunduğu ərazi, şərti olaraq "Candar göl paleolit tapıntı yeri" kimi qeydə alınıb.

Tədqiqatların davam etdirilməsi nəzərdə tutulur.

## KHAZAR UNIVERSITY FACULTY MEMBER LEADS ARCHAEOLOGICAL RESEARCH EXPEDITION

The "Kazakh Paleolithic Archaeological Expedition," led by Dr. Yagub Mammadov, a senior researcher at the Institute of Archaeology and Anthropology of ANAS and a faculty member at Khazar University's Department of History and Archaeology, conducted research in the Gazakh and Aghstafa regions from July 1 to 30.

During the exploration, a new Paleolithic site was discovered in the "Keshikchidag" State Historical and Cultural Reserve, located 950 meters south of Jandar Lake and 320 meters above sea level. The site, where stone artifacts from the Middle Paleolithic period were found, has been provisionally named the "Jandar Lake Paleolithic Site."

## DEPARTAMENT MÜDİRİ "THE REST: JOURNAL OF POLİTİCS AND DEVELOPMENT" JURNALINA REDAKTOR MÜAVİNİ TƏYİN EDİLİB

## DEPARTMENT HEAD APPOINTED AS AN ASSOCIATE EDITOR AT THE REST: JOURNAL OF POLITICS AND DEVELOPMENT

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev "The Rest: Journal of Politics and Development" jurnalına redaktor müavini kimi qoşulub.

"The Rest: Journal of Politics and Development" beynəlxalq münasibətlər və inkişaf tədqiqatlarından bəhs edən jurnaldır. Jurnalda müxtəlif sahələrarası metodologiya və yanaşmalardan qlobal idarəçilik, müasir dünya siyasəti, qlobal siyasi iqtisadiyyat, "Qlobal Cənub", ətraf mühit, vətəndaş müharibələri, terrorizm, miqrasiya, münaqişələrin idarə edilməsi və insan təhlükəsizliyi ilə bağlı nəzəri, konseptual və empirik təhlillər dərc olunur. "The Rest: Journal of Politics and Development"jurnalı xüsusilə dünya siyasətində əsas təhlildən kənarda qalan və ya kənarlaşdırılan məsələ, bölgə və mövzuları işıqlandırır.

"The Rest: Journal of Politics and Development" jurnalında mühüm sahə və sahələrarası problem və mübahisələrə toxunan və onlara töhfə verən yenilikçi və tədqiqata əsaslanan məqalələrə üstünlük verilir. "The Rest" jurnalına təqdim olunan məqalələr regional və sahə üzrə mütəxəssislər tərəfindən ciddi anonim resenziyadan keçir.

On August 12, Assoc. Prof. Orkhan Valiyev, the head of the Department of Political Science and Philosophy, joined "The Rest: Journal of Politics and Development" as an Associate Editor.

"The Rest: Journal of Politics and Development" is a journal of international relations and development studies. It publishes theoretical, conceptual, and empirical analyses on global governance, contemporary world politics, global political economy, "Global South", environment, civil wars, terrorism, migration, conflict management, and human security from a variety of interdisciplinary methodologies and approaches. "The Rest: Journal of Politics and Development" particularly welcomes issues, regions and subjects remained or pushed out of the mainstream analysis in world politics.

"The Rest: Journal of Politics and Development" gives preference to innovative and investigative articles that address and contribute to important disciplinary and interdisciplinary questions and controversies. The papers submitted to "The Rest: Journal of Politics and Development" go through a rigorous blind peer-review process, undertaken by regional and area experts.

*https://therestjournal.com/title-change/*

## DEPARTAMENT MÜDİRİ BEYNƏLXALQ YAY MƏKTƏBİNDƏ

## DEPARTMENT HEAD AT INTERNATIONAL SUMMER SCHOOL



*Orxan Vəliyev*

29 iyul-7 avqust tarixlərində Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev İstanbulda İbn Haldun Universitetindəki Heydər Əliyev Avrasiya Araşdırmaları Mərkəzi tərəfindən təşkil edilən "Türk dünyası üçün yeni dövr" mövzusunda Beynəlxalq Yay Məktəbində iştirak edib. Dos. Orxan Vəliyev Yay Məktəbinə məruzəçi kimi dəvət olunmuş və "Münaqişədən sonrakı Azərbaycanda Türk dünyasının rolu" mövzusunda çıxışı ilə Xəzər Universitetini təmsil etmişdir.

On July 29 -August 7, Assoc. Prof. Orkhan Valiyev, the head of the Department of Political Sciences and Philosophy, attended the International Summer School on "A New Era for the Turkic World" organized by Haydar Aliyev Center for Eurasian Studies at Ibn Khaldun University in Istanbul.Assoc. Prof. Valiyev, who represented Khazar University, was invited as a lecturer to the summer school and delivered a speech titled "The Role of Turkic World in the Post-Conflict Azerbaijan".



*Nərgiz Hacıyeva, Fatimə Vəliyeva, Humay Hüseynova*

Xəzər Universitetinin əməkdaşları – Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, Kimya və kimya mühəndisliyi departamentinin müəllimi Tahir Cavadzadə, Kompüter elmləri departamentinin müəllimi Humay Hüseynova və Təhsil departamentinin müəllimi Fəridə Orucova 29 iyul – 8 avqust tarixlərində British Council (Britaniya Şurası) təşkilatının gənc tədqiqatçılar üçün onlayn şəkildə keçirdiyi ünsiyyət bacarıqları üzrə "Tədqiqatçı şəbəkələşməsi" (Researcher connect) adlı təlimdə iştirak ediblər.

İki həftə davam edən təlimlər nəzəriyyə və təcrübəni əhatə edib və ali təhsil sahəsində təcrübəli xarici təlimçilər tərəfindən keçirilib.

30 gənc tədqiqatçının iştirak etdiyi təlimin sonunda onlara müvafiq sertifikatlar verilib.

## ƏMƏKDAŞLAR BRITISH COUNCIL- IN TƏLİMİNDƏ

## STAFF MEMBERS PARTICIPATE IN BRITISH COUNCIL TRAINING

Staff members of Khazar University – Head of the International Relations Office Fatima Valiyeva, Lecturer at the Department of Chemistry and Chemical Engineering Tahir Javadzade, Lecturer at the Department of Computer Science Humay Huseynova, and Lecturer at the Department of Education Farida Orucova – participated in an online communication skills training titled "Researcher Connect," organized by the British Council for young researchers, from July 29 to August 8, 2024.

The two-week training sessions covered both theory and practice and were led by experienced international trainers in the field of higher education. Upon completion of the training, which was attended by 30 young researchers, participants were awarded certificates. The certificates were presented by Fergus Auld, the Ambassador Extraordinary and Plenipotentiary of the United Kingdom of Great Britain and Northern Ireland to Azerbaijan, and Nargiz Hajiyeva, the director of the British Council in Azerbaijan, during a ceremony at the embassy's residence.

Sertifikatları Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycanda Fövqəladə və səlahiyyətli səfiri Fergus Auld və British Council təşkilatının Azərbaycan üzrə direktoru Nərgiz Hacıyeva səfirliyin iqamətgahında təqdim ediblər.

# XƏZƏR UNİVERSİTETİNDƏ FRANSIZ DİLİ KURSU

# FRENCH LANGUAGE COURSE AT KHAZAR UNIVERSITY




*Fatimə Vəliyeva, Aydan Eyvazzadə, Alisa Nazirzadə, Arzu Bədəlova*

Xəzər Universitetində Erasmus Tələbə şəbəkəsinin Avropa layihəsinin Təşəbbüskar Komandası- Əcnəbi Tələbələr Klubu tərəfindən 2023-cü ilin dekabr ayında universitetin Beynəlxalq əlaqələr şöbəsinin nəzdində təsis edilmiş Fransız dili kursu başa çatmışdır.

Kurs davam etdiyi müddətdə tələbələrin imtahan və tətil səbəblərinə görə fasilə olmuş, aprel ayının əvvəlindən iyun ayının sonuna qədər isə 3 aylıq proqram yerinə yetirilmişdir.

Kursun fasiləyə qədərki hissəsində dərs proqramını universitetin əcnəbi tələbəsi Niama Hamdani, fasilədən sonrakı hissəsində isə universitetə dəvət olunmuş, İsveçrədə təhsil almış Aydan Eyvazzadə tədris etmişdir.

Kurs universitetin öz tələbələri ilə yanaşı, İqtisad universitetinin də tələbələrinin diqqətini cəlb etmişdir.

Bütün dərs prosesi müddətində gedişatı Əcnəbi Tələbələr Klubunun prezidenti Alisa Nazirzadə və müxtəlif aralıqlarla klubun tədbir koordinatoru İlahə Məmmədova və sosial media meneceri Nigar Əsgərova nəzarətdə saxlamışlar.

Klub prezidenti bütün bu müddət boyunca kursda həm də tələbə kimi iştirak etmişdir.

Kurs başa çatdıqdan sonra tədrisçi müəllimlərə, dərsdə ən yüksək davamiyyətə sahib tələbələrə və kursun təşkilatçılıq və idarəsi ilə məşğul olduğuna, həm də tələbə kimi kursu bitirdiyinə görə klub prezidentinə Xəzər Universiteti Beynəlxalq tələbələr şöbəsi tərəfindən sertifikatlar təqdim olunmuşdur.

The French language course, initiated in December 2023 by the Khazar ESN Initiative Group - Foreign Students Club of the Erasmus Student Network European project at Khazar University International Relations Department, has now been completed. The course experienced a break due to students' exams and holidays, with the 3-month program running from early April to late June.

Niama Hamdani, an international student at the university, taught the lessons before the break, while Aydan Eyvazzade, who had been invited to the university and studied in Switzerland, conducted the program after the break.

The course drew interest from students not only at Khazar University but also at Azerbaijan State University of Economics.

Alisa Nazirzade, the president of the Foreign Students Club, along with the club's event coordinator, Ilaha Mammadova, and social media manager, Nigar Asgarova, monitored the course's progress throughout its duration.

During this time, the club president also took part in the course as a student.

Upon completion of the course, the International Students Department of Khazar University presented certificates to the instructors, the students with the highest attendance, and the club president, who participated as a student while also contributing to the course's organization and management.




*Həsən Rəhimli, Namiq Qasımov, Əlövsət Əmirbəyli, Mehman Əliyev, Hamlet İsaxanlı, Şahin İsayev*

## XƏZƏR UNİVERSİTETİNİN RƏHBƏRLİYİ AMEA-NIN LƏNKƏRAN REGİONAL ELMİ MƏRKƏZİNDƏ

Avqustun 22-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Prof.Akad. Hamlet İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, universitetin meneceri Şahin İsayev, həmçinin İqtisadiyyat və menecment fakültəsinin müəllimi Həsən Rəhimli AMEA Lənkəran Regional Elmi Mərkəzində (REM) olublar.

Mərkəzin direktoru Mehman Əliyev qonaqları salamlayıb, son aylarda burada görülən işlər, keçirilən elmi seminarlar, konfranslar, müxtəlif tədbirlər barədə məlumat verib. Xəzər Universiteti ilə Lənkəran REM arasında gələcək əməkdaşlığın perspektivləri müzakirə olunub. Prof.Akad. Hamlet İsaxanlı mərkəzdə yaradılan Ümummilli Liderin 100 illiyi adına kitabxana ilə tanış olub, AMEA-nın 44 günlük Vətən müharibəsində ilk şəhidi - Lənkəran REM-in əməkdaşı Mahsun Bağırzadənin Xatirə guşəsini ziyarət edib.

## KHAZAR UNIVERSITY MANAGEMENT AT LANKARAN REGIONAL SCIENTIFIC CENTER OF ANAS

On August 22, the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, along with Director of Public Relations and Media Alovsat Amirbayli, University Manager Shahin Isayev, and lecturer of the School of Economics and Management Hasan Rahimli, visited the Lankaran Regional Scientific Center (LRSC) of the Azerbaijan National Academy of Sciences (ANAS).

The center's director, Mehman Aliyev, welcomed the guests and provided information about the work carried out in recent months, including scientific seminars, conferences, and various events. The prospects for future cooperation between Khazar University and the Lankaran RSC were discussed. Prof. Acad. Hamlet Isakhanli toured the library established in honor of the 100th anniversary of National Leader Heydar Aliyev and visited the memorial corner dedicated to Mahsun Bagirzadeh, an employee of the Lankaran RSC and the first martyr of ANAS during the 44-day Patriotic War.

# BEYNƏLXALQ KONFRANS: "KOMPÜTER ELMLƏRİ VƏ CAZİBƏ QÜVVƏSİ-2024"

Avqustun 19-23-də Xəzər Universitetində universitetin Nəzəri Fizika Mərkəzi və Rusiyanın Tomsk şəhərində yerləşən Tomsk Dövlət İdarəetmə Sistemləri və Radioelektronika Universitetinin (TUSUR) birgə təşkilatşılığı ilə "Kompüter Elmləri və Cazibə Qüvvəsi-2024" adlı beynəlxalq konfrans keçirilmişdir.

Konfransda Azərbaycan alimləri ilə yanaşı Rusiyanın müxtəlif universitetlərindən, İspaniya, Hindistan, İran, Türkiyə, Cənubi Koreya, Yaponiya, Özbəkistan, Qazaxıstan və İordaniyadan olan alimlər də məruzələrlə canlı və onlayn çıxış etmişlər. Məruzələrin mövzuları kompüter elmləri, qravitasiya və radioelektronikanın müasir problemlərinə aid olmuşdur.

# INTERNATIONAL CONFERENCE: "COMPUTER SCIENCE AND GRAVITATION-2024"

From August 19-23, Khazar University hosted an international conference titled "Computer Science and Gravitation-2024," co-organized by its Center for Theoretical Physics and Tomsk State University of Control Systems and Radioelectronics (TUSUR) in Tomsk, Russia.

In addition to Azerbaijani scientists, researchers from universities in Russia, Spain, India, Iran, Turkey, South Korea, Japan, Uzbekistan, Kazakhstan, and Jordan participated, presenting their reports both in person and online. The presentations covered current issues in computer science, gravitation, and radioelectronics.




**Konfrans iştirakçıları**: *Pərviz Əliyev, Minayə Allahverdiyeva, Fəridə Tatardar, Şahin Məmmədov, Arzu Qafarova, Cənnət Səmədov*

# GÜMÜŞHANE UNİVERSİTETİNİN RƏHBƏRLİYİ "XƏZƏR"DƏ

# GÜMÜŞHANE UNIVERSITY MANAGEMENT TEAM AT KHAZAR UNIVERSITY



*Halil İbrahim Zeybek, İradə Xəlilova*

Avqustun 24-də Gümüşhane Universitetinin (Türkiyə) rektoru Prof. Dr. Halil İbrahim Zeybek, prorektoru Prof. Dr. Ferkan Sipahi və TÖMER (Türkcə Tədris Araşdırma və Uygulama Mərkəzi) müəllimi Akin Zengin ilə görüş keçirilib.

Görüşdə Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər.

Görüşdə ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə dair müqavilə imzalanıb, eləcə də təhsil müəssisələri arasında tərəfdaşlıq və əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılıb. Fatimə Vəliyeva və qonaqlar təmsil etdikləri universitetlər haqqında ətraflı məlumat veriblər.

İmzalanma mərasiminin sonunda hədiyyələr təqdim olunub.

On August 24, a meeting was held with the Rector of Gümüşhane University (Türkiye), Prof. Dr. Halil İbrahim Zeybek, Vice Rector Prof. Dr. Ferkan Sipahi, and Akin Zengin, an instructor from the Turkish Language Teaching Research and Application Center (TÖMER).

Khazar University was represented at the meeting by Rector Assoc. Prof. Irada Khalilova, Director of Public Relations and Media Alovsat Amirbeyli, and Head of the International Relations Department Fatima Valiyeva.

During the meeting, a bilateral agreement was signed to strengthen relations, and discussions were held on enhancing partnerships and cooperation between the educational institutions. Fatima Valiyeva and the guests provided detailed information about their respective universities. At the end of the signing ceremony, gifts were exchanged.

# XARİCDƏ TƏHSİLİNİ DAVAM ETDİRƏCƏK TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

Avqustun 26-da 2024-2025-ci tədris ilində İkili Diplom Proqramı və Avropa Birliyinin Erasmus+ Tələbə Mübadilə Proqramında iştirak hüququ qazanmış Xəzər Universitetinin tələbələri ilə görüş keçirilib.

Görüşdə universitetin rektoru Dos. İradə Xəlilova, Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekan müavini Dr. Xanım Nəbiyeva, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan vəzifəsini icra edən Aygün Verdiyeva və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər. Onlar tələbələri təbrik etmiş, öz ölkələrini və universitetlərini layiqincə təmsil edəcəklərinə əmin olduqlarını bildirmişlər. Fatimə Vəliyeva mobillik dövründə və sonrakı mərhələlər haqqında ətraflı məlumat verib.

Qeyd edək ki, İqtisadiyyat və menecment fakültəsi, Təbiət elmləri və mühəndislik fakültəsi və Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbələri mübadilə proqramında Turin Politexnik Universiteti (İtaliya), Koç Universiteti (Türkiyə) və Edukons Universitetində (Serbiya), Təbiət elmləri və mühəndislik fakültəsi və İqtisadiyyat və menecment fakültəsinin tələbələri isə İkili Diplom Proqramı çərçivəsində  Bragança Politexnik İnstitutunda (Portuqaliya) təhsillərini davam etdirəcəklər.

# MEETING WITH STUDENTS SET TO PURSUE STUDIES ABROAD

On August 26, a meeting took place with Khazar University students who had earned the opportunity to join the Double Diploma Program and the Erasmus+ Student Exchange Program of the European Union for the 2024-2025 academic year.

Rector of the university Assoc. Prof. Irada Khalilova, Vice-Rector for Educational Affairs Prof. Mahammad Nuriyev, Deputy Dean of the School of Economics and Management Dr. Khanim Nabiyeva, Acting Dean of the School of Humanities, Education and Social Sciences Aygun Verdiyeva and Head of the International Relations Department Fatima Valiyeva participated in the meeting. They congratulated the students and expressed confidence that the students would represent both their country and university with distinction. Fatima Valiyeva provided detailed information regarding the mobility period and the following phases of the program.

Note that the students of the School of Economics and Management, the School of Science and Engineering, and the School of Humanities, Education and Social Sciences are participating in the exchange program at Turin Polytechnic University (Italy), Koch University (Türkiye) and Edukons University (Serbia). Students of the School of  Science and Engineering and the School of Economics and Management will continue their studies at the Polytechnic Institute of Bragança (Portugal) within the Dual Diploma Program.





*Fatimə Vəliyeva*

## XƏZƏR UNİVERSİTETİ TÜRKİYƏDƏ TƏDQİQATLAR VƏ İNKİŞAF LAYİHƏLƏRİ BAZARINDA İŞTİRAK EDƏCƏK

Xəzər Universiteti Türkiyədə növbəti Tədqiqatlar və İnkişaf Layihələri (R&D) Bazarının təşkilinə dair ideyanı dəstəkləyib.

Təşəbbüs texnoloji inkişafı, elm və innovasiyaları dəstəkləmək, eləcə də tələbələrin tədqiqat və inkişafa marağını artırmaq məqsədi ilə 2017-ci ildən Türkiyənin Bartın Universiteti (BARÜ) tərəfindən həyata keçirilir.

BARÜ bu payızda Azərbaycan universitetləri ilə yanaşı, Malayziya, Bosniya və Herseqovina, Özbəkistan universitetlərinin də iştirak edəcəyi yeddinci R&D Layihələri Bazarını təşkil edəcək. Üstəlik, beynəlxalq R&D Layihələri Bazarında təkcə universitet tələbələri deyil, liseydə oxuyanlar da iştirak edə bilərlər.

Qaliblərin adları bu il noyabrın 7-8-də BARÜ-də keçiriləcək festival çərçivəsində açıqlanacaq. Ən yaxşı layihələrin müəllifləri pul mükafatı alacaqlar.

Bundan əlavə, layihə iştirakçıları iqtisadiyyatın müvafiq sahələrində fəaliyyət göstərən şirkətlərin nümayəndələri ilə əlaqə yaratmaq və bununla da öz ideyalarını həyata keçirmək imkanı əldə edəcəklər.

*AZƏRTAC* informasiya agentliyi və bəzi ölkə saytları bu barədə xəbər yayımlayıblar.

## KHAZAR UNIVERSITY TO JOIN RESEARCH AND DEVELOPMENT PROJECTS MARKET IN TÜRKIYE

Khazar University has endorsed the plan to host the next Research and Development Projects (R&D) Market in Türkiye.

This initiative, led by Turkey's Bartın University (BARU) since 2017, aims to foster technological advancement, science, and innovation while boosting student interest in research and development.

This fall, BARU will hold the seventh R&D Projects Market, featuring participants from universities in Malaysia, Bosnia and Herzegovina, and Uzbekistan, alongside those from Azerbaijan.

High school students will also have the chance to take part in this international event.

The winners will be announced during the festival at BARU on November 7-8, with top projects receiving cash prizes.

Additionally, participants will have the chance to connect with industry representatives, potentially bringing their ideas to fruition.

News about the event has been covered by the *AZERTAC* information agency and various national websites.

*https://azertag.az/xeber/azerbaycanin_iki_universiteti_turkiyede_r_ampd_layiheleri_bazarinda_istirak_edecek-3151454*



Qafqazinfo.az

# "HƏYATIMIZDAKI DƏYƏRLƏR SIRASINDA ÖNDƏ OLANI VƏTƏNDİR: SÖZDƏ DƏ, ƏMƏLDƏ DƏ!"

*Xəzər Universitetinin professoru Cavanşir Quliyevlə müsahibəni oxucularımıza təqdim edirik.*

*Mən Şabranda olarkən görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi, musiqimizdə məktəb yaratmış sənətkar Cavanşir Quliyev də Azərbaycan Bəstəkarlar Birliyinin nümayəndələri üçün ayrılmış yaradıcılıq evində dincəlirdi. Xoş təsadüfü qiymətləndirib, ustad sənətkarla söhbət etmək imkanını fövtə vermədim:*

**- Belə bir fikrinizi xatırlayıram ki, xalq çalğı aləti olan tarla musiqiyə başlamağınız sizi bəstəkar kimi şikəst olmaqdan qoruyub. İstərdim ki, bu qənaətinizi daha əsaslı detallarla şərh edəsiniz.**

- Siz bu sualın cavabını təkcə mənim fikrimə əsaslanaraq deyil, hazırda mövcud olan musiqi həyatımızın bir sıra sahələrində tapa bilərsiniz. Bəzi musiqiçilər var, əsərlərini dinləyəndə anlayırsan ki, istedadlıdır, amma Azərbaycan musiqisinin xallarını, incəliklərini ifa edə bilmir. Yəni o adam uşaqlıqdan Avropa musiqisinin təsiri ilə böyüyüb, indi də Azərbaycanın musiqi rənglərini bir-birindən fərqləndirə bilmir. Mən demirəm, hamı musiqidə əvvəl gündən tarçalan olmalıdır, xeyr, sadəcə musiqiçilərimiz Azərbaycan xalq musiqisinə yaxın olmalı, bu musiqinin ruhunu duymağı bacarmalıdırlar. Azərbaycan musiqisinin incəliklərini paralel olaraq iki alətdə çalaraq öyrənsələr, fikrimcə, daha yaxşı olar. Məsələn, fortepiano əsas musiqi aləti ola bilər, tar isə ikinci. Qısası, Azərbaycan musiqiçisi öz sənətinin inkişaf yolunda tarla əlaqəli böyüməlidir. Uşaqlarını musiqi təhsili almağa yönəldən valideynlər də bu məsələ haqda dərindən düşünməlidirlər. Əks halda, övladları Azərbaycan musiqisinin mənliyini təyin edən əsas detallardan, xırdalıqlardan xəbərdar ola bilməyəcək.

**- Uşaqlıqdan şahmatı sevməyiniz musiqi həyatınıza, sənətkar xarakterinizə nə kimi təsir edib?**

- Hər zaman dəqiq elmlərə çox böyük həvəsim olub. Musiqi təhsili alanda məni tanıyan adamlar təəccüb edirdilər ki, peşə seçərkən, nə əcəb, dəqiq elm sahələrini seçməmişəm. Musiqidə də dəqiqliyə meyil özünü göstərir. Bəziləri düşünə bilər ki, bəstəkarlıq ancaq romantik bir peşədir, hisslərlə, duyğularla bağlıdır, amma hisslər də, duyğular da bəzən konkret bir formaya çevrilməli olur. O forma da bəstəkarın dəqiqliyə münasibəti ilə birbaşa bağlıdır. Musiqi sənətində əsərin forması dəqiqliklə əlaqədardır. Necə ki, hər hansısa bir masanın forması var, o forma düzgün hazırlanmasa, masa aşar. Musiqinin dəqiqliyə bağlılığı pozulanda, bəzən salonda konserti dinləyən insanlar bunu dərhal hiss edir. Deyək ki, musiqi həddən artıq uzun, yaxud qısa olur, bu da dinləyicilərə tam mənada anlaşıqlı gəlmir.

**- Musiqi əsərində "qızıl orta"ya çatmaq sizin nöqteyi-nəzərinizdən hansı məqama yetişmək deməkdir?**

- Bədii əsərdə "qızıl orta"nı tapmaq olur, sənətdə isə bu, mümkünsüzdür. Hər bir insanın özü ilə bağlı bir sənət yolu var, müəyyən tərəddüddən sonra sənətkarlar o yolu seçir və irəliləməyə çalışır. Əsərin mərkəzinə "qızıl kəsişmə ortası" deyirlər. O yer hər bir əsərin içində var, həmin məqamı tapmayan sənətçinin əsəri çox zaman qüsurlu olur. Musiqinin ən gərgin yeri həmin qızıl kəsişmə nöqtəsinə düşür.

**- Violonçel və saz üçün olan ayrıca bir sonatanız var. Bu iki bir-birinə yad alətin eyni əsərdə vəhdətini yaratmaq fikri sizdə necə yarandı?**

- Bu, çox çətin bir proses idi, həmin əsəri uzun müddətə yazdım. Çünki mən həmin vəhdəti axtarırdım, gü-

man edirdim ki, tapa biləcəyəm və ona görə tapa bildim ki, özümə bir çox məhdudiyyətlər qoydum. Məsələn, mən özümə qadağan etdim ki, sazı ona xas olmayan üslubda çaldırmamalıyam, nəticədə mən onu Avropa musiqi üslubuna salmadım, saz öz dəsti-xəttində ifa olundu. Həmin sonatada violonçeli də müəyyən qədər saza yaxınlaşdırmaq lazım idi ki, onların arasında uyğunluq yaransın. Həmin əsəri yazarkən hətta elə anlar oldu ki, işi yarımçıq qoymaq istədim. Məndən öncə bu üslubda yazan olmadığından mənim üçün bu cür bir əsər yaratmaq çox çətin idi, amma həm də bu iş mənə ona görə maraqlı idi ki, həmin qaranlıq meşəni necə yarıb işığa çıxa biləcəyəm.

**- "Yeddi pyes" adlı əsəriniz dəstgah quruluşundadır, əsərdə muğam ladları var, amma bu musiqi incisini özünüzün "yumoreska" adlandırmağınızın səbəbi nədir?**

- O əsərin sadəcə forması o cürdür. Formaca yeddi muğam sistemi ilə qurulub, amma əsər xarakter baxımından zarafatyana, sirk elementləri ilə zəngin bir əsərdir. Muğam musiqisi ciddi musiqidir, amma mən onu bu pyesdə əyləncəli şəkildə təqdim eləməyə çalışmışam. Dəfələrlə o əsəri dinləyənlərin üzündə təbəssüm görmüşəm. Məsələn, pianoçu çıxır səhnəyə və o musiqini ifa edir, pianodan həm normal səslər çıxır, həm də əcaib səslər. Bu halda dinləyicilər maraqlanır ki, pianonun içində, görəsən, hansısa cihaz yerləşdirilib ki, alətdən o cür səs çıxır? Mən onda onlara izah edirəm ki, bu əsərin ifasından əvvəl pianonun simlərində müəyyən texniki işlər aparılır. Fortepianonun hər notu 3 simdən ibarətdir, onların arasında iki aralıq var. Məsələn, onların birinin arasına adi pozan soxursan, ifa zamanı səs boğulur, tutqunlaşır. Yaxud, bir simin üstünə dəsmal bağlayırsan – ud səsi verir. Belə bir musiqi mühəndisliyi ilə o cür səslər alınır. Bu metod dünyada çox istifadə edilir. O musiqi əsərinin adı "Yeddi pyes" olsa da, əslində, səkkiz pyesdən ibarətdir. Sadəcə səkkizinci pyesi sanki qayçı ilə kəsib, digər hissələrin arasına yerləşdirmişəm. Həmin hissəciklər arxa-arxaya çalınsa, ayrıca, müstəqil bir pyes alınar. Bir növ, bu əsərdə bir qədər oyunbazlıq eləmişəm. Ona görə bu əsər, sizin kimi, Avropa dinləyicilərində də xeyli suallar doğurmuşdu.

**- Yaylı orkestr üçün yazdığınız "Dastan" adlı Dördüncü Simfoniyanı Üzeyir Hacıbəyliyə ithaf etmisiniz. Bədii ədəbiyyatda, rəssamlıqda ithaf daha çox kiminsə obrazını əsər daxilində yaratmaqla baş tutur. Bəs əsərdə musiqi vasitəsilə obraz yaratmaq necə olur?**

- Bu əsəri Üzeyir bəyə həsr etməyim təsadüfü deyil, göydən düşməyib. Mənim fikrimcə, indiki Azərbaycan musiqisi Üzeyir bəyin arzuladığı kimi davam etmir. Burada müasir texnologiyanın da müəyyən rolu var. Səbəbləri açıq şəkildə izah edə bilərəm, amma o izahlar bugünkü musiqimizi doğru yola qaytarmayacaq. Bu "Dastan"ın qəhrəmanı və onun timsalında leytmotivi Üzeyir bəyin özüdür, əsər onu vəsf edən mövzu ilə başlayır. Həmin leytmotivi bütün orkestr çalır, əsərin sonuna doğru musiqi incələ-incələ skripkanın solosuna qədər enir. Sonra o səs də itir, qaragüruh səslər o səsləri – əvvəlki musiqini boğur, sanki tamamilə yeni musiqi yaranır. Yəni, bu işarə ilə onu demək istəyirəm ki, müəyyən qüvvələr Üzeyir bəyin qoyduğu musiqi ənənəsini beləcə məhv edir, qaragüruh musiqisinə çevirirlər. İndi Azərbaycanda Üzeyir bəyin musiqilərinə tələbat yoxdur. İnsanlar dəyişib. İnsanları da biz musiqiçilər dəyişmişik. Məsələn, insan səhər eşitdiyi radio musiqisinin təsiri ilə işə gedir, axşam maşınında, yaxud avtobusda qulaq asdığı musiqinin ovqatı ilə evə qayıdır, axşam da televiziyada eşitdiyi mahnıların sədası ilə yuxulayır. İllərlə keyfiyyətsiz musiqilərlə bəslənən bu insanların sənət zövqü necə olmalıdır? Biz, bəlkə də, bunu zamanla düşünməyərək etmişik. Fikirləşmişik ki, heç nə olmaz. Üzeyir bəyin musiqilərinə heç kəs toxuna bilməz. Amma elə deyilmiş. Bəzən insanlar məni küçədə saxlayıb soruşurlar ki, televiziyalarda bütün günü oxunanlar nə musiqidir, bu zövqsüzlüyə qarşı niyə əncam çəkmirsiniz? Ta düşünmürlər ki, mənim o məsələlərin həllinə gücüm çatmır.

**- "Karvan" əsərinizdə notlar elə qurulub ki, musiqi ümumilikdə dəvə və onları bir-birinə bağlayan kəndiri xatırladır. Əsərlərin məzmunu formasını doğurur, yoxsa əksinə?**

- Təbii ki, məzmun formanı doğurur. Bu əsər qətiyyən Soltan Hacıbəylinin "Karvan"ına bənzəmir. Bu əsərin forması karvanı xatırladır, səslənişi isə son dərəcədə müasirdir. Dəvələrin bir-birinə bağlanması bu əsərdə hissələrin bir-birinə muğamvari musiqilərlə tikilməsi hesabına əmələ gəlir. Məzmunla forma hər bir əsərdə vəhdət təşkil etməlidir.

**- Siz müğənniləri ilk dəfə dinləyəndə, adətən, onlara "Qaragilə" mahnısı oxudursunuz. Sınaq üçün məhz bu mahnını seçməyinizin xüsusi səbəbini bilmək istərdim...**

- "Qaragilə" mahnısını oxumaq çətindir. Mən həmişə müğənniləri və müğənni olmaq istəyənlərin səs və mu-

siqiyə bələdlik imkanlarını məhz bu mahnı ilə yoxlayıram. Çox adam elə bilir ki, o mahnı asandır, yaxud dinləyənlərə o saat xoş təsir bağışlayır. Ancaq "Qaragilə"ni hər kəs düzgün oxuya bilmir. Mən istənilən oxuyanın o mahnını necə ifa etməsini dinləməklə həmin müğənni barədə dəqiq nəticəyə gələ bilirəm. Uzun illərdir ki, bu mahnı mənim səs imkanlarının, düzgün oxunun səviyyəsini ölçən cihazımdır.

**- Türk dövlətləri və xalqları əksər sferalarda bir-birinə yaxınlaşır, sürətlə inteqrasiya edirlər. Sizcə, yeni türk erasında, lap elə günümüzün reallığında çağdaş türk musiqisi hansı axarda öz varlığını davam etdirməlidir?**

- Hər bir türk xalqı bu günə qədər müəyyən bir musiqi yolu keçib, türk xalqlarının musiqisinə birləşdirmək adı altında onlara müdaxilə etmək olmaz, bu, heç də yaxşı nəticə verməz. Çünki musiqilərin ortaqlaşması onların darıxdırıcı olmağına gətirib çıxarar. Hər türk xalqı öz tarixi musiqisinin ənənələrini, oradakı türk elementlərini, xallarını, özünəməxsusluqlarını qorumalıdır. Tarixi musiqilər üzərində heç bir "cərrahi müdaxiləyə" ehtiyac görmürəm və bildiyim qədər, türk xalqlarının müasir musiqisi onları qane edir. Onsuz da türk xalqları zamanla bir-birinə daha da yaxınlaşdıqca musiqiləri də yaxınlaşacaq, amma bu, təbii şəkildə, uzun bir prosesin nəticəsi kimi baş verməlidir.

**- Hansısa musiqi əsərinizi həyatınızın mənası hesab edirsinizmi?**

- Xeyr. Heç zaman. Musiqi mənim işimdir və sadəcə əsərlərimi yazıram. Əsərlərim mənim övladlarımdır, onları bir-birindən ayırmıram.

**- Son dönəmdə ağır əməliyyatlar keçirdiniz, hətta uzaq olsun, ölümün astanasına qədər gedib çıxdınız. O məlum hadisələrdən sonra həyata baxışınızda hansısa dəyişikliklər oldumu?**

- "Heç kəs əbədi deyil, bu dünyaya bir gün gələn, bir gün də gedəcək". Bu fikirlər məni hər zaman düşündürüb, lakin bu məsələlər indi ağlıma daha tez-tez gəlir və həyatımı o düşüncəyə uyğun qurmağa çalışıram. Çünki bilirəm ki, bir gün hər şey bitəcək və ona hazır olmalıyam, müəyyən mənada, həm də o gün üçün hazırlaşıram.

**- Zamanla tənqidi mövqe sərgiləyən, bir qədər də ziyalı qiyafəsində olan adamlar Azərbaycanın tarixi Qarabağ qələbəsini, ölkə başçısının Vətənin azadlığındakı müstəsna rolunu təqdir etmək nəcibliyini özlərinə rəva görmədilər. Sanki əvvəlki mövqelərinin yersiz təkəbbürü onları bu gün də tərk etmir, nəticədə həqiqəti ifadə etməklərinə mane oldu. Siz isə Azərbaycanın qələbəsini ilk günlərdən təqdir etdiniz. Prezident seçkilərində də ölkə başçımıza səs verəcəyinizi açıq şəkildə dilə gətirdiniz. İstərdim, söhbətimizin sonunda bu məsələlərdən də yan keçməyək...**

- Həyatımızdakı dəyərlər sırasında öndə olanı Vətəndir: sözdə də, əməldə də! Mən torpaqlarımızın qaytarılmasına sevinməyən adamı təsəvvürümə gətirə bilmirəm. Bizim 30 illik təhqir olunmağımıza son qoyulub, buna necə sevinməmək olar? Kimsə deyə bilər ki, onların siyasi platformaları başqadır. Ancaq hər bir siyasi partiya məramnaməsində qeyd edir ki, biz Vətən üçün çalışırıq. İndi bu Vətən bütövləşib, buna necə şad olmamaq olar? Azərbaycandakı partiyaların çoxu Qarabağ hərəkatından sonra yaranıb. Niyə yaranıblar? Torpaqları düşməndən geri almaq üçün. İndi torpaqlar işğalçılardan geri alınıb. Mən illər öncə müsahibələrimdə dəfələrlə demişdim ki, Şuşanın geri qaytarılacağına əminəm, amma o xoşbəxtliyi mənim görüb-görməyəcəyimə isə yox. Şükür ki, Şuşa azad edildi və mən ora dəfələrlə getdim. Mən buna niyə sevinməyim ki?! Torpaqları Prezident İlham Əliyev qaytardı, onun hakimiyyəti dönəmində işğaldan azad olundu. Siyasi ambisiyalar üçün bunu dananlar, əslində, mövcud vəziyyətdə İlham Əliyevə olan böyük sevgini daha da artırırlar. Çünki bu halda mənim kimi adamlar meydana çıxıb soruşur ki, niyə sevinmirsən, düşmən tapdağından azad etdi də torpaqları. İndi orta əsrlər dövrü deyil ki, ölkə başçıları atın belində savaşa getsin, özləri vuruşsunlar. Müharibə gedə-gedə mən dəfələrlə ordumuzu da, onun Ali Baş Komandanını da dəstəkləmişəm. Torpaqların düşməndən geri alınmasına siyasi düşüncənin fərqliliyinə görə şükür etməmək, Qarabağın azadlığının prezidentin adı ilə bağlı olmasına görə sevinməmək hansısa siyasi düşüncədən asılı olmayaraq, çirkin yoldur. O yolla hansısa məqsədlərə çatmaq heç zaman baş tutmaz.

**Söhbətləşdi: Fərid Hüseyn**
30.08.2024

*https://qafqazinfo.az/news/detail/bunu-dananlar-ilham-eliyeve-olan-boyuk-sevgini-daha-da-artirirlar-442753*

## "YELO BANK" ASC-NIN İNFORMASİYALAR TEXNOLOGİYALARI ƏMƏLİYYATLAR DEPARTAMENTİNƏ YENİ DİREKTOR TƏYİN EDİLİB

## "YELO BANK" OJSC APPOINTS NEW DIRECTOR TO IT OPERATIONS DEPARTMENT



*Rafiq Yolçuyev*

Bu vəzifəyə Rafiq Yolçuyev təyinat alıb.

Rafiq Yolçuyev 2008-2018-ci illərdə "Xalq Bank"da İnformasiya Texnologiyaları Departamentinin direktor müavini, 2018-2022-ci illərdə "Premium Bank"da İnformasiya Texnologiyaları Departamentinin direktoru kimi çalışıb.

2022-ci ilin dekabr ayından "Kapital Bank"da İnformasiya Texnologiyaları Departamentinin direktor müavini idi.

O, Xəzər Universitetində "Kompüter Mühəndisliyi və İdarəetmə" üzrə bakalavr dərəcəsi, "Biznesin idarə edilməsi və menecmenti" üzrə isə magistr dərəcəsi alıb.

Bəzi ölkə saytları bu barədə xəbər yayımlayıb.

According to Banker.az, Rafiq Yolchuyev has been appointed to this position.

Rafiq Yolchuyev worked as Deputy IT Director at "Xalq Bank" from 2008 to 2018 and as IT Director at "Premium Bank" from 2018 to 2022.

Since December 2022, he has served as Deputy Director of the IT Infrastructure Department at "Kapital Bank."

He holds a Bachelor's degree in "Computer Engineering and Management" and a Master's degree in "Business Administration and Management" from Khazar University. Country websites published news on this issue.

*https://banker.az/yelo-bankda-yeni-t%C9%99yinat/*




*Fatimə Vəliyeva, Omar Samy Mohamed Ahmed*

## XƏZƏR UNİVERSİTETİ QAHİRƏ TƏHSİL SƏRGİSİNDƏ

Avqustun 10-da “OK TAMAM” Şirkətinin təşkilatçılığı ilə Misir Ərəb Respublikasının Qahirə şəhərindəki "Four Seasons" hotelində Beynəlxalq Təhsil Sərgisinin açılışı olub. Sərgidə universiteti Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və Beynəlxalq münasibətlər ixtisasının 3-cü kurs misirli tələbəsi Omar Samy Mohamed Ahmed təmsil ediblər.

Sərgidə Xəzər Universitetinin nümayəndələri universitetin stendində tələbələrə ölkə haqqında, universitetin fəaliyyəti və əcnəbi tələbələrin qəbul prosesi, təqaüd imkanları, həmçinin Nailəxanım Təqaüdü barədə məlumat vermişlər. Qeyd edək ki, sərginin statistik məlumatına görə “Xəzər”in stendinə 100-ə yaxın yerli tələbə qeydiyyatdan keçərək, maraq göstərmişdir.

Beynəlxalq Təhsil Sərgisində iştirak üçün yerli tələbələrlə yanaşı valideynlər də qeydiyyatdan keçmişdilər. Onlar da Xəzər Universitetinin stendini maraqla seyr etmiş və əlavə məlumatlar almışar.

## KHAZAR UNIVERSITY PARTICIPATES IN CAIRO EDUCATION FAIR

On August 10, the International Education Exhibition was launched at the Four Seasons Hotel in Cairo, Egypt, organized by the "OK TAMAM" Company. Khazar University was represented by Fatima Valiyeva, the Head of the International Relations Department, and Omar Samy Mohamed Ahmed, a third-year Egyptian student of International Relations.

At the exhibition, Khazar University representatives provided students with information about the country, the university's activities, the foreign student admission process, available scholarships, and the Nailekhanim Scholarship. According to the exhibition's statistics, around 100 local students registered and expressed interest in Khazar University's stand. In addition to local students, parents also signed up to attend the International Education Fair, showing interest in Khazar University's stand and obtaining further details.

## "XƏZƏR"İN ƏMƏKDAŞI QAHİRƏ BƏDR UNİVERSİTETİNDƏ

Avqustun 13-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva Misir Ərəb Respublikasının paytaxtında Qahirə Bədr Universitetinin nümayəndələri ilə görüşüb. Görüşdə universitetin Beynəlxalq əlaqələr və xarici işlər üzrə vitse-prezidenti Prof.Dr. Hanan Mounib, Elmi tədqiqatlar üzrə vitse-prezidenti Prof.Dr. Mahmud Fəhmi, Əczaçılıq fakültəsinin dekanı Prof.Dr. Yasser Mostafa və dekan müavini Prof.Dr. Əhməd Soliman, Stomatologiya fakültəsinin dekanı Prof. Dr. Tamer Hamza, Mühəndislik fakültəsinin dekanı Prof.Dr. Aref Soliman, Tibb fakültəsinin dekan müavini Prof.Dr. Ghada el Dorry və Baytarlıq fakültəsinin dekan müavini Prof.Dr. Əhməd Hamed iştirak ediblər.

Görüş zamanı Fatimə Vəliyeva Azərbaycan haqqında videoçarx nümayiş etdirib və universitet haqqında ətraflı məlumat verib. Bədr Universitetinin fakültələri haqqında da videoçarx nümayiş etdirilib. Sonra Bədr Universiteti, o cümlədən fakültələri ilə tanışlıq olub.

Səfər zamanı universitetlərin əməkdaşlığının inkişafına xüsusi diqqət yetirilib. Bədr Universitetinin Xəzər Universitetinə səfərinin hazırlığı ilə bağlı müzakirələr aparılıb. Səfər zamanı ikitərəfli əməkdaşlıq müqaviləsinin imzalanması da nəzərdə tutulub.

Görüşün sonunda hədiyyələr təqdim olunub.




*Hanan Mounib, Fatimə Vəliyeva*

## KHAZAR UNIVERSITY STAFF MEMBER VISITS BADR UNIVERSITY IN CAIRO

On August 13, the head of Khazar University's International Relations Office, Fatima Valiyeva, met with representatives of Badr University in Cairo (BUC), the capital of the Arab Republic of Egypt. The meeting was attended by the university's Vice President for International Relations and Foreign Affairs, Prof. Dr. Hanan Mounib, Vice President for Scientific Research, Prof. Dr. Mahmoud Fahmy, Dean of the Faculty of Pharmacy, Prof. Dr. Yasser Mostafa, Vice Dean Prof. Dr. Ahmed Soliman, Dean of the Faculty of Dentistry, Prof. Dr. Tamer Hamza, Dean of the Faculty of Engineering, Prof. Dr. Aref Soliman, Vice Dean of the Faculty of Medicine, Prof. Dr. Ghada el Dorry, and Vice Dean of the Faculty of Veterinary Medicine, Prof. Dr. Ahmed Hamed.

During the meeting, Fatima Valiyeva presented a video showcasing Azerbaijan and provided comprehensive information about the university. A video highlighting Badr University's faculties was also displayed. Following that, an overview of Badr University and its faculties was given. The visit placed particular emphasis on fostering university collaboration. Talks were held about organizing Badr University's visit to Khazar University. It is also planned to sign a bilateral cooperation agreement during the visit.

At the end of the meeting, gifts were exchanged.

# XƏZƏR UNİVERSİTETİ İLƏ TƏBRİZ UNİVERSİTETLƏRİ ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANIB

# KHAZAR UNIVERSITY AND TABRIZ UNIVERSITY SIGN MEMORANDUM OF UNDERSTANDING



*Hamlet İsaxanlı, Bəhmən Nağıpur*

Xəzər Universitetinin nümayəndə heyəti – universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva və Fizika və elektronika departamentinin müdiri Dr. Fəridə Tatardar 2024-cü il avqustun 25-30-da İran İslam Respublikasının Təbriz şəhərində səfərdə olmuşlar.

Nümayəndə heyəti avqustun 27-də Azərbaycan Mədəni Şəhid Universitetində keçirilən "Kimya və Ətraf Mühit – 2024" adlı XI Beynəlxalq Konfransın açılışında iştirak etmiş və Xəzər Universiteti, Azərbaycan Şəhid Mədəni Universiteti və Türkiyənin Erciyes Universiteti arasında elm və təhsil sahəsində birgə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə üçtərəfli anlaşma memorandumu imzalanmışdır.

Konfransın açılışında Azərbaycan Şəhid Mədəni Universitetinin rektoru Dr. Mohammad Sadiq Azər bu anlaşmanın üç ölkə arasında elm və təhsil əlaqələrinin gücləndirilməsi istiqamətində mühüm bir addım olacağını, müəllim və tələbə mübadiləsinin, elmi-tədqiqat işlərinin aparılmasının, birgə elmi kon-

A delegation from Khazar University, including the university's founder and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, the Dean of the School of Science and Engineering, Dr. Fakhranda Afandiyeva, and the Head of the Department of Physics and Electronics, Dr. Farida Tatardar, visited Tabriz, Islamic Republic of Iran, from August 25 to 30, 2024.

On August 27, the delegation attended the opening of the 11th International Conference titled "Chemistry and Environment – 2024" at Azerbaijan Shahid Madani University. During the event, a trilateral memorandum of understanding was signed between Khazar University, Azerbaijan Shahid Madani University, and Türkiye's Erciyes University to foster collaboration in the fields of science and education.

In the opening of the conference, Dr. Mohammad Sadiq Azer, the rector of Azerbaijan Shahid Madani University, emphasized that the agreement represents a key step in enhancing scientific and educational ties among the three countries. He pointed out that exchanges of faculty members and students,

دانشگاه شهید مدنی آذربایجان

ERCİYES ÜNİVERSİTESİ 1978

Tabriz University Medical Science




*Mohammad Sadiq Azər* *Fatih Altun*

fransların keçirilməsinin bu anlaşmanın maraqlarına uyğun olduğunu qeyd etmişdir.

Konfransın açılış mərasimində Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı və Türkiyənin Erciyes Universitetinin rektoru Prof.Dr. Fatih Altun da çıxış etmişlər. Konfrans üç gün davam etmiş, məruzələr dinlənilmişdir.

Səfər zamanı, həmçinin, Xəzər Universiteti ilə Təbriz Tibb Elmləri Universiteti arasında (rektor Bəhmən Nağıpur) da anlaşma memorandumu imzalanmış, nümayəndə heyəti universitetin elmi-tədqiqat mərkəzlərində olmuş və müzakirələr aparılmışdır.

collaborative research, and holding joint scientific conferences are in line with the goals of the agreement.

At the conference's opening ceremony, speeches were given by Prof. Acad. Hamlet Isakhanli, Chairman of the Board of Directors and Trustees of Khazar University, and Prof. Dr. Fatih Altun, rector of Erciyes University in Türkiye. The conference spanned three days, featuring various presentations.

Additionally, during the visit, a memorandum of understanding was signed between Khazar University and Tabriz University of Medical Sciences ( Rector Bahman Naghipur). The delegation visited the university's research centers and held discussions.

**"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU**




# VAQİF YUSİFLİNİN "MƏMMƏD ARAZ DÜNYASI" KİTABI İŞIQ ÜZÜ GÖRÜB

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin müdiri, filologiya elmləri doktoru Vaqif Yusiflinin "Məmməd Araz dünyası (həyatı və yaradıcılığı) kitabı" işıq üzü görüb. "Sənətkarın elmi pasportu - 55" seriyasına daxil olan tədqiqat Ədəbiyyat İnstitutunun Elmi Şurasının 24 iyun 2024-cü il tarixli 4 saylı qərarı ilə nəşr edilib.

Kitabın elmi redaktoru AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. 1994-cü ildə yazılmış "Yaddaş poeziyası" sərlövhəli Ön söz AMEA-nın müxbir üzvü, mərhum alim Yaşar Qarayevə məxsusdur.

Rəyçiləri filologiya elmləri doktoru Yaşar Qasımbəyli, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlıdır. 220 səhifəlik kitab "Elm və təhsil" nəşriyyatında çap olunub.

Qeyd edək ki, ilk dəfə 1994-cü ildə nəşr olunan tədqiqat Məmməd Arazın anadan olmasının 90 illiyi münasibətilə yenidən hazırlanmış, yeni fəsillər əlavə edilmişdir.

# "AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞI" JURNALININ NÖVBƏTİ SAYI ÇAP OLUNUB

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Azərbaycan ədəbiyyatşünaslığı" elmi jurnalının növbəti (2024 №1) sayı nəşr olunub. 1946-2019-cu illərdə "Ədəbiyyat məcmuəsi" adı ilə çap olunan jurnal 30 may 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınıb. Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərin siyahısına daxildir.

"Azərbaycan ədəbiyyatşünaslığı" elmi jurnalının baş redaktoru AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. Bu say akademik İsa Həbibbəylinin "Böyük Azərbaycan şairi Məhəmməd Füzuli haqqında söz" adlı məqaləsi ilə açılır. Jurnalın məsul katibi filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı, məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Töhfə Talıbovadır.




Jurnal Azərbaycan ədəbiyyatını və onun tarixi inkişaf mərhələlərini araşdıran, bu mövzuda müasir və aktual tədqiqat işlərinin nəşrini həyata keçirən elmi-nəzəri nəşrdir. "Elm və təhsil" nəşriyyatında çap olunan jurnalın bu nömrəsi "Məhəmməd Füzuli - 530", "Azərbaycan ədəbiyyatı" və "Mətbuat tarixi" bölmələrindən ibarətdir.

"Azərbaycan ədəbiyyatşünaslığı" jurnalının beynəlxalq redaksiya heyətinə Türkiyə, Özbəkistan, Fransa, Gürcüstan, Tatarıstan, Hindistan, Polşa və Monqolustanın alimləri daxildir. Elmi-nəzəri jurnalda məqalələr Azərbaycan, rus, ingilis və türk dillərində dərc edilir.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, İctimaiyyətlə əlaqələr şöbəsi*



# ŞAHMAT EHTİRASI

**Hamlet İsaxanlı**

*Əvvəli jurnalın 437-ci, 438-ci, 439-cu, 440-cı və 441-ci (mart, aprel, may, iyun, iyul 2024-cü il) nömrələrində*

## Ədəbiyyat, film və teatrda şahmat

*Dünya bədii ədəbiyyatı, filmlər və teatr həyatı şahmat mövzusu və şahmat metoforları ilə zəngindir. Bu mövzu təsvir olunmaz dərəcədə genişdir. Maraqlı saydığım bəzi əsər, film və tamaşalar haqqında məlumat verməklə kifayətlənirəm.*

Ərəb tarixçiləri və məşhur İran şairi Firdovsi öz məşhur "Şahnamə"sində şahmatın icadı haqqında rəvayətə yer vermişlər. Firdovsi`nin təsvir etdiyi şahmat 100 xanalıdır, şah və vəzirin yer tutduğu xətlərdə mərkəzdən cinahlara doğru düzülüş ardıcıllığı belədir: fil, dəvə, at, rux (top). "Şahnamə"də hind tacı uğrunda mübarizə aparan iki ekiz qardaş – Talxand və Qav`ın savaşdıqları və bu savaş zamanı düşmənlərin əhatəsinə düşən Talxand`ın müəmmalı ölümü barədə danışılır. Şübhə yaranır ki, Talxand`ın ölümünə Qav səbəb olmuşdur. Bunun belə olmadığını, Talxand`ın necə ölməsini izah etmək və bu fikri şahzadə xanıma – Talxand`ın anasına çatdırmaq üçün müdriklər şahmat oyununu icad etdilər.



*Əbülqasım Firdovsinin heykəli*

Farsca yazan məşhur şairlər – Sənai, Xəyyam, Əttar, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Xaqani Şirvani, Sədi, Hafiz və başqaları, şahmat haqqında "Xoş döyüşlər dağıntı izi qoymur" deyən məşhur türk-cağatay şair Əlişir Nəvai (1441-1501), Azərbaycan türkcəsində yazan Nəsimi, Füzuli, M. F. Axundov, Seyid Əzim və başqaları şahmatı sevmiş, ondan bədii vasitə kimi istifadə etmişlər.

Andrew Waterman`ın (1940) "The Poetry of Chess" (Şahmat poeziyası) adlı kitabı (1981) ingilis poeziyasında, Chauser`dən üzü bu yana, şahmat mövzusuna həsr olunmuş şeir antologiyasıdır. Görkəmli şahmat tarixçisi Edward Winter`in (1955) "Chess and Poetry" adlı yazısı şahmat mövzusuna həsr olunmuş Avropa poeziyası haqqında maraqlı xülasədir.

Şahmat ədəbiyyatda əsasən çox güclü metafor vasitəsi kimi yer tutur.

* * *

İtaliyalı şair Marco Girolamo Vida (?-1566) latınca yazdığı "Scacchia Ludus" (Skaçia Lyudus – Şahmat oyunu) adlı poeması (1527-ci ildə nəşr olunub) iki tanrının – Apollon və Merkuri`nin uyğun olaraq qaralarla və ağlarla oynadıqları və digər tanrıların tamaşa etdiyi şahmat yarışına həsr olunub. Venera, Vulkan və Mars tərəf tutub aranı qarışdırırlar. Merkuri sonda ikiqat şah verir, Apollon`un vəzirini udur və lövhədə tək qalan şahı mat etməklə qalib gəlir. O, Scacchide (Şahmat) adlı nimfanı yoldan çıxartmaq üçün bu şahmatı ona bağışlayır, ona oyunun qaydalarını öyrədir. Bu poema çox dillərə tərcümə olunmuş və 300 dəfədən çox nəşr üzü görmüşdü. Poemanın qısa məzmunu belədir:




*Marco Girolamo Vida*

> Savaş tanrısı Mars meşə nimfasına (pərisinə), Kaissa adlı qıza vurulur. Qız onun qəlbini ələ almaq istəyən Mars`a fikir vermir. Bir nimfa Mars`a yeni, maraqlı bir oyun kəşf etməklə qızın qəlbini yumşaltmağı məsləhət görür. Mars`a bir tanrı kömək edir və yeni oyun kəşf edilir; Mars ona Kaissa adı verir; bu, Şahmat idi.

Bu poema Philidor`un 1777-ci ildə yazdığı şahmat dərsliyinin ingiliscəyə tərcüməsinə daxil edilmişdi. Caïssa sözünün Scacchia (Skakia) sözündən alındığını deyənlər var. 19-cu əsrin ortalarından başlayaraq bu poema şahmatçılar arasında yayıldı və get-gedə Kaissa şahmat ilahəsi, muza sayıldı.

İntibah dövrü polşalı şair Jan Koxanovski Vida`nın təsiri altında 602 misralıq "Szachy" (Şahmat) poemasını yazdı (1562-1565). Vida`nın bu əsərinin ideyasından istifadə edən ingiltərəli filoloq və poliqlot William Jones (1746-1794) öz "Caïssa or The Game at Chess" (Kaissa və ya şahmatda oyun) poemasını yazdı (1763); bu zaman onun 17 yaşı vardı.



*Thomas Middlton*

**Qeyd.** William Jones 1784-cü ildə Kəlküttə şəhərində tezliklə "The Asiatic Society" (Asiya Cəmiyyəti) adlanacaq və Asiyanı öyrənən böyük araşdırma mərkəzinə çevriləcək elmi cəmiyyəti təsis etdi.

Londonlu şair və dramaturq Thomas Middlton`un (1580-1627) "A Game at Chess" (Şahmatda oyun) pyesi London Globe teatrı`nda tamaşaya qoyuldu (1624). Şahmat dili ilə, Qara və Ağ şahmat fiqurları (King, Quenn, Knight, Bishop, Pawn) vasitəsilə İngilis-İspan münasibətlərinə baxan bu pyesin şahmat alleqoriyası onun siyasi-satirik xarakterini gizlədə bilməzdi; İspan səfirliyi etirazını bildirdi və 9 tamaşadan sonra pyesin oynanılması dayandırıldı, üstəlik, Globe teatrı bağ-

landı. "A Game at Chess" Middlton`un son pyesi oldu.

* * *



*Lewis Carroll*

İngiltərəli riyaziyyatçı və yazıçı Lewis Carroll (1832-1898) uşaqlar üçün yazdığı məşhur "Alice`in möcüzələr diyarında macəraları" (Alice`s Adventures in Wonderland, 1865) əsərində şahmat yoxdur, Onun "Xəyal güzgüsündən keçid və Alice orada nə gördü" (Through the Looking Glass, and What Alice Found There, 1871/1872; Rusca: Алиса в зазеркалье) kitabı isə şahmatla birbaşa bağlıdır. Alice otağındakı güzgüdən keçir və başqa dünyaya daxil olur, sətirləri çaylarla /streams, sütunları ağac çəpərlərlə ayrılmış nəhəng şahmat lövhəsi şəklində landşaftı – görür. Canlı məxluqlar ağ və qara şahmat fiqurları kimi oynayırlar (hərçənd ki, şahmat qaydalarından kənara çıxırlar və bu, oxucu-şahmatçıları əsəbiləşdirmişdi). Müəllif iştirakçıları şahmat diaqramı və şahmat fiqurları şəklində təqdim edir. Qırmızı (Qara) kraliça (Red Queen) Alice`i oyuna dəvət edir, ona ikinci dərəcədə yerləşən ağ piyada rolu verilir və vəd edilir ki, addım-addım irəli gedib səkkizinci dərəcəyə yüksəlib kraliça olacaq (şahmat vəziri). Alice ilk addımda iki xana irəli gedir, irəlilədikcə yol boyu başına macəralar gəlir və nəhayət, səkkizinci dərəcəyə çatıb kraliça olur. Alice ayılır, özünü güzgünün əsl-doğru tərəfində görür. Alice nəyin gerçək, nəyin yuxu olduğu barədə düşünür: "Həyat, bu xəyaldan başqa nədir?" /"Life, what is it but a dream?" Bu əsər əsasında R. Chopinet 1990-cı ildə "ANA" adlı balet yazdı.

Rus-Amerikan yazıçı Vladimir Nabokov (1899-1977) şahmatla məşğul olmuş, şahmat etüdləri düzəltmişdir. Onun yaradıcılığında şahmat mövzusu yadda qalan yer tutur. Nabokovun "Lujin müdafiəsi" adlı maraqlı hekayəsi (1929-1930) var (ingiliscədə: "The Defence" adı ilə tanınmışdır). Baş qəhrəman Aleksandr İvanoviç Lujin şahmat dəlisidir və bu ehtiras artdıqca o, ruhi pozğunluğa yaxınlaşır, zəifləyir, özünə qapanır. Lujin dünya çempionatında əsəb böhranı keçirir və sonda hamam otağının pəncərəsindən atılaraq intihar edir. Nabokovun şəxsən tanıdığı şahmat ustası Curt von Bardeleben (1861-1924) pəncərədən atılmaqla özünə qəsd etmişdi; yəqin ki, bu və aşağıda haqqında danışacağımız "Şahmat qızdırması" filmi (1925) "Lujin müdafiəsi"nin yazılmasına təsir etmişdi. Bu hekayə əsasında eyni adlı film çəkildi (2000), baş rolu John Turturro ifa etdi. Nabokov «Другие берега» (Özgə sahillərdə) adlı öz bioqrafik romanı və «Весной» (Yazda) pyesi kimi əsərlərində şahmatdan söhbət açmışdı. 1970-ci ildə 18 şahmat kompozisiyası və 49 şeirdən ibarət «Стихи и задачи» (Şeirlər və məsələlər) adlı kitabı nəşr olunmuşdu. O, şahmat kompozisiyasını şeir yazmaqla müqayisə etmişdi.



*Vladimir Nabokov*

Avstriya-Britaniya yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatçısı (1981) Elias Canetti`nin (1905-1994) "Die Blendung" (Korlaşma) adlı romanı (1935) ingiliscəyə tərcümədə "Auto da Fé" adı ilə (1946), ABŞ-da isə "The Tower of Babel" adı ilə nəşr olunub (1947). "Auto-da-Fe" portəgizcə "iman hərəkəti" mənası verir. Əsərin baş surəti – çinşünas, kitab və elm ehtirası ilə yaşayıb gerçək dünyanı unudan və başına faciələr gələn (*bu barədə söhbət açmıram* – H.İ.) Peter Kien şahmat ehtirasına tutulmuş Fischerle adlı qozbel cırtdana rast gəlir. Fischerle vaxtını fantaziyalarla keçirir, zəngin olmaq, Amerikaya ge-



*Elias Canetti*

dib şahmat üzrə dünya çempionu olmaq xülyası ilə yaşayır. O özünə saray tikdirib, içində tərki-dünya kimi yaşamaq barədə düşünür. Fisherle çempion olduqdan sonra Amerika vətəndaşı olacağını və adındakı "le" sonluğunu atıb çempionluğunu Fisher adı ilə sürdürəcəyini deyir. Təəccüblü dərəcədə təsadüf və uyğunluq! Elias Canetti bu əsəri yazıb bitirəndə (1935) amerikalı Bobby Fisher, gələcəyin şahmat üzrə dünya çempionu (1943-2008) hələ anadan olmamışdı...

* * *

Avstriyalı yazıçı Stefan Zweig`in (1881-1942) 1941-ci ildə yazdığı və ölümündən sonra dərc olunan "Schachnovelle" (Şahmat novellası: ingiliscədə: Royal Game) onun əksər digər əsərləri kimi gözəl və çox populyardır. Əsər üzrə Almaniyada (Almaniya Federativ Respublikasında) bədii film "Brainwashed "(Beyni yuyulmuş, 1960, rejissor: Gerd Osvald), SSRİ-də isə televiziya filmi (1974) çəkilmişdir. Bu əsər əsasında Çexoslovakiyada da bədii film çəkilmiş (1980), İspan bəstəkarı Cristóbal Halffter tərəfindən opera yazılmış, Kiel Opera House`da tamaşaya qoyulmuşdur (2013, 18 may).



*Stefan Zweig*

Əhvalat Nyu-Yorkdan Buenos-Ayresə gedən gəmidə baş verir. Şahmat üzrə dünya çempionu, özündən razı və lovğa Mirko Çentoviç`in də gəmidə olduğu bilinir. Onun insanlara yaxın gəlmədiyini görüb, sərnişinlər öz aralarında şahmat oynayır, onun kənarda dura bilməyəcəyini düşünürlər. Şotlandiyalı və özündən razı bir varlı şəxs Mirko`ya matç oynamağı təklif edir. Çentoviç böyük pul istəyir və matç başlanır. Bir tərəfdə dünya çempionu, digər tərəfdə kollektiv oynayan həvəskarlar. Birinci oyunu Mirko çətinlik çəkmədən udur. İkinci oyunda Çempionun qurduğu tələni kənarda dayanıb oyunu izləyən Doktor B görür, oyunçulara kömək edir və oyun heç-heçə bitir. Çox güclü oyunçu olduğu görünən Doktor B-nin həyat hekayəsi məlum olur. Hüquq doktoru olan B-ni gestapo həbs edir, ondan müəyyən vacib sənədlər haqqında məlumat almaq istəyirlər. Doktor B-ni təcrid edir və uzun, amansız sorğu-suala tuturlar. O, dəli olmaq dərəcəsinə gəlir. Doktor B bir dəfə divardan asılmış paltonun cibindəki şahmat kitabını oğurlayır. O, kitabdakı oyunları öyrənmək üçün şahmat taxtasını və fiqurları uyğun olaraq mələfə və çörək qırıntıları ilə əvəz edir, ancaq bir az sonra buna ehtiyac duymur. Doktor B oyunları yadda saxlamaqla bütün kitabı təkrar-təkrar öyrənir, sonra öz-özünə, gözünün önünə gətirib şahmat oynamağa başlayır. Bu aludəçilik ehtirasa çevrilir, yuxusunda da şahmat oynayır. Əsəb gərginliyi keçirən Doktor B xəstəxanaya düşür, nəhayət, onu azad edirlər.

Çentoviç və Doktor B şahmat oynamağa razılaşırlar. Birinci oyunda Doktor B qələbə çalır. İkinci oyunda təcrübəli Çentoviç Doktor B-nin səbrsizliyini görür və rəqibi əsəbiləşdirmək niyyəti ilə hər gedişə çox vaxt sərf edir. Əsəbiləşən Doktor B deyəsən fikrində başqa oyun keçirir və birdən "şah" elan edir, əslində isə bu yanlışdır. Doktor B sonda təslim olur, üzr istəyib gedir.

* * *

1972-ci ildə baş tutan Fisher-Spasskiy matçı və şahmat tacının SSRİ-dən ABŞ-a köçməsi onsuz da

soyuq savaşda olan iki super dövlət arasındakı ideoloji savaşa yeni çalar qatdı. Məsələn, "The Rook" adlı televiziya serialı çəkildi. Sonrakı Karpov-Korçnoy qarşıdurması soyuqluğu davam etdirdi. Bu mövzu ədəbiyyatda, təsviri incəsənət və musiqidə öz əksini tapdı. Yuxarıda Vladimir Vısotski`nin "Честь шахматной короны" mahnısını yada salmışdım.

Şahmat meydanının Qərb-Şərq qarşıdurmasına çevrilməsi mövzusuna əsər həsr edənlər arasında Tim Rice da vardır. Yazıçı və ssenarist, film, musiqili tamaşa və şoular müəllifi, çoxsaylı mükafat və adlara layiq görülmüş, o cümlədən Hollywood Şöhrət Alleyasında (Hollywood Walk Fame) ulduzlar sırasında yer almış Tim Rice (1944) şahmat və soyuq savaş mövzusu üzərində düşünməyə başladı, musiqili tamaşa yazmaq fikrinə düşdü. O, Meranoda (İtaliya) Karpov-Korçnoy matçını (1981-ci il) izlədi, Karpovla söhbət etdi. İsveçli məşhur ABBA pop qrupunun kişi cütü – musiqiçi və bəstəkar, müğənni və prodüserlər Byörn Ulvaeus və Benny Andersson məmnuniyyətlə tamaşanın musiqisi üzərində işlədilər. Müzikl üçün B. Ulvaeus müəyyən mahnı mətnləri yazdı. Nəhayət, 1984-85-ci illərdə "Chess" (Şahmat) adlı albom meydana çıxdı, 1986-89-cu illərdə isə bu musiqili tamaşanın Britaniya variantı baş tutdu. Dinamik məzmunu, gözəl musiqisi və mahnıları ilə qeyri-adi dərəcədə populyar olan "Chess" musiqi tamaşası üzərində iş bir az fərqli Amerika variantı (1988-ci il) və müxtəlif səsyazmalar şəklində davam etdi. Bu tamaşa SSRİ-də qadağan edildi. Sonralar bir rus variantı hazırlansa da, o, populyar olmadı.



*Tim Rice*

Tamaşa–Müzikl soyuq savaşla insani münasibətlər, ideologiya ilə sevgi və qısqanclıq qarşıdurmaları üzərində qurulmuşdur. Şahmat üzrə dünya çempionluğu matçının Merano şəhərində baş verəcəyi elan edilir. Amerikalı dünya çempionu Freddie Trumpue və onun sevgili rəfiqəsi və sekundantı Vassy Florence arasında Freddie`nin müxbirlərlə qeyri-mədəni davranışı barədə söhbət gedir. SSRİ çempionu və dünya çempionluğuna namizəd Anatoliy Serqiyevski öz sekundantı və Dövlət Təhlükəsizliyi Komitəsi (KQB) üzvü Molokov ilə gəlir. Freddi oyun zamanı birdən şahmat taxtasını yerə vurub oyunu tərk edir. Florence çətinliklə Freddie və Anatoliy`i görüşdürür. Florence`lə Anatoliy arasında xoş münasibət yaranır. Onsuz da psixoloji dayanıqlı olmayan Freddie matçı təhvil verir, Anatoliy çempion olur. O, SSRİ-də Svetlana ilə evlidir, uşaqları var. Buna baxmayaraq Anatoliy Qərbdə qalmaq fikrinə düşür, Florence ilə birlikdə qaçır, SSRİ-yə qayıtmır. O, "mənim üçün yeganə sərhəd ürəyim ətrafında başverənlərdir" deyir. Bir ildən sonra Anatoliy çempionluğa namizəd Amerikalı Leonid Viigand`la matç üçün Bangkoka, Tailanda gəlir. Leonidi hazırlayan və onun çempion olması üçün çalışan Molokov bir tərəfdən Svetlananın Bangkoka gəlməsini təşkil edir, digər yandan Florence`ə Anatoliy`in uduzması üçün işbirliyi təklif olunur. Florence macar əsillidir, onun atası 1956-cı il Macar üsyanı zamanı öldürülüb və ya SSRİ-də həbsdədir. Florence`ə Anatoliy uduzsa, SSRİ-də həbsdə olan atan qaytarılacaq – deyirlər. Anatoliy matçı udur. Florens Anatoliy`in Svetlana ilə birləşməsini və vətənə qayıtmasını istəyir. Bu baş tutduqdan sonra məlum olur ki Florence`in atası ölübmüş, SSRİ-də həbsdə olması yalanmış. Florence düşüncəyə dalır, Anatoliy deyəni təkrar edir "mənim üçün yeganə sərhəd ürəyim ətrafında başverənlərdir"...

Çex bəstəkar Bohuslav Martinů (1890-1959) "Echee au Roi" (Kralın şahmatı) adlı balet yazdı...

* * *

Şair və yazıçı, filosof və siyasətçi, musiqiçi və təsviri incəsənət ustaları, sosioloq və psixoloq və digər sənət sahibləri öz yaradıcılıqlarında şahmat metaforlarından istifadə etməklə kifayətlənməmiş, şahmat mövzusuna xüsusi əsərlər həsr etmişlər. Tamamilə şahmat mövzusuna həsr olunmuş və ya şahmatın yadda qalan yer tutduğu müxtəlif janrlı musiqi və təsviri incəsənət əsərləri, teatr tamaşaları, qısa və tam metrajlı filmlər, çoxsaylı bədii əsərlər mövcuddur.

"Шахматная горячка" (Şahmat qızdırması iki rejissor – V. Pudovkin və N. Şpikovski`nin çəkdiyi (və Pudovkin üçün debüt olan) səssiz bədii komediya filmidir (1925, 21 dekabr). Birinci Moskva beynəlxalq turniri zamanı (1925, 10 noyabr - 8 dekabr) turnir içtirakçıları olan tanınmış şahmatçıların da (C. Torre, R. Spielmann, F.J. Marshall, R. Reti, E. Grünfeld, F. Yates...) göründüyü

filmdə dünya çempionu Capablanca xüsusi yer tutur və bu rolu Capablanca özü oynayır! Moskvanı şahmat həyəcanı bürüyüb. Evlənmək ərəfəsində olan gənc oğlan şahmata elə aludə olub ki, sevgilisi ilə görüşə getmir. Möhkəm inciklik onları bir-birindən ayırır. Oğlan çayda boğulmaq, qız zəhərlənmək istəyir. Bu baş tutmur. Dünya çempionu Capablanca təsadüfən qıza rast gəlir, əhvalatı bilir və gözəl xanımın yanında "şahmatdan zəhləm gedir" – deyir və qızı turnirə dəvət edir. Turnirə gələn qəhrəman gənc oğlan sevgilisini orada görüb heyrət edir. Onlar qıcaqlaşıb barışırlar, yəni, şahmat onları barışdırır; sonda bir-biri ilə şahmat oynayırlar. Bu filmin çəkilməsi bir ay çəkməyib. Film SSRİ-də şahmatın populyarlaşmasında rol oynadı. Filmdəki şahmatsayağı dama-dama geyimlər dəbə çevrildi!




*"Шахматная горячка" – film-afişa*

Ingmar Bergman`ın (1918-2007) "Yeddinci möhür" filmi (1957) şahmat oyunu üzərində qurulan və həyat, ölüm, həyatın mənası kimi fəlsəfi düşüncələri içinə alan klassik filmdir. 14-cü əsrdə Xaç yürüşündən vətənə – İsveçə qayıdan cəngavər və onun silahdaşıyanı qara paltarda qarşılarına çıxan Ölümlə rastlaşırlar. Tanrı, İblis kimi ideyalara şübhə ilə yanaşan cəngavər Ölümə şahmat oynamağı təklif edir, belə ki, Ölüm qalib gəlsə onun canını alsın, Cəngavər qalib gəlsə, Ölüm ona toxunmasın. Oyun başlayır, fasilələrlə, hissə-hissə, yol boyu, film boyu davam edir. Bir kilsəyə girib keşişə öz şahmat strategiyası barədə danışan cəngavər sonra keşişlə deyil, Ölümlə danışdığını başa düşür. Yolda rast gəldikləri ata, ana və oğuldan ibarət üç nəfərlik köçəri, sərsəri aktyor ailəsi də Ölümün hədəfinə düşür. Cəngavər onun ölüm-dirim məsələsinə çevrilən şahmat oyununu uduzur, amma, uzun oyun zamanı Ölümün başını qatır və aktyor ailəsinin Ölümdən uzaqlaşmasına nail olur. Evə qayıdıb Ölümə təslim olan Cəngavər bir ailəni Ölümdən xilas etməklə təsəlli tapır. Rejissor filmi özünün yazdığı Ağac boyama (Wood Painting) pyesi üzərində qurub. I. Bergman`ı məşhur film rejissoru kimi dünyaya məhz "Yeddinci möhür" filmi tanıtdı.



*Ingmar Bergman*

Amerikalı yazıçı Walter Tevis`in (1928-1984) eyniadlı əsəri (1983) üzrə Netflix film istehsal şirkəti tərəfindən çəkilən The Quenn`s Gambit (Vəzir qambiti) miniserialı (2020) çox məşhurlaşdı. Scott Frank və Allan Scott`un yaratdığı filmin baş qəhrəmanı yetim qız Elizabeth (Beth) Harmon şahmat oynamağı öyrənir və çox böyük istedad nümayiş etdirir. Rəsmi şahmat yarışlarına qoşulan və böyük uğurlar qazanan, məşhurlaşan Beth`in şahmat zirvəsinə qalxmasına sakitləşdirici dərmanlara və alkohola aludəçiliyi mane olur. Özündə güc tapan Beth rus dünya çempionu üzərində qələbə ilə arzusuna çatır. Bir sıra nüfuzlu mükafatlara layiq görülən bu miniserial şahmatın yeni dövrdə populyarlaşmasında böyük rol oynadı.




*Quenn`s Gambit*

# Oyun dünyası və şahmat

İnsanı insan edən düşüncə gücü və gözəllik duyğusu təsvirolunmaz dərəcədə zəngin və rəngarəngdir. Bizi əhatə edən təbiət öz gözəlliyi və sirləri ilə insana zövq verir və onu düşündürür. Ətraf dünymızı anlamaq, onunla ünsiyyətə girmək, onunla əməkdaşlıq etmək istəyi elmin və texnologiyanın inkişafında həlledici amil olmuşdur. Təbiət öz gözəlliyi və rəngbərəngliyi ilə insan düşüncəsini və duyğularını qidalandırmış, insan təbiəti təsvir və təqlid etməyə başlamışdır. İnsan təbiəti təqlid edə-edə təbiətdə olmayan, insan beynində yaranan əsərlər meydana çıxarmağa başlamışdır. Bu elm, fəlsəfə, musiqi, incəsənət əsərləri gözəllik və zənginliyinə görə ətraf aləmlə yarışa bilən, onu üstələyən, maddi olmayan bir dünyanın – insanın düşüncə və tərənnüm dünyasının təməlini qoymuşdur. Bu dünyanın içində böyük bir oyun dünyası mövcuddur. İnsan özünü dərk edəndən bəri oynamışdır, oyunsuz yaşaya bilməmişdir. Oyun mədəniyyətin canıdır. Heyvanlar da oynayır, amma onlar insana xas olan dil və düşüncəyə malik deyillər. Dil özü söz oyunudur.

Oyun həzz verir, təbiətin və həyatın müəyyən etdiyi çərçivələrdən kənara çıxmağa imkan yaradır. Oyun həyatı zənginləşdirir, onu maraqlı edir. Oyunun yaratdığı gərginlik həyəcan doğurur, maneələri aşıb keçmə, sınaqdan çıxma gücü yaradır, səfərbər edir. Oyun yemək, içmək, yatmaq, qorunmaq kimi bioloji tələbatlardan fərqli olaraq hissləri coşdura bilir, inam yaradır, özünü ifadə etmək imkanı verir. Oyun adi həyata sevinc gətirir. Oyun seçilmək, görünmək nəşəsi verir. Beləliklə, insan üçün var olmaq istəyi ilə yanaşı oyun da zəruriyyətə çevrilir. Oyun insan həyatına ahəng (harmoniya) və ritm bəxş edir. Yəqin ki, bir və ya bir neçə oyuna maraq göstərməyən adam tapmaq mümkün deyil. Oyun teatrdır, oynayanlar da var, həyəcan içində onları izləyən tamaşaçılar da.

Oyun insanları cəlb etmək baxımından dinin rəqibinə çevrildi. Dinin bir sıra oyunları haram sayma cəhdlərinin ən azı bir səbəbi budur.Və bu rəqabətdə oyun qalib gəldi. Çağdaş insanların kumirləri, pərəstiş etdikləri şəxslər arasında idmançılar birinci sıralardadır. İnsanlar məbədlərə, məscid və kilsələrə deyil, stadionlara axın edirlər, televiziya və internetdə idman yarışlarına tamaşa edirlər. Oyunun xoşagələn bir cəhəti də onun nisbi təmizliyidir, adətən, güclü qalib gəlir. Bu mənada oyun təmiz və ciddi, siyasət isə "çirkli oyun" sayılır.

Dildə "oyun" kəlməsi mənfi məna da daşıya bilir, sanki manipulyasiyanı və ya qeyri-ciddiliyi göstərə bilir - "siyasi oyunlar" kimi və ya "mənimlə oyun oynama" kimi. Uşağın həyatı oyundan ibarətdir, oyun gənclərin həyatında da böyük yer tutur. Böyüklər də oynayır, əsasən uşaq və gənclik dövründəki oyunu davam etdirməklə; böyüklərin gözlənilmədən yeni və ağır oyuna başlamaları uğur gətirməyə bilər, "qırxında çalan gorunda oynayar" ifadəsi bunu deyir.

İnsan həyatı oyunla doludur. Shakespeare "As you like it" (Sizə necə xoş gəlirsə) komediyasında dediyi kimi, "bütün dünya səhnədir / Və bütün kişi və qadınlar oyunçudurlar / Hər birinin girişi və çıxışı var..." Həyatı geniş mənada oyun saymaq mümkündür. Amma, şahmat və ya hər hansı digər intellektual və ya bədən, əl-ayaq oyunu gündəlik təkrarlanan adi həyatdan uzaqlaşmaq imkanı verir, oynamaq – insanın özünün fəal olduğu maraqlı bir dünyaya daxil olmaqdır. Dərs prosesində oyun xüsusiyyətlərini tətbiq etmək bacarığı adətən pedaqoji ustalıq əlaməti sayılır. Bəxti gətirməklə bağlı oyunları (lotereya, zər atma, qumar,...) istisna etməklə oyunların çoxuna xas olan azadlıq, "hər şey sənin özündən asılıdır" fikri insanı cəlb edir.

Oyun iki şəxs arasında və ya hər iki tərəfdə eyni sayda oyunçudan təşkil olunmuş iki komanda arasında baş verir. Futbol, voleybol, basketbol kimi oyunlar komandalar arasında, şahmat, boks, güləş kimi oyunlar iki şəxs arasında yarışdır, hərçənd ki, ikinci növ oyunlarda da komanda yarışları düzəldilir, amma bu halda yarış yenə də cütlər, yəni hər tərəfdən biri olmaqla iki şəxs arasında gedir.

* * *

Şahmat insanın icad etdiyi ən parlaq zəka məhsullarından biridir. Şahmatın əsasında sistemli bilik, sənətə xas olan xəyal gücü və yarış ruhu dayanır. Şahmat bədən deyil, ağıl üzərində qurulan idman növüdür, ciddi oyundur. Bugünkü şahmatın ilk əcdadı Hindistanda yaransa da, onun şətrənc adı alan və düzülüş və fiqurlarına görə bugünkü ilə eyni olan şəkli İslam dünyasında geniş yayıldı, sevimli oyuna çevrildi. Əsasən Əndəlüs vasitəsilə Avropaya keçən şahmat 16-cı əsrdə indi bildiyimiz qaydalara gəlib çıxdı. Avropada son şəklini alan və yeni güc qazanan şahmat dünyaya yayıldı. Şahmat idman növü olmaqla məhdudlaşmadı, mədəniyyət göstəricisinə çevrildi. Şahmat bilən hər kəs yaşından, cinsindən, din və millətindən asılı olmayaraq şahmatda özünə yer tapa bilir,

şahmatın vətəni Hindistandan gələn müdrik ifadə də bunu deyir: "şahmat bir okeandır ki, orada fil də çimir, milçək də".

Şahmat həm də müəllimdir, dərs verir ki, həmişə udmaq mümkün deyil, həyatda səhvlər olur (dünya çempionu da uduzur). Fisher demişkən, "şahmat belədir: buğun sən rəqibinə dərs verirsən, sabah o sənə".

Şahmat abidələri, şahmat sənət əsərləri yazıya, notasiyaya alınır və yaşayırlar. Musiqi əsərləri kimi onları yenidən dilləndirmək, görmək, görüb, təhlil edib həzz almaq mümkündür. Şahmatın yarış ruhu ilə estetik təyinatı yan-yanadır. Şahmat gözəlliyinə görə sevilir. SSRİ-də şahmat kultu, şahmata pərəstiş vardı. Bu, həm şahmatın obyektiv cazibəsinin, həm idmana diqqətin, həm də siyasi amillərin nəticəsi idi. İndiki dövrdə şahmata diqqət əsasən fərdiləşmişdir. Azərbaycan kimi ölkələrdə hibrid model işləyir – dövlət qayğısı mühümdür, amma, fərdi təşəbbüs və çalışma da zəruridir.

Dünyamızı dəyişdirən, kiçildən, sürətləndirən kompüter və internet şahmata da böyük təsir göstərmişdir. Peşəkar şahmatçılar şahmat proqramlarının köməyindən istifadə etməyə məcburdurlar. Şahmat bilik bazası kağızdan elektron qaynaqlara keçib. Bütün şahmatçılar məsafədən oyundan bəhrələnir, məşq edir, öz kompüterləri qarşısında əyləşib 3-5 dəqiqəlik və ya daha az, daha çox vaxt çərçivəsində şahmat oynayırlar. Həvəskar şahmatçılar da öz gücünə yaxın rəqiblərlə, cürbəcür ölkə vətəndaşları ilə yarışa bilirlər. Şahmat bilməyənlər də var və bu, dəhşətli böyük itki sayılmır. Bunu şahmat dəlisi və dahisi olan Fisher də təsdiqləyir: "mən nəhəng iradə gücü olan, amma şahmat oynaya bilməyən adamlar tanıyıram".

Hər bir şahmat əsərinin, şahmat partiyasının iki müəllifi var – ağlarla və qaralarla oynayan şahmatçı. Əksər hallarda bu müəlliflərdən birinə (qələbə çalana və ya gözəllik nümayiş etdirənə) üstünlük verilir.

Şahmat bəşəriyyətin cazibə mərkəzlərindən biri olaraq yaşayır. Şahmatçıların sırası artır, möhkəmlənir, rəngbərəng olur. Şahmat ehtirası sönən deyil, od alıb yanır və yandırır.

# Əlavə (Appendix)

## Leonard Barden`in peyğəmbərliyi

Hələ R. Fisher`in dünya çempionu olduğu dövrdə ingilis The Guardian Weekly qəzetinin həftəlik şahmat icmalçısı Leonard Barden 24 fevral 1975-ci il tarixli sayında "1990-cı ilin dünya çempionu" (World Champion 1990) başlıqlı maraqlı məlumat vermişdi (səh. 16). Orada, xüsusi halda, belə deyilirdi: "Böyük ehtimalla zənn etmək olar ki, Fisher`in varisi Karpov olacaq... Bəs Karpovdan sonra dünya çempionu kim olacaq?" Barden ABŞ və Şərqi Almaniyalı iki gənc istedadlı şahmatçının adını çəkir, amma belə yekun vurur: "Zənnimcə, 1990-cı ildə dünya çempionu roluna iddia edən dedikcə aydın bir favorit var. O, 11 yaşlı Bakılı Garry Wainstein`dir"

**Qeyd.** Qarri Vaynşteyn sonralar öz soyadını anasının soyadı ilə dəyişərək Qarrı Kasparov olmuşdu.

**Qeyd.** Tal bir qədər zarafatla demişdi: Qarri o dərəcədə güclü şahmatçıdır ki, öz soyadını (Vaynşteyn) saxlaya bilərdi.

Göründüyü kimi, Bardenin öngörməsi (proqnozu) təsdiq olundu. Doğrudur ki, Q. Kasparov "ona ayrılmış" vaxtı xeyli ixtisar etdi və gözləniləndən beş il tez 13-cü dünya çempionu oldu.

**Qeyd.** Dünya çempionu adı uğrunda 1984-cü il sentyabr ayında başlanan Karpov – Kasparov matçında 27-ci oyundan sonra Karpov 5-0 irəlidə idi və matçı 6-0 hesabı ilə bitirmək şansı əldə etmişdi. Bu imkandan istifadə edə bilməməsi üzündən bu iki böyük şahmatçı tac uğrunda dalbadal 4 matç oynadılar. Məlum olduğu kimi Q. Kasparov dünya çempionu oldu. Birinci matç 6-0 hesabı ilə bitsə, bunun Kasparov üçün böyük fəlakət olaağı təbii görünür (o zaman Bardenin Kasparova ayırdığı çempion olma vaxtı da daha dəqiq olardı...).

Yeri gəlmişkən, Q. Kasparov 1985-ci ilin noyabr ayında çempionluq şahmat tacını qazandıqdan sonra L. Barden`in bu yazısı təkrar olaraq həmin qəzetdə yerləşdirilmişdi (L. Barden`in haqlı qürurunu gizlətmədən!). O zaman mən Kanada`da Calgary universitetində çalışırdım və həmin yazı ilə orda tanış oldum. Sonralar Bakıda rusca nəşr olunan "Шахматы" qəzetində (redaktoru Fikrət Sideyifzadə) bu barədə qısa məlumat verdim. F. Sideyifzadə mənim yazımı yalnız Barden`in öngörməsi haqqında ingiliscə məlumatın əslini gördükdən sonra dərc etməyə razı oldu.

* * *

Leonard Barden 1929-cu il avqust ayının 20-də London şəhərində dünyaya gəlmişdir. O, güclü şahmatçı, sonra şahmat jurnalisti və şahmat təşkilatçısı kimi şöhrət qazanmışdır. 95 yaşlı şahmatçı və böyük şahmat təbliğatçısı və şahmat jurnalistinə can sağlığı və sevdiyi şahmatla oturubdurmaq imkanı arzu edirəm!



*Leonard Barden*

L. Barden Dünya şahmat olimpiadalarında dörd dəfə Böyük Britaniyanı təmsil etmişdir. Heyrətedici dərəcədə uzun müddət The Guardian, The Financial Times və London Evening Standard qəzetlərində şahmat guşələri yaratmış, o guşələrdə arasıkəsilmədən müəllif yazıları ilə çıxış etmişdir. Məsələn, The Guardian qəzetində yazmağa 1955-ci ilin sentyabrında başlamış, yorulmaz yazarın "Leonard Barden`s weekly chess column" guşəsində yazıları 67 il davam etmişdir! Bu dünya rekordudur!

**Qeyd.** L. Barden`in Evening Standard qəzetindəki günlük şahmat guşəsi 4 iyun 1956-cı ildə başlamış və 2020-ci il yanvarın 31-də son yazı ilə bitmişdir. Bu, gündəlik qəzet guşəsi kimi müqayisəyəgəlməz bir dünya rekordudur: 63 il 7 ay 27 gün! Onun öz sözü ilə: "... bütün jurnalistikada tək fərdin gündəlik guşəsi üçün dünya rekordu" ("... a world record in all journalism for a daly column by a single individual").

Barden şahmat teleşərhçisi kimi də fəaliyyət göstərmişdir. L. Barden Böyük Britaniyada şahmatın populyarlaşması və inkişafı üçün böyük əmək sərf etmişdir.

L. Barden yenə The Guardian qəzetində öz öngörməsini, şahmat peyğəmbərliyini qürurla yada salmışdı: "Mənim The Guardian`da 24 fevral 1975-ci ildəki öngörməm Botvinnik`in "şahmatın gələcəyi Kasparovun əlindədir" – deyə dərc etdirdiyi məşhur qeyddən təqribən 15 ay əvvəl dərc olunmuşdur"

Həmin 24 fevral 1975-ci il tarixində L. Barden daha bir öngörmə ilə çıxış etmiş, 10 yaşlı Nigel Short`u Qarri Kasparov`un potensial rəqibi saymışdı. L. Barden`in bu öngörməsi də özünü tam doğrultdu! N. Short 1992-ci ildə yarımfinalda Anatoli Karpov`a qalib gəldi (+ 4 – 2 = 4), finalda isə Timman`ı uddu (+ 5 – 3 = 5) və dünya çempionu adı uğrunda oynamaq haqqı qazandı. 1993-cü ildə dünya tacı uğrunda oyunda matçı Q. Kasparov qazandı (+6 – 1 = 13).

L. Barden şahmata aid (6-sı həmmüəlliflərlə)18 kitab yazmış, həmçinin, çox kitab tərcümə etmiş, çox kitabın yazılmasında iştirak etmişdir. Görkəmli ingilis jurnalist, parlament üzvü və şahmatçı Brian Walden`ə (1932-2019) söz verirəm: "Leonard Barden Britaniya şahmatı üçün bizim məşhur 19-cu əsr çempionumuz Howard Staunton`dan sonra hər kəsdən çox töhfə vermişdir" (Edward Winter. Leonard Barden. https://www.chesshistory.com/winter/extra/barden.html).

(*Son*)

# "ALİ MƏKTƏBLƏRDƏ TƏHSİL HAQQI ARTIMI MÜNTƏZƏM BAŞ VERİR VƏ DAVAM EDƏCƏK"

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

# "TUITION FEES AT UNIVERSITIES TO INCREASE REGULARLY AND CONTINUE RISING"

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı 2024-cü il avqustun 5-də "Kaspi" qəzetinə verdiyi qısa müsahibədə bu mülahizəsini şərh etmişdir. Bildirmişdir ki, qiymət artımı heç də təhsilin keyfiyyəti ilə bağlı deyil: "Sadəcə, təhsilverənlər görəndə ki, təhsil haqqını bir az daha artıq almaq mümkündür və alanda imkanları daha da böyüyür, o zaman bu addımı atırlar. Bu baxımdan, burada təəccüblü heç nə yoxdur. Bu, valideynlə müqavilə bağlananda da qeyd edilir. Adətən, müqavilə bir illik olur və universitetlərin növbəti tədris ilində buna yenidən baxmağa ixtiyarları var".

H. İsaxanlının sözlərinə görə, təhsil haqqı zaman-zaman artacaq: "Çünki dünyada təhsil haqları çox yüksəkdir. Avropada, İngiltərədə, Amerikada təhsil haqlarına nəzər salsanız, rəqəmin 20-40 min arası dəyişdiyini görərsiniz. Onlarla müqayisədə bizdə təhsil haqları çox aşağıdır. Təbii ki, bu, bazara görə tənzimlənir. O ali məktəblərdə dünyanın hər yerindən oxumaq istəyənlər çox olduğuna görə onlar yüksək təhsil haqqı müəyyənləşdirirlər".

Bəzi ölkə saytları "Kaspi" qəzetinə istinadla müsahibəni dərc etmişlər.

Prof. Acad. Hamlet Isakhanli, the founder of the university, the chairman of the Board of Directors and Trustees, commented on this opinion in a brief interview with "Kaspi" newspaper on July 5, 2024. He stated that the fee increase is not at all related to the quality of education:

"When educators realize they can charge slightly higher fees for education, and when they get it, their opportunities increase, then they take this step. From this perspective, there is nothing surprising about it. This point is also addressed when parents sign the contract. Typically, contracts are valid for one year, and universities can review them for the following academic year."

H. Isakhanli pointed out that tuition fees will keep increasing at intervals: "Tuition fees are extremely high globally. For instance, in Europe, England, and America, they range from 20,000 to 40,000. In comparison, our tuition fees are relatively low. This is influenced by market conditions. Because there is a high demand from students worldwide for those universities, they can charge higher fees."

Some country websites have shared the interview, citing the "Kaspi" newspaper.

***https://modern.az/tehsil/481528/universitetlerde-tehsil-haqqi-zaman-zaman-artacaq-rektor/ və s***

MISKOLCI EGYETEM
UNIVERSITY OF MISKOLC

# XƏZƏR UNİVERSİTETİNİN ERASMUS+ QISAMÜDDƏTLİ MOBİLLİK PROQRAMINDA İŞTİRAKIM

# MY ERASMUS+ SHORT-TERM MOBILITY EXPERIENCE AT KHAZAR UNIVERSITY




*Ziya Mehdiyev, Əli Mirzəzadə (Xəzər Universiteti, Beynəlxalq şöbə)*

Macarıstanın Mişkolç Universitetindən gəlib Xəzər Universitetində Erasmus+ qısamüddətli mobillik proqramında iştirakım akademik və peşəkar inkişafım üçün mühüm təcrübə oldu. Müasir avadanlıq və hərtərəfli təlimlər, polimer 3D modelləşdirmə üsulları çap biliklərimi əhəmiyyətli dərəcədə artırdı, mənə praktiki təcrübə qazandırdı.

Görkəmli professor və tədqiqatçılarla əməkdaşlıq tədqiqatımı zənginləşdirdi və akademik şəbəkəmi genişləndirdi. Bu proqram 3D çap edilmiş polimer hissələrinin mexaniki və triboloji xassələri haqqında anlayışımı dərinləşdirməklə doktorluq işlimi birbaşa dəstəklədi.

Dokrorluq tədqiqatlarımı aparmağa kömək edən və gələcək akademik və peşəkar fəaliyətim üçün möhkəm zəmin yaradan bu müstəsna imkana görə Xəzər Universitetinə və Erasmus+ proqramına minnətdaram.

**Ziya Mehdiyev**

My participation in the Erasmus+ short-term mobility program at Khazar University, coming from Miskolc University in Hungary, has been a transformative experience for my academic and professional growth. The advanced facilities and comprehensive training significantly enhanced my expertise in polymer 3D printing, providing hands-on experience with state-of-the-art machinery and advanced 3D modelling techniques.

Collaborating with esteemed professors and researchers enriched my research and expanded my academic network. This program deepened my understanding of the mechanical and tribological properties of 3D-printed polymer parts, directly benefiting my doctoral studies.

I am grateful to Khazar University and the Erasmus+ program for this exceptional opportunity, which has advanced my PhD research and laid a strong foundation for my future academic and professional endeavors.

**Ziya Mehdiyev**

# ÇUKUROVA UNİVERSİTETİNDƏ ERASMUS TƏCRÜBƏM: UZUN MÜDDƏT XATIRLANACAQ BİR SƏFƏR

# MY ERASMUS EXPERIENCE AT ÇUKUROVA UNIVERSITY: A JOURNEY TO REMEMBER



Türkiyənin Adana şəhərindəki Çukurova Universitetində Erasmus mübadilə proqramında iştirak etmək mənim üçün hər zaman xoş xatırlayacağım əhəmiyyətli bir təcrübə oldu. Gəldiyim andan etibarən yerli əhalinin istiqanlılığı, zəngin tarixi və qonaqpərvərliyi ilə tanınan bir şəhər olan Adananın canlı mədəniyyəti ilə əhatə olunmuşdum.

Çukurova Universitetindəki akademik mühit həm çətin, həm də zəngin idi. Professorlar təkcə bilikli deyil, həm də əlçatan idilər, həmişə yol göstərməyə və dəstək olmağa hazır idilər. Universitetin ən müasir imkanları və Seyhan çayı boyunca yerləşən gözəl kampusu öyrənmə və şəxsi inkişaf üçün əlverişli mühit yaradırdı.

Mübadiləmin vacib məqamlarından biri Çukurova Universitetində Erasmus Tələbə Şəbəkəsində (ETŞ) fəal iştirakım oldu. Tələbələrdən ibarət xüsusi qrup olan ETŞ Şurası beynəlxalq tələbələr arasında birlik hissini gücləndirən çoxsaylı tədbirlər təşkil etdi. İştirakçı ölkələrin müxtəlif adət-ənənələrini nümayiş etdirən mədəniyyət gecələri və Türkiyənin çox gözəl mənzərələrini görmək imkanları verən həftə sonu ekskursiyalar kimi ETŞ tədbirləri orada keçirdiyim günləri unudulmaz etdi.

Bu, yalnız akademik mübadilə deyildi; şəxsi inkişaf, mədəni anlayış və ömür boyu davam edəcək dostluqlar yolu idi. Bu fürsətə görə çox minnətdaram və Erasmus proqramında iştirak etməyi düşünən hər kəsi bu imkandan tam istifadə etməyə çağırıram.

**Fuad Yaminli**

Embarking on an Erasmus exchange program at Çukurova University in Adana, Türkiye, was a transformative experience that I will cherish forever. From the moment I arrived, I was embraced by the warmth of the local community and the vibrant culture of Adana, a city renowned for its rich history and hospitality.

The academic environment at Çukurova University was both challenging and enriching. The professors were not only knowledgeable but also approachable, always willing to offer guidance and support. The university's state-of-the-art facilities and beautiful campus, nestled along the Seyhan River, provided a conducive atmosphere for learning and personal growth.

One of the highlights of my exchange was the active involvement with the Erasmus Student Network (ESN) at Çukurova University. The ESN board, a dedicated group of students, organized numerous events that fostered a sense of community among international students. From cultural nights showcasing the diverse traditions of participating countries to weekend excursions exploring the breathtaking landscapes of Türkiye, the ESN events were instrumental in making my stay unforgettable

It was more than just an academic exchange; it was a journey of personal growth, cultural understanding, and lifelong friendships. I am profoundly grateful for the opportunity and would encourage anyone considering an Erasmus program to embrace it fully.

**Fuad Yaminli**

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ SINAQ DƏRSLƏRİ KEÇİRDİ

Sentyabrın 3-dən 10-dək İngilis dili və ədəbiyyatı departamenti tərəfindən sınaq dərsləri təşkil olundu. Sınaq dərslərində iştirak edən müəllimlər – növbəti tədris ilində İngilis dili və ədəbiyyatı departamenti ilə əməkdaşlıq etmək istəyən namizədlər – əvvəldən təyin olunmuş mövzu ətrafında müddəti 20 dəqiqə olan dərslər keçdilər.

Dərslər departamentin müdiri Dr. Milana Abbasova və digər əməkdaşları, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova tərəfindən dinlənildi və qiymətləndirildi.

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT HOLDS DEMO LESSONS

From September 3-10, 2024, demo lessons were organized by the Department of English Language and Literature. Candidates aspiring to collaborate with the department for the upcoming academic year conducted 20-minute lessons on assigned topics.

The performance of these candidates was assessed by department head Dr. Milana Abbasova, alongside other instructors and the director of the Quality Assurance Centre, Lyudmila Sotova.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ İCLAS

Sentyabrın 5-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasovanın sədrliyi və departament müəllimlərinin iştirakı ilə iclas keçirildi.

Dr. Abbasova keçən semestrdə əldə olunmuş akademik nailiyyətlər, o cümlədən konfranslar, müsabiqələr və seminarlar haqqında məlumat verdi. O, bu əhəmiyyətli tədbirlərin təşkilində və həyata keçirilməsində fəal iştirak edən müəllimlərə təşəkkürünü bildirdi.

Sonra iclasda 2024-2025-ci tədris ili üçün akademik hədəflərin müəyyənləşdirilməsi müzakirə olundu və departament üçün əsas məqsədlər qeyd edildi. Yeni müəllimlər kollektivə təqdim olundu. İclas departamentin tədris və tədqiqat təşəbbüslərini daha da inkişaf etdirmək məqsədi daşıyan müxtəlif akademik məsələlərin müzakirəsi ilə yekunlaşdı.

## MEETING IN THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE

On September 5, a meeting was held under the chairmanship of Dr. Milana Abbasova, the head of Khazar University's English Language and Literature Department, with the participation of the department's lecturers.

Dr. Abbasova opened the meeting by reviewing the successful academic achievements of the previous semester, including conferences, contests, and seminars. She expressed her gratitude to the teachers who actively participated and contributed to organizing these significant events.

The meeting then focused on setting academic goals for the 2024-2025 academic year, highlighting key objectives for the department. New lecturers were introduced and warmly welcomed to the team. The meeting concluded with a discussion on various academic matters, aiming to further enhance the department's teaching and research initiatives.

## REKTOR İQLİM DƏYİŞİKLİKLƏRİNƏ QARŞI MÜBARİZƏYƏ HƏSR OLUNMUŞ FORUMDA

Sentyabrın 11-12-də Azərbaycanda mühüm qlobal tədbir olan "Qlobal ali təhsil gündəliyində iqlim dəyişikliklərinə qarşı mübarizə" mövzusunda forum keçirilib. Forumda Xəzər Universitetini rektor Dos. İradə Xəlilova təmsil etmişdir.

COP29 ərəfəsində keçirilən forum iqlim fəaliyyətinə dair SDG 13-ü əsas tutaraq və universitetlərin iqlim fəaliyyətini əsas institusional prioritet kimi inteqrasiya edərək, gələcək nəsillərin ehtiyaclarının qarşılanmasında mühüm rol oynamalı olduğunu vurğulamışdır.

"İqlim dayanıqlılığının qurulmasında fənlərarası tədqiqatın rolu" mövzusunda panel müzakirəsi zamanı British Council-ın (Britaniya Şurası, Azərbaycan) ölkə üzrə direktoru Nərgiz Hacıyeva Xəzər Universiteti və Böyük Britaniyanın Exeter Universitetinin əməkdaşlığını yaxşı nümunə kimi qeyd edib.

## RECTOR PARTICIPATES IN THE FORUM ON FIGHT AGAINST CLIMATE CHANGES

The University Impact Forum on "Prioritizing climate action on the global higher education agenda", a significant global event, was held on September 11-12 in Azerbaijan. Assoc. Prof. Irada Khalilova, rector represented Khazar University at the forum.

The Forum, held in anticipation of COP29, centered on SDG 13 for climate action and emphasized the crucial role universities must play in addressing the needs of future generations by integrating climate action as a core institutional priority.

During the panel discussion on "What is the role of interdisciplinary research in building climate resilience?" Khazar University and Exeter University in the UK collaboration as a good example was mentioned by Nargiz Hajiyeva, Country director (Azerbaijan) British Council.

## ELM VƏ TƏHSİL NAZİRİ MÜŞAVİRİNİN AÇILIŞ DƏRSİ

## FIRST LESSON OF ADVISOR TO THE MINISTER OF SCIENCE AND EDUCATION AT KHAZAR UNIVERSITY





*Nicat Məmmədli*

Sentyabrın 16-da Azərbaycan Respublikası elm və təhsil nazirinin müşaviri Nicat Məmmədlinin Siyasi elmlər və fəlsəfə departamentinin birinci kurs tələbələrinə "Siyasi elm siyasət qərarlarını necə formalaşdırıb" mövzusunda açılış dərsi keçirilmişdir.

Mühazirədə Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev, müəllimləri, doktorantları və tələbələr iştirak etmişdir.

Nicat Məmmədli öncə tələbələri salamlayaraq, onlara universitet həyatında uğurlar arzulamışdır. Mühazirə siyasi elmi araşdırmaların, siyasi mütəfəkkirlərin nəzəriyyələrinin siyasətə təsiri mövzularını əhatə etmişdir. Sonra tələbələrin sualları cavablandırılmışdır.

On September 16, Nijat Mammadli, adviser to the Minister of Science and Education of the Republic of Azerbaijan, delivered the inaugural lecture titled "How Political Science Shaped Policy Decisions" at Khazar University.

Assoc. Prof. Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy of Khazar University, lecturers, doctoral students and students of the Department of Political Sciences and Philosophy took part in the lecture.

Nijat Mammadli was the first to extend a warm welcome to the students and convey his best wishes for their success in university life. The inaugural lecture covered the impact of political scientific research and theories of political thinkers on policy. After the presentation, students' questions were answered.

## PSİXOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ BEYNƏLXALQ KONFRANSDA

Sentyabrın 16-da Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi Nilufər Akif Dəmirzadə İngiltərənin "King's College" Universitetində keçirilən beynəlxalq konfransda iştirak etmişdir. Konfransın əsas mövzusu anoreksiya nervosa, bulimiya kimi qida pozuntularından əziyyət çəkən şəxslərə erkən müdaxilə edilərək, psixoloji dəstəyin göstərilməsi və bu sahədə istifadə olunan "FREED" proqramının tətbiqi idi.

Kanada, Avstraliya, Niderland kimi ölkələrdən gələn klinik psixoloq və tədqiqatçılar öz təcrübələrini bölüşərək, qida pozuntuları sahəsində ortaya çıxan potensial problemləri və onların həllini də müzakirə ediblər.

Tədbir gənclərin psixoloji sağlamlığı sahəsində dünyada tanınan, qida pozuntuları, psixoz və şizofreniya kimi psixi sağlamlıq problemlərinin erkən diaqnostikası və müalicəsində əhəmiyyətli işlər görmüş tədqiqatçı Prof. Pat McGorry və "King's College"da Qida və Çəki Pozuntuları üzrə Araşdırma Mərkəzinin direktoru Prof. Ulrike Schmidt`in iştirakı ilə keçmişdir.

## PSYCHOLOGY DEPARTMENT FACULTY MEMBER AT INTERNATIONAL CONFERENCE

On September 16, Nilufar Akif Demirzadeh, a faculty member of Khazar University's Psychology Department, took part in an international conference at King's College University in England. The conference focused on early intervention and psychological support for individuals dealing with eating disorders like anorexia nervosa and bulimia, along with the implementation of the "FREED" program in this area.

Clinical psychologists and researchers from countries such as Canada, Australia, and the Netherlands shared their experiences and discussed potential problems in the field of eating disorders and their solutions. The event took place with the participation of Prof. Pat McGorry, a globally recognized expert on youth mental health, known for his significant contributions to the early diagnosis and treatment of issues such as eating disorders, psychosis, and schizophrenia, as well as Prof. Ulrike Schmidt, the director of the Eating and Weight Disorders Research Center at King's College.

## TƏLƏBƏLƏR ÜÇÜN İQLİM DƏYİŞMƏLƏRİ HAQQINDA DƏRS

## CLIMATE CHANGE LESSON DELIVERED TO STUDENTS





*Rövşən Kərimov*

Sentyabrın 18-də Coğrafiya və ətraf mühit departamentinin müəllimi Rövşən Kərimov Xəzər Universitetinin tələbələri

On September 18, Rovshan Karimov, a lecturer in the Department of Geography and Environment, conducted a

üçün iqlim dəyişmələri haqqında dərs keçmişdir. O, iqlim dəyişmələrinin baş verməsinin, bu prosesin son onilliklərdə sürətlənməsinin səbəbləri, iqlim dəyişmələrinin təsirlərinin zəifledilməsi barədə tələbələrə ətraflı məlumat vermişdir.

R. Karimov bu sahədə aparılan uzunmüddətli beynəlxalq əməkdaşlıq, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası, noyabr ayının 11-22-də Bakıda təşkil olunacaq COP-29 tədbiri, həmin tədbirin keçirilməsinin məqsədi və missiyaları haqqında auditoriyanı məlumatlandırmış, tələbələri maraqlandıran suallara cavab vemişdir.

class on climate change for students at Khazar University. He provided the students with comprehensive insights into the causes of climate change, the rapid acceleration of this phenomenon in recent decades, and the efforts to mitigate its impact.

R. Karimov briefed the students on long-term international collaborations in this field, the UN Framework Convention on Climate Change, and the COP-29 event scheduled to take place in Baku from November 11-22. He explained the event's goals and objectives and responded to the students' questions.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ TÜRKİYƏ SƏFİRLİYİNDƏ

## HEAD OF POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT AT THE TURKISH EMBASSY



*Orxan Vəliyev, Cihangir İşbilir*

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev sentyabrın 18-də Türkiyənin Azərbaycandakı səfirliyində Media müşaviri Cihangir İşbilir ilə görüşmüşdür.

Qeyd edək ki, Dr. Cihangir İşbilir 2023-2024-cü tədris ilindən Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi təyin edilmişdir

On September 18, Head of Khazar University Political Sciences and Philosophy Department Assoc. Prof. Orkhan Valiyev met with Media Advisor Cihangir Ishbilir at the Turkish Embassy in Azerbaijan. Note that Dr. Cihangir Ishbilir has been appointed as a faculty member of Khazar University's Political Sciences and Philosophy Department from the 2023-2024 academic year.

## ÇİN TƏHSİL NAZİRLİYİNİN DİL TƏHSİLİ VƏ ƏMƏKDAŞLIQ MƏRKƏZİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ

## KHAZAR UNIVERSITY HOSTS DELEGATION FROM CHINA'S CENTER FOR LANGUAGE EDUCATION AND COOPERATION




*Hamlet İsaxanlı, Yu Tianqi*

Sentyabrın 4-də Xəzər Universiteti Çin Xalq Respublikasının Təhsil Nazirliyinin Dil Təhsili və Əməkdaşlıq Mərkəzinin baş direktorunun müavini Yu Tianqi`nin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qəbul Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, rektor Dos. İradə Xəlilova, Tədris işlər üzrə prorektor Prof. Məhəmməd Nuriyev, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Çin Araşdırmaları Mərkəzinin direktoru Dr. Aqşin Əliyev, Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan vəzifəsini icra edən Aygün Verdiyeva və

On September 4, Khazar University hosted a delegation led by Yu Tianqi, Deputy Director General of the Center for Language Education and Cooperation at the Ministry of Education of China.

The meeting was attended by Khazar University's founder, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, along with Rector Assoc. Prof. Irada Khalilova, Vice-Rector for Academic Affairs Prof. Mahammad Nuriyev, Development Director Raziya Isayeva, Director of the Chinese Research Center Dr. Akshin Aliyev, Head of the Department of Languages and Literature Assoc. Prof. Dilbar Zeynalova, Acting Dean of the School of Humanities, Education, and Social Sciences Aygun Verdiyeva, and Head

Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyevanın iştirakı ilə keçib.

Çin Təhsil Nazirliyinin Dil Təhsili və Əməkdaşlıq Mərkəzi, Anhui Universiteti və Xəzər Universiteti arasında Çin dili ixtisası üzrə birgə bakalavr proqramı layihəsinin yaradılmasına dair üçtərəfli müqavilə imzalanıb və əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılıb. Fatimə Vəliyeva və qonaqlar təmsil etdikləri universitetlər haqqında təqdimat nümayiş etdiriblər.. Nümayəndə heyəti, həmçinin, Xəzər Universitetinin Konfutsi sinfinə baş çəkərək, müəllimlərlə görüşüb.

Görüşün sonunda hədiyyələr təqdim olunub və xatirə şəkilləri çəkilib.

of the International Relations Department Fatima Valiyeva.

A tripartite agreement was signed between the Center for Language Education and Cooperation, Anhui University, and Khazar University to establish a joint bachelor's program in Chinese language studies, alongside discussions to further enhance collaboration. Fatima Valiyeva and the visiting delegates gave presentations about the universities they represent. The delegation also visted Khazar University's Confucius class and met with the instructors. At the conclusion of the meeting, gifts were exchanged, and commemorative photos were taken.



# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARININ BEYNƏLXALQ TƏDQİQAT LAYİHƏSİ İLƏ ƏLAQƏDAR ESTONİYAYA SƏFƏRİ

# VISIT OF KHAZAR UNIVERSITY STAFF TO ESTONIA FOR INTERNATIONAL RESEARCH PROJECT



*Soldan üçüncü Məhəmməd Eldarov*

Həyat elmləri departamentinin müdiri Dr. Cəmalə Eldarova və departamentin dosenti Cavid Ocaqi 2023-cü ildə İsveç Kənd Təsərrüfatı Elmləri İnstitutu tərəfindən qalib elan olunmuş "SORG4NOBAL: Baltik dənizi regionunda evtrofikasiya və pestisidlərlə çirklənmənin azaldılması üçün iqlim dəyişilmələrinə davamlı sorqonun introduksiyası" adlı beynəlxalq elmi-tədqiqat layihəsinin növbəti iclasında iştirak etmək üçün Estoniyaya səfər etmişlər.

Layihə işlərinin icrası ilə bağlı görüş 2024-cü il sentyabrın 9-12-də Estoniyanın Tallin və Tartu şəhərlərində keçirilmişdir. Layihə icraçıları Cavid Ocaqi, Cəmalə Eldarova və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Laboratoriya, Ekspertiza və Sertifikatlaşdırma Mərkəzinin direktor müavini Dr. Məhəmməd Eldarov həmin görüşdə iştirak etmişlər. Görüş zamanı Azərbaycanın biomüxtəlifliyi, torpaq-iqlim şəraiti, sorqo bitkisinə olan tələbatı və əkin sahələrinin artırılmasının təşviqi ilə bağlı məlumat verilmiş, geniş müzakirələr aparıl-

Dr. Jamala Eldarova, the Head of the Life Sciences Department, along with Assoc. Prof. Javid Ojagi, visited Estonia to attend the upcoming meeting of the international research project "SORG4NOBAL: Introducing Climate-Resilient Sorghum to Mitigate Eutrophication and Pesticide Contamination in the Baltic Sea Region," which was awarded in 2023 by the Swedish Institute of Agricultural Sciences.

A meeting focused on the implementation of project activities took place from September 9-12, 2024, in the cities of Tallinn and Tartu, Estonia. The meeting was attended by project participants Javid Ojagi, Jamala Eldarova, and Dr. Mahammad Eldarov, Deputy Director of the Laboratory, Expertise, and Certification Center at the Agricultural Services Agency under the Ministry of Agriculture. The event featured discussions on Azerbaijan's biodiversity, soil and climate conditions, the demand for sorghum crops, and strategies to expand cultivated areas. Experts and prominent scientists from Sweden, Estonia,

mışdır. Tədbirdə İsveç, Estoniya, Latviya, Ukrayna, Danimarka və Niderland Krallığından olan mütəxəssislər və tanınmış alimlər iştirak etmiş, cari tədqiqat nəticələri dinlənilmiş və təhlillər aparılmışdır.

Sonra Tartu şəhərində yerləşən Estoniya Kənd Təsərrüfatı Elmləri və Tədqiqatları İnstitutuna səfər edilmiş, sorqo bitkisinin əkin sahələrinə baxış keçirilmiş və növbəti birgə layihənin yazılması üçün fəaliyyət planı tərtib edilmişdir. Layihənin icrası ilə bağlı yekun görüşün 2025-ci ilin fevral ayında Xəzər Universitetində keçirilməsi qərara alınmışdır.



*Cəmalə Eldarova*

Latvia, Ukraine, Denmark, and the Netherlands were also in attendance, where they presented and evaluated current research results.

Later, a visit was made to the Estonian University of Life Sciences and Research Institute located in the city of Tartu, where sorghum crop fields were inspected, and an action plan was developed for drafting the next joint project. It was decided that the final meeting regarding the implementation of the project would be held at Khazar University in February 2025.



*Cavid Ocaqi*

## ƏMƏKDAŞLAR ERASMUS+ TƏRƏFDAŞLIQ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ KU LEUVEN UNİVERSİTETİNDƏ

## STAFF MEMBERS PARTICIPATE IN ERASMUS+ PARTNERSHIP STUDY VISIT AT KU LEUVEN UNIVERSITY

Sentyabrın 11-12-də Xəzər Universitetinin nümayəndə heyəti Belçikanın Gent şəhərində KU Leuven Universitetində olub. Nümayəndə heyətinə Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar və İnkişaf Mərkəzinin layihə meneceri Səlimə Əhmədova daxil idi. Bu səfər Erasmus+ CBHE layihəsi çərçivəsində həyata keçirilən "Azərbaycan, Gürcüstan və Ukrayna ilə Tərəfdaşlığın Qarşılıqlı Gücləndirilməsi istiqamətində Avropa Enerji Effektivliyi - 3E-Tərəfdaşlıq" layihəsinin bir hissəsi idi.

Gündəliyə elektrik mühəndisliyi üzrə tədris planını zənginləşdirməyə yönəlmiş bir sıra faydalı fəaliyyətlər daxil idi və bu fəaliyyətlərdə enerji səmərəliliyinə xüsusi diqqət yetirildi. İştirakçılar elektrik mühəndisliyi sahəsində enerji səmərəliliyi üzrə müasir meyillər haqqında müzakirələr apardılar və öz proqramlarına tətbiq edə biləcəkləri ən yaxşı təcrübələri araşdırdılar.

Tədris planının hazırlanması sessiyaları, laboratoriyalar ilə tanışlıq, bərpa oluna bilən enerji haqqında məlumat və TRANSfarm layihəsi ilə tanışlıq səfərin əsas məqamları idi.

Səfər zamanı tədris planı islahatları təşəbbüslərinə töhfə verəcək dəyərli məlumatlar əldə olunması ilə yanaşı, Xəzər Universiteti ilə KU Leuven arasında əlaqələrin gücləndirilməsi üçün də şərait yarandı.

On September 11-12, a delegation from Khazar University, consisting of Lyudmila Sotova (Head of the Quality Assurance Center), Farida Tatardar (Head of the Physics and Electronics Department), and Salima Ahmadova (Project Manager at the Development Center), took part in a study visit to KU Leuven University in Gent, Belgium. This visit was part of the Erasmus+ CBHE project, "European Energy Efficiency towards Mutually Reinforcing Partnership with Azerbaijan, Georgia, and Ukraine - 3E-Partnership."

The agenda included a series of enriching activities aimed at enhancing the curriculum for Electrical Engineering, with a strong focus on energy efficiency. Participants engaged in discussions about modern trends in energy efficiency within electrical engineering, exploring best practices to incorporate into their own programs.

Curriculum development sessions, laboratory tours, information on renewable energy and the TRANSfarm project were the highlights of the visit.

This study visit not only strengthened ties between Khazar University and KU Leuven but also provided valuable insights that will contribute to ongoing curriculum reform initiatives.

# DEPARTAMENT MÜDİRİ RUMINİYADA BEYNƏLXALQ KONQRESDƏ



*Milana Abbasova*

# KHAZAR UNIVERSITY DEPARTMENT HEAD AT INTERNATIONAL CONGRESS IN ROMANIA

Sentyabrın 10-13-də Rumıniyanın Taraqovitse şəhərində hibrid formatda 30 ölkədən 138 qurum və 276 alimin iştirak etdiyi 10-cu Beynəlxalq EMI Sahibkarlıq və Sosial Elmlər Konqresi keçirilmişdir. Konqresin açılış sessiyasında Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova əsas məruzəçi kimi çıxış edib.

O, "Dil siyasəti və onun milli kimliyə təsiri: Azərbaycan nümunəsi" adlı tədqiqatını təqdim edib və panel müzakirəsinin moderatoru olub.

Dr. M. Abbasova tədqiqat işinə görə "Ən yaxşı elmi məqalə" sertifikatına layiq görülüb.

On September 10-13, the 10th International EMI Entrepreneurship & Social Sciences Congress was held in Taragovitse, Romania, featuring participation from 138 institutions and 276 scientists across 30 countries in a hybrid format.

Dr. Milana Abbasova, Head of the English Language and Literature Department at Khazar University, served as a keynote speaker at the opening session of the congress. She presented her research titled "Language Policy and Its Impact on National Identity: The Case of Azerbaijan" and moderated a panel discussion too.

Dr. Abbasova was awarded the Certificate for "Best Research Paper" for her outstanding work.



*İradə Xəlilova, Muhammad Anwar Dar*

## PAKİSTAN İNSTİTUTUNUN TƏSİSÇİSİ XƏZƏR UNİVERSİTETİNDƏ

Sentyabrın 18-də Xəzər Universitetində Pakistanın Qucranvala Gələcək Texnologiyalar İnstitutunun (GIFT - Gujranwala Institute of Future Technologies) təsisçisi Muhammad Anwar Dar qəbul edilib. Görüşdə Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova, Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı Prof. İnqilab Əhmədov, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekan vəzifəsini icra edən Günel Bahəddinova və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər.

Görüşdə təhsil müəssisələri arasında tərəfdaşlıq və əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılıb. Tərəflər təmsil etdikləri ali məktəblərin fəaliyyəti, fakültələri haqqında məlumat vermişlər. Qonaq Xəzər Universitetinin Nailəxanım Mədəniyyət Mərkəzi, Dizayn və İncəsənət otağı, kitabxana və Nanotexnologiya Laboratoriyası ilə tanış olub.

Görüşün sonunda hədiyyələr təqdim olunub.

## FOUNDER OF PAKISTAN INSTITUTE AT KHAZAR UNIVERSITY

On September 18, Khazar University hosted Muhammad Anwar Dar, the founder of the Gujranwala Institute of Future Technologies (GIFT) in Pakistan. The meeting was attended by the Rector of Khazar University, Assoc. Prof. Irada Khalilova; Vice-Rector for Academic Affairs, Prof. Mahammad Nuriyev; Dean of the School of Science and Engineering, Fakhranda Afandiyeva; Dean of the Graduate School of Economics and Business, Prof. Inqilab Ahmadov; Director of the Quality Assurance Center, Lyudmila Sotova; Acting Dean of the Graduate School of Science, Arts, and Technology, Gunel Baheddinova; and Head of the International Relations Department, Fatima Valiyeva.

The discussions focused on enhancing collaboration and partnerships between the institutions. The parties have provided information about the activities and faculties of the universities they represent. The guest got acquainted with Nailekhanim Culture Center, Design and Art room, library and Nanotechnology Laboratory of Khazar University. At the end of the meeting, gifts were exchanged.



*Grigorii Penkov*



## NEFT MÜHƏNDİSLİYİ DEPARTAMENTİ MÜƏLLİMİNİN SEMİNARI

Sentyabrın 19-da Xəzər Uiversiteti Neft mühəndisliyi departamentinin müəllimi Dr. Grigorii Penkov "Təmiz enerji keçidlərində karbonun tutulması və saxlanmasının rolu" mövzusunda seminar keçirib.

Dr. Grigorii Penkov çıxışında vurğulayıb ki, Karbon yığılması və Saxlanılması (CCS) qalıq yanacaq əsaslı sənayelərdən və enerji istehsalından karbon emissiyalarının ətraf mühitə təsirini azaltmaqla təmiz enerji keçidlərində mühüm rol oynayır. Onun əhəmiyyəti, bərpa olunan enerjiyə keçid edərkən qalıq yanacaqların istifadəsini istixana qazı emissiyalarını azaltmaqla tarazlamaq ehtiyacından yaranır.

## SEMINAR HELD BY PETROLEUM ENGINEERING DEPARTMENT FACULTY MEMBER

On September 19, Dr. Grigorii Penkov (Department of Petroleum Engineering) conducted a seminar on "Role of carbon capture and storage in clean energy transitions".

During the seminar, Dr. Grigorii Penkov emphasized that Carbon Capture and Storage (CCS) plays a critical role in clean energy transitions by mitigating the environmental impact of carbon emissions from fossil fuel-based industries and energy generation. Its importance stems from the need to balance the continued use of fossil fuels during the transition to renewable energy with the urgent requirement to reduce greenhouse gas emissions.





## "ÜZEYİR SƏNƏTİNİN GƏNCLİK SƏDALARI" ADLI KONSERT

Sentyabrın 20-də Xəzər Universitetinin Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən ənənəvi "Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı" çərçivəsində universitetin Kamera orkestrinin "Üzeyir sənətinin gənclik sədaları" adlı

## CONCERT TITLED "THE SOUNDS OF YOUTH IN UZEYIR'S ART"

On September 20, within the framework of the traditional "Uzeyir Hajibeyli XVI International Music Festival" organized by the Heydar Aliyev Foundation and the Ministry of Culture, Khazar University Chamber Orchestra held a concert titled "The Sounds of Youth in Uzeyir's Art" at the Fikrat



konserti olmuşdur. Konsertdə Bülbül Vokal Məktəbinin (BVM) tələbələri də iştirak etmişlər. Konsertin bədii rəhbəri Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova, dirijoru Meri Çeminava idi.

Konsert Kamera orkestri tərəfindən Üzeyir Hacıbəylinin "Arazbarı" əsərinin ifası ilə başlanmış, sonra bəstəkarın "Arşın mal alan" operettasından Gülçöhrənin ariyası və Asyanın kupletləri (BVM, Lalə Namazova, Fidan Sultanova), "Sevgili canan" və "Sənsiz" romansları, "Qaragöz" mahnısı (BVM, İbrahim Quliyev, Amil Nuri, Heydər Xəlfəyev), Asəf Zeynallının "Sual" romansı (BVM, Aytac Nəsibova), Müslüm Maqomayevin "Nərgiz" operasından Nərgizin mahnısı (BVM, Nəzrin Mansırlı), Fikrət Əmirovun "Min bir gecə" baletindən "Şəhrizadın bayramı", "Sevil" operasından Dilbərin ariyası, "Ulduz" romansı (Əməkdar artist İnarə Babayeva), İtaliya bəstəkarı E. D. Kurtis`in "Surriento`ya qayıdış" romansı ("Totna a Surriento", BVM, Mehdi Niftəliyev), Tofiq Quliyevin "Bəxtəvər oldum" romansı (BVM, Altun Süleymanov), Xalq artisti Sərdar Fərəcovun kamera orkestri üçün "Vals"ı ifa edilmişdir.



*Zülfiyyə Sadıqova*

Konsert iştirakçıların alqışları ilə müşayiət olunmuşdur.

Amirov Conference-Concert Center. Students from the Bulbul Vocal School (BVS) also took part in the event. The concert's artistic director was Zulfiya Sadygova, an honored teacher, pianist, and head of Khazar University's Music and Fine Arts Department. Meri Cheminava served as the conductor.



*Inarə Babayeva*

The concert opened with the Chamber Orchestra's rendition of Uzeyir Hajibeyli's "Arazbari," followed by Gulchohra's aria and Asya's couplets from the operetta "The Cloth Peddler" performed by BVS students Lala Namazova and Fidan Sultanova. Other pieces included the romances "The Dearest Beloved" and "Without you," along with the song "Black eyes," performed by BVS students Ibrahim Guliyev, Amil Nuri, and Heydar Khalafayev. Aytak Nasibova performed Asaf Zeynalli's romance "Question," while Nazrin Mansirli delivered Nargiz's song from Muslim Magomayev's opera "Nargiz". The program also featured "Shahrizad's Celebration" from Fikrat Amirov's ballet "One Thousand and One Nights, Dilbar's aria from "Sevil", and the romance "Ulduz," performed by honored artist Inara Babayeva. Additional performances included E. D. Curtis's romance "Return to Sorrento" ("Torna a Surriento") performed by BVS student Mehdi Niftaliyev, Tofig Guliyev's romance "I Became Happy," sung by BVS student Altun Suleymanov, and a waltz for chamber orchestra by People's Artist Sardar Farajov.

The audience warmly applauded the concert.





*Yeseninin doğma kəndi Konstantinovoda*

## İSAXAN İSAXANLI BEYNƏLXALQ YESENİN KONFRANSINDA

Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru, Dillər və ədəbiyyatlar departamentinin professoru İsaxan İsaxanlı 2024-cü il sentyabrın 19-21-də böyük rus şairi Serqey Yeseninin anadan olmasının 129 illiyinə həsr edilmiş "Serqey Yesenin: Kontekst, Poetika, Mətnşünaslıq" mövzusunda Beynəlxalq Yesenin Konfransında iştirak etdi.

Sentyabrın 19-da Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda başlayan konfransın ardı ayın 20-də Ryazanda S.Yesenin adına Ryazan Dövlət Universitetində, ayın 21-də Yeseninin doğma kəndi Konstantinovoda Yesenin Muzeyində keçirildi.

Konfransda İsaxan İsaxanlı "Əliağa Kürçaylı Serqey Yesenin yaradıcılığının Azərbaycan dilinə ən populyar tərcüməçisi kimi" mövzusunda plenar məruzə etdi. Məruzə böyük maraqla qarşılandı. M.Qorki adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Yesenin Komitəsinin sədri Prof. Şubnikova-Quseva Nataliya İqorevna və komitənin elmi katibi filologiya elmləri doktoru Maksim Skoroxodov İsaxan İsaxanlı haqqında xoş sözlər dedilər və onun Yesenin komitəsi ilə işbirliyini yüksək qiymətləndirdilər.

Sonra, günün ikinci yarısında Konstantinovo Elmi-Mədəni Mərkəzində Yeseninlə bağlı çap olunmuş və çapa hazırlanan nəşrlərin təqdimatı oldu. İsaxan

## ISAKHAN ISAKHANLI AT THE INTERNATIONAL YESENIN CONFERENCE

Isakhan Isakhanli, the vice-rector for Administration and Student Affairs at Khazar University and a professor in the Department of Languages and Literatures, took part in a conference themed "Sergey Yesenin: Context, Poetics, Textual Studies," marking the 129th anniversary of the famous Russian poet's birth from September 19-21, 2024.

The conference began on September 19 at the M. Gorky Institute of Literature in Moscow, continued on the 20th at the Ryazan State University named after S. Yesenin in Ryazan , and concluded on the 21st at the Yesenin Museum in Konstantinovo, the poet's birthplace.

At the conference, Isakhan Isakhanli delivered a plenary speech on the topic "Aliagha Kurchayli as the most prominent translator of Sergey Yesenin's works into Azerbaijani." His speech was received with great interest. Prof. Nataliya Igorevna Shubnikova-Guseva, chair of the Yesenin Committee at the M. Gorky Institute of Literature, and Maksim Skorokhodov, the committee's scientific secretary and doctor of philological sciences, spoke highly of Isakhan Isakhanli and valued his collaboration with the Yesenin Committee.

Then in the second half of the day, a presentation of printed and prepared publications about Yesenin



*İsaxan İsaxanlı konfransda məruzə edərkən*

İsaxanlı hazırda tamamlanmaq üzrə olan layihə - Azərbaycan şairlərinin Yeseninə həsr etdikləri şeirlərin kitab halında çap olunması haqqında geniş məlumat verdi.

Tədbir zamanı mədəni proqram kimi Konstantinovo Dövlət Qoruq Muzeyinə ekskursiya təşkil olundu, Yeseninin ev muzeyi, təhsil aldığı məktəb, Konstantinovo kəndinin mülkədar qızı, Yeseninin "Anna Sneqina" poemasının baş qəhrəmanının proobrazı Lidiya Kaşinanın ev-muzeyi və digər Yeseninlə bağlı yerlər ziyarət edildi.



*Yeseninin "Anna Sneqina" poemasının baş qəhrəmanının proobrazı Lidiya Kaşinanın ev-muzeyinin önündə*



*Yeseninşünas Yuri Bludovla*

took place at the Konstantinovo Scientific and Cultural Center. Isakhan Isakhanli provided detailed information about an ongoing project nearing completion – the publication of a book featuring poems dedicated to Yesenin by Azerbaijani poets.

As part of the event's cultural program, an excursion to the Konstantinovo State Reserve Museum was organized. Attendees toured Yesenin's house museum, the school he once attended, and the house museum of Lidiya Kashina, the landowner's daughter from Konstantinovo who inspired the main character in Yesenin's poem ( the prototype of the main character in Yesenin's poem ) "Anna Snegina." They also visited other sites connected to Yesenin.



*M.Qorki adına Ədəbiyyat İnstitutu Yesenin Komitəsinin elmi katibi Maksim Skoroxodovla*



# XƏZƏR UNİVERSİTETİNDƏ ANIM GÜNÜ TƏDBİRLƏRİ

# KHAZAR UNIVERSITY STAFF VISIT KESHLA MARTYRS' ALLEY

Sentyabrın 26-da Bakı Gənclər Mərkəzi tərəfindən Anım günü ilə bağlı "Cənnətə bilet" adlı tamaşa təşkil olunmuşdur. Tamaşada şəhid ailələri, qazilər və müharibə iştirakçıları, həmçinin müxtəlif universitetlərin, o cümlədən Xəzər Universitetinin rəhbərliyi, əməkdaşları və tələbələri iştirak etmişlər.

Xəzər Universitetinin Tələbə məclisi, İqtisadiyyat və menecment, Təbiət elmləri və mühəndislik fakültələrinin 60 nəfərdən çox birinci və ikinci kurs tələbələri tədbir boyu öz fəallıqları ilə seçilmişlər.

Tədbirin sonunda Xəzər Universitetinin tələbələri şəhid anaları ilə xatirə şəkli çəkdirmiş, öz təəssüratlarını bildirmişlər.

Sentyabrın 27-də universitetdə ilk dərs Anım gününə həsr edilmiş açıq dərslər keçirilmiş, tələbələrə 2020-ci il sentyabrın 27-də başlanan Azərbaycan Vətən müharibəsinin 44 gün sonra Ermənistanın kapitulyasiyası nəticəsində Zəfərlə başa çatması və Vətən torpaqlarının düşməndən azad edilməsi, 2023-cü il sentyabrın 19-20-də isə bir günlük antiterror əməliyyatı ilə suverenliyin tam bərpa olunması haqqında ətraflı məlumat verilmiş, dərslər yüksək vətənpərvərlik əhval-ruhiyyəsi ilə başa çatmışdır.

Həmin gün universitetin kollektivi – rəhbərlik, əməkdaşlar və tələbələr Keşlə Şəhidlər Xiyabanında olmuş, Vətən qəhrəmanlarının məzarı üzərinə gül dəstələri düzmüş, əziz xatirələrini yad etmişlər.

On September 26, the Baku Youth Center organized a performance titled "Ticket to Heaven" in honor of Memorial Day. The event was attended by families of martyrs, veterans, and war participants, as well as the leadership, staff, and students from various universities, including Khazar University.

More than 60 first- and second-year students from Khazar University's Student Assembly, and the School of Economics and Management, and Sciences and Engineering, were notable for their active participation throughout the event.

At the end of the event, Khazar University students took commemorative photos with the mothers of martyrs and shared their impressions.

On September 27, the first lesson at the university was dedicated to the Memorial Day. The students were provided with detailed information about the 44-day Patriotic War of Azerbaijan, which began on September 27, 2020, and concluded in victory with the capitulation of Armenia, resulting in the liberation of the homeland's territories from occupation. Additionally, they were informed about the one-day counterterrorism operation conducted on September 19-20, 2023, which led to the full restoration of sovereignty. The lessons concluded with a strong spirit of patriotism.

On that same day, the university staff – including the administration, employees, and students – visited the Keshla Martyrs' Alley, laid wreaths on the graves of the nation's heroes, and paid tribute to their honored memories.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN MƏQALƏLƏRİ “FÜYUZAT” JURNALINDA
## ARTICLES BY POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT HEAD IN JOURNAL “FUYUZAT”




Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin "Milli kimlik: dövlət mənəm" adlı məqaləsi “Füyuzat” Jurnalında (№3/(137), 2024) dərc edilmişdir.

Qeyd edək ki, 1906-1907-ci illərdə böyük Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadənin redaktorluğu və Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə nəşr olunan “Füyuzat” jurnalı mətbuat tariximizdə özünəməxsus yer tutur.

The article by Assoc. Prof. Orkhan Valiyev, Head of the Department of Political Sciences and Philosophy at Khazar University entitled “National identity: I am the state” has been published in “Fuyuzat” Journal (No.3/(137), 2024).

It is important to note that the journal 'Fuyuzat,' published between 1906 and 1907 under the editorship of the great Azerbaijani thinker Ali bey Huseynzade and with the financial support of Haji Zeynalabdin Taghiyev, holds a distinguished place in the history of our press.

*https://www.researchgate.net/publication/383875503_Milli_kimlik_dovlt_mnm*

***




Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyevin "Xaricdə yaşayan azərbaycanlı alimlərin birinci forumu" adlı məqaləsi “Füyuzat” jurnalında dərc edilmişdir.

An op-ed article by Assoc. Prof. Orkhan Valiyev, Head of Political Science and Philosophy Department at Khazar University, titled “The first forum of Azerbaijani scientists living abroad”, has been published in “Fuyuzat” journal.

*//fuyuzat.az/xaricde-yasayan-azerbaycanli-alimlerin-birinci-forumu/?fbclid=IwY2xjawFYwTFleHRuA2FlbQIxMAABHbA3nUgQhgJmE2dVAZRBNPBUOfxPBnHH93dNZRdCkFeZZMlc0YwVRoj_vA_aem_i0v-mP6ni9mOU4zTJErkjA*



## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN DƏ TƏŞKİLATÇISI OLDUĞU "TÜRK DÖVLƏTLƏRİNİN I TİBB KONQRESİ (II TİBBİ FORUM)

Sentyabrın 5-də Türkiyənin İstanbul şəhərindəki Yeditepe Universitetində Naxçıvan Dövlət Universitetinin də təşkilatçısı olduğu, Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Cümhuriyyəti və Türkmənistanın bir sıra universitetlərinin iştirakı ilə "Türk Dövlətlərinin I Tibb Konqresi (II Tibbi Forum)" keçirilmişdir.

Konqresin Açılış tədbirində təşkilat komitəsinin koordinatoru prof.dr. Erkut Attar, Yeditepe Universitetinin rektoru, konqresin həmsədri, prof.dr. Canan Aykut Bingöl, Yeditəpə Universitetinin qurucusu Bedreddin Dalan, Naxçıvan Dövlət Universitetinin rektoru, konqresin həmsədri Elbrus İsayev, Səmərqənd Dövlət Tibb Univetsitetinin rektoru, Prof.Cəsur Rzayev, KKTC Yakın Doğu Universitetinin rektoru, Prof.Dr. Tamer Şanlıdağ, Bişkek Beynəlxalq Tibb İnstitutunun rektoru Prof. Samigullina Alfiya, Asfendiyarov adına Qazax Milli Tibb Universitetinin prorektoru Prof. Abılay Baimaxanov, Daşkənd Pediatriya Tibb İnstitutunun prorektoru Prof. Səidə Səidxocayeva, Türkmənistan Dövlət Tibb prorektoru, Prof.Ayboleki Taçmuxəmmədova, Azərbaycan Tibb Univetsitetinin prorektoru Prof. Rauf Bəylərov, Azərbaycan Endoskopik ve Laparoskopik Cərrahlar Cəmiyyəti İB İdarə Heyətinin sədri Prof. Müşviq Həsənov çıxış ediblər.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qeyd edib ki, Naxçıvan Dövlət Universiteti olaraq, belə bir mötəbər tədbirin təşkilatçıları sırasında olmaq bizə qürur verir. Bu konqres, Türk dünyasının tibb sahəsindəki əməkdaşlığını möhkəmləndirmək, ortaq problemlərə həll yolları tapmaq və tibb təhsilinin daha yüksək səviyyəyə qaldırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bildirilib ki, 2022-ci ildə Naxçıvan Dövlət Universitetində keçirilən I Beynəlxalq Tibb Forumu bizə göstərdi ki, Türk dövlətləri tibb elmi və təhsil sahəsində geniş əməkdaşlıq imkanlarına malikdir. Həmin forumda tibb sahəsində çoxsaylı məsələlər müzakirə olunmuş, təcrübə mübadiləsi aparılmış və birgə layihələr üçün zəmin yaradılmışdı. Bu forumun davamı olaraq, bu gün burada Türk dövlətlərinin qabaqcıl universitetlərinin nümayəndələri ilə bir araya gəlmək və birgə addımlar atmaq bizi sevindirir.

Bugünkü konqres, tibb sahəsində qabaqcıl elmi nailiyyətlərin paylaşılması, yeni texnologiyaların tətbiqi, həmçinin Türk dünyasında tibbin inkişafı üçün ortaq strategiyaların müəyyənləşdirilməsi üçün bir platformadır. Biz inanırıq ki, bu tədbir nəticəsində Türk dünyasının tibb sahəsindəki potensialı daha da genişlənəcək və birgə səylərimizlə gələcək nəsillərə daha sağlam və rifahlı bir cəmiyyət bəxş edəcəyik.

Diqqətə çatdırılıb ki, Naxçıvan Dövlət Universiteti olaraq, biz bu cür tədbirlərin təşkilində iştirak etməyə davam edəcəyik. Eyni zamanda, Türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi üçün təhsil və elmi tədqiqat sahəsində daha geniş əməkdaşlıq layihələrinə dəstək verəcəyik.

Açılış tədbirinin ardınca konqres bölmə iclasları ilə öz işini davam etdirib.

# ÖLKƏDƏ İLK DƏFƏ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ TİBB İXTİSASI ÜZRƏ SABAH QRUPLARINA TƏLƏBƏ QƏBULU KEÇİRİLİB



SABAH qruplarına qəbul olan tələbələrlə görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qeyd edib ki, SABAH qrupları layihəsi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktayabr tarixli Sərəncamı ilə təsis edilib. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Naxçıvan Dövlət Universiteti üçün nəzərdə tutulmuş prioritet məsələlərdən biri universitetdə yeni məzmunlu proqramların (SABAH və s.) təşkilidir. Dövlət Proqramının icrası ilə əlaqədar olaraq ölkəmizdə ilk dəfə olaraq məhz Naxçıvan Dövlət Universitetində 2024-2025-ci tədris ilindən etibarən Tibb ixtisası üzrə SABAH qrupları fəaliyyətə başlayıb. Bildirilib ki, Dövlət Proqramı əsasında istifadəyə verilməsi nəzərdə tutulan yüksək standartlara cavab verəcək Tibb kampusu SABAH qruplarının tələblərinə uyğun, peşəkar tibb kadrlarının hazırlanmasına öz töhfəsini verəcək. Diqqətə çatdırılıb ki, SABAH qruplarında tədrisin təşkili xüsusi tədris planı əsasında həyata keçiriləcək. Belə ki, dünyanın nüfuzlu, tibb sahəsi üzrə qabaqcıl universitetləri ilə əməkdaşlıq müqavilələri əsasında peşəkar həkimlərin tədrisdə iştirakı nəzərdə tutulur, eyni zamanda tələbələrin digər ölkələrin universitet və klinikalarında təcrübələri təşkil ediləcək. Elbrus İsayev vurğulayıb ki, SABAH qrupları layihəsində ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbələrin yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadrlar hazırlanacaq. Bilidirlib ki, SABAH-ın tələbələri xarici mübadilə proqramlarında iştirak imkanı, müasir müəssisə və şirkətlərdə ixtisas təcrübəsi, tədrisin təşkilində mütərəqqi forma və metodlar, yataqxana və əlavə təqaüdlərdən istifadə imkanı əldə edəcəklər.

Sonra Tibb ixtisası üzrə II kurs tələbəsi Şövkət Əlisoy tələbələr adından göstərilən diqqət və yaradılan fürsətlərə görə minnətdarlıq edib, gələcəkdə peşəkar kadr kimi formalaşıb tibb sahəsinə öz töhfələrini verəcəklərinə söz verib.

Daha sonra tanınmış cərrah Cəfər Quliyevin görkəmli onkoloq alim, akademik Rəhim Rəhimova həsr etdiyi "Ordubaddan doğan günəş" kitabı tələbələrə hədiyyə olunub.

Qeyd edək ki, SABAH qruplarına imtahanlar test və müsahibə mərhələsi olmaqla iki istiqamətdə həyata keçirilib. Ən yüksək bal toplayan 21 nəfər layihədə iştirak etmək şansı əldə edib. Həmçinin SABAH qruplarında dərs tədris edəcək müəllimlər də müvafiq fənnlər və ixtisaslar üzrə müsahibə mərhələsindən keçərək layihədə iştirak etmək hüququ əldə ediblər.

# "SÜNİ İNTELLEKT:NƏZƏRİYYƏDƏN PRAKTİKAYA" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS



Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti, Rusiyanın "Cənub" Universitetinin təşkilatçılığı ilə keçirilən konfransda çıxış edən universitetin rektoru Elbrus İsayev Azərbaycan, Türkiyə, Rusiya, Özbəkistanın nüfuzlu elm adamlarının və İBM-in Çexiya və Slovakiya üzrə nümayəndəsinin iştirakı ilə baş tutan konfransı müsbət qiymətləndirib və konfransın işinə uğurlar arzu edib. Qeyd olunub ki, universitetin strateji hədəfləri çərçivəsində Texnologiyalar Parkının qurulmasında süni intellektlə bağlı araşdırmaların aparılması nəzərdə tutulub. Bu da müəllimlər və gənc tədqiqatçılar üçün mühüm əhəmiyyət daşıyır. Bildirilib ki, ali təhsil ocağında bu istiqamətdə müvafiq ixtisaslar açılıb ki, bununla bağlı proqram təminatları hazırlanıb. Vurğulanıb ki, bu sahə üzrə dünyanın ixtisaslaşmış universitetlərinin təcrübəsindən geniş istifadə olunur.

"Cənub" Universitetinin rektoru, professor İmran Əkbərov bildirilib ki, hazırda təhsil, elm, səhiyyə, iqtisadiyyat, media, incəsənət və digər sahələrdə süni intellekt əsaslı tətbiqlər sürətlə genişlənir. Qeyd olunub ki, universitetlərdə data elmi, süni intellekt fokuslu proqramların artması bu sahəyə diqqəti daha da artırır.

Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini-nazir səlahiyyətlərini icra edən Rahid Ələkbərli bulanıq məntiq nəzəriyyəsi, süni intellektin üstünlükləri və yarada biləcəyi təhlükələr, süni intellekt vasitəsilə kibertəhlükəsizliyin gücləndirilməsi, süni intellektin istehsal sənayesində tətbiqi, süni intellektin etik və sosial təsirləri və bir çox önəmli məqamlar konfrans iştirakçılarının nəzərinə çatdırılıb.

Bakı Dövlət Universitetinin nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru Fikrət Əliyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının direktoru Yusif Alıyev, Özbəkistanın Buxara Texnoloji İnstitutunun alimləri-Uluqbek Muradiloeviç, Nizamov Aslitdin Badreddinoviç, Türkiyənin Ağrı İbrahim Çeçen Universitetinin professoru Ahmet Ocak, Düzce Universitetinin dosenti Serdar Biroğul, Naxçıvan Dövlət Universitetinin professoru Cavanşir Zeynalov çıxışlarında süni intellektin cəmiyyətin bütün təbəqələrini əhatə edən qlobal bir inqilabın mərkəzinə çevrildiyini qeyd edərək süni intellektin nəzəri əsaslarından və praktik tətbiqləri haqqında ətraflı məlumat veriblər.

Sonra konfrans panel müzakirələrlə işini davam etdirib.

2 gün davam edən konfransın bağlanış tədbirində iştirakçılar sertifikatla təltif ediliblər.

Qeyd edək ki, konfrasa gələn yerli və xarici qonaqların muxtar respublikanın tarixi və turizim məkanlarına gəzintiləri də təşkil edilib.




## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏKİ İNGİLİS DİLLİ GİMNAZİYANIN ŞAGİRDİ HÜSEYN TAHİROV AZƏRBAYCANI DÜNYA ROBOT OLİMPİADASINDA TƏMSİL EDƏCƏK

Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən İngilis dilli Təmayüllü Gimnaziyanın 10-cu sinif şagirdi Hüseyn Tahirov VII Respublika Robot Olimpiadasının "Robosports" kateqoriyasında I yerin qalibi olub.

Bakı şəhərində yerləşən Milli Gimnastika arenasında 20-22 sentyabr tarixlərində keçirilən yarış, Gənclər və İdman Nazirliyi, Dünya Robot Olimpiadası Assosiasiyası və Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyasının (AREA) birgə təşkilatçılığı ilə baş tutub. Olimpiada ölkə üzrə gənclərin texnoloji bilik və bacarıqlarını nümayiş etdirmək, robotexnika sahəsində gələcək mütəxəssisləri yetişdirmək üçün böyük bir platformadır.

Hüseyn Tahirov bu mühüm uğuru ilə yalnız Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən İngilis dilli Təmayüllü gimnaziyanın adını yüksəltməklə kifayətlənmədi, eyni zamanda Azərbaycanı beynəlxalq arenada təmsil etmək hüququ qazandı. O, 2024-cü ildə İzmir şəhərində keçiriləcək Dünya Robot Olimpiadasında "Robosports" kateqoriyası üzrə ölkəmizi təmsil edəcək. Bu beynəlxalq yarış, dünyanın müxtəlif ölkələrindən ən yaxşı robotexnika mühəndislərinin və texnologiya həvəskarlarının bir araya gəldiyi möhtəşəm bir tədbirdir.

Hüseyn Tahirovun bu uğuru, onun texnologiyaya olan marağı və yaradıcı yanaşmalarının nəticəsidir. O, yarış boyu innovativ düşüncəsini və robotların hərəkət mexanizmlərini dəqiqliklə idarə etmək bacarığını nümayiş etdirərək, ən çətin rəqiblər arasında birinci yeri tutmağa nail oldu. Bu qələbə həm də Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən İngilis dilli Təmayüllü gimnaziyanın texnologiya və innovasiya yönümlü tədris proqramlarının uğurlu nəticəsi kimi dəyərləndirilməlidir. NDU-nun nəzdində fəaliyyət göstərən Gimnaziyanın təhsil strategiyaları, gənclərin texnologiya sahəsində potensialını üzə çıxarmağa və onları beynəlxalq səviyyədə rəqabətə hazır vəziyyətə gətirməyə yönəlib. İzmirdə keçiriləcək Dünya Robot Olimpiadasında Hüseyn Tahirovun ölkəmizi layiqincə təmsil edəcəyinə əminik. Hüseyn Azərbaycan gənclərinin texnoloji və mühəndislik sahələrində dünya səviyyəsində tanınan bir qüvvə olduğunu bir daha sübut edəcək.



# GECİKƏN PİZZA

(*hekayə*)

İsaxan İsaxanlı

Qızmar bir avqust günü idi. İsmayılın ailəsi tam şəkildə – ömür yoldaşı, oğlu və gəlini, İngiltərədə yaşayan qızı və nəvəsi, Hollandiyada oxuyan oğlu – hamı bağ evinə yığışmışdı. Neçə gün idi ki, İsmayılın böyük qardaşı Hikmət müəllim də uşaqları soruşur, onları görmək istədiyini deyirdi. İsmayıl qərara gəldi ki, elə qardaşını da bağa çağırsın, həm uşaqlarla görüşər, həm də bir az birlikdə vaxt keçirib dincələrlər.

Təxminən axşam saat 5-də Hikmət müəllim öz kiçik nəvəsi Damla ilə gəldi. Xoşbeşon beşdən sonra süfrəyə oturdular. Hamı süfrəyə gətirilən plovdan ləzzətlə yeyir, ürəkdən söhbət edir, danışıb-gülürdülər. Bircə Damla sakitcə oturur, deyib-danışmırdı. Boşqabına bir-iki qaşıq plov qoysa da, heç nə yemir, eləcə qurdalanırdı. Hikmət müəllim Damlanın heç nə yemədiyini görüb, bir neçə dəfə süfrədəki digər yeməklərdən təklif etsə də, Damla hər dəfə sakitcə imtina edirdi. Bunu görən İsmayıl Damlaya müraciət etdi: "Damla, bəlkə başqa bir şey istəyirsən, de, sənin üçün hazırlasınlar". Damla utancaq səslə dedi: "Yox, heç nə istəmirəm, çox sağ olun".

Ətrafdakılar öz işlərində idi, hər kəsin başı yeməyə qarışmışdı. İsmayıl isə gözünün ucu ilə Damlanı seyr edir, onun heç nə yeməməsindən çox narahatlıq keçirirdi. Yenə "bəlkə sənə qarpız-yemiş gətirsinlər", deyə Damlaya müraciət etdi. Damla dillənməsə də, başı ilə "istəmirəm" işarəti verdi. İşi belə görən İsmayıl Damlaya nə isə yetdirtmək üçün başqa bir üsula əl atdı. Damlanın bir az kefini qaldırmaq məqsədi ilə "indi mən Damla ili hansı dildə danışım – ingilis, italyan, rus, türk, yoxsa Azərbaycan dilində?" – deyərək, Damlanın bildiyi dilləri sadaladı və sonra da "yox, qoy elə Azərbaycan dilində soruşum" deyib, ortaya ünvansız bir sual atdı: "Kim deyər, Damlanın ürəyindəki hansı yeməkdir?" Heç kim dillənmədi. Birdən Hikmət müəllim gülərək dedi: Pizza! Deyəsən, Hikmət müəllim "doqquzluğa" vurmuşdu. İsmayıl Damlaya tərəf nəzər saldı – Damla gülümsəyirdi. Deməli, pizza məsələsi ürəyindən idi. İsmayıla da elə bu lazım idi. Dərhal sağ tərəfində oturan oğlu Hafizə amiranə şəkildə dedi: "Tez ol, bir neçə pizza sifariş elə, gətirsinlər". Hafiz dərhal əməli işə keçdi – telefonunu götürüb sifariş etməyə başladı, bir-bir süfrədəkilərdən kimin hansı növ pizza istədiyini soruşdu. Böyüklər istisna olmaqla uşaqların hamısı plovu ləzzətlə yeməklərinə baxmayaraq, istədikləri pizzanı da sifariş etdilər. Hafiz telefonu Damlaya uzatdı – hansı pizzadan istəyirsən? Damla sevdiyi pizzanın şəklini göstərib, utana-utana bir dənə də kola istədiyini dedi. Hamı öz si-

farişini dedikdən sonra Hafiz istəkləri ümumiləşdirib pizzaları sifariş etdi və yazışmalarına əsaslanaraq, "15-20 dəqiqəyə burda olacaq" dedi. İsmayıl xeyli rahatlaşmışdı – indi Damla da istədiyi yeməyi yeyə biləcəkdi.

Amma sən saydığını say, gör fələk nə sayır?! Vaxt keçir, hamı da "indi gələr, bu saat gələr" deyə pizzanın yolunu gözləyirdi. Pizzadan isə xəbər gəlmirdi ki, gəlmirdi. Beləcə, bir saata yaxın vaxt keçdi. Artıq süfrə yığılmış, çay gətirilmişdi. Hamı deyə-gülə çayını içir, bir tərəfdən də pizzanın gəlməsini gözləyirdilər. İsmayılın isə gözünə nə çay görünürdü, nə də başqa şey; gözü saatda qalmışdı. Ürəyində "bircə bu pizza tez gəlsəydi" – deyə, Allaha yalvarırdı.

Bu zaman həyət darvazasının zili çalındı. Hamı darvazaya tərəf dönərək, "Pizza gəldi, pizza gəldi" deyə xorla dilləndi. Bir anlığa İsmayılın da qəlbinə rahatlıq gəldi, axır ki, "bu pizza gəldi" deyə, sanki artıq pizza gəlmiş kimi rahat nəfəs aldı. Gələn isə pizza yox, İsmayılın yaxınlıqda yaşayan kiçik qardaşının uşaqları idi. Hamını gülmək tutdu. Bircə İsmayıl özündə deyildi. Artıq onun ürəyinə dammışdı ki, bu pizzanın başında bir iş var. Lakin ürəyindəki həyəcanı heç kimə bildirmək istəmirdi. Ona görə də, yalandan da olsa hamı ilə bərabər o da gülürdü. Oğlu Hafizə "bir zəng elə, gör nə oldu, pizza niyə gəlmir?" – deyə, işarə etdi. Hafiz kuryerə zəng etdi. İsmayılın qulağı onun ağzında idi, kuryerlə nə danışdığını eşitmək istəyirdi. Hafizin "necə yəni hələ çıxmayıbsınız, bəs yazırdınız ki, yoldasınız, 15-20 dəqiqəyə çatırsınız, bu nə biyabırçılıqdır?" Sonra da bir az hirsli şəkildə "yaxşı-yaxşı, bir az tez olun, gözləyirik axı!" – deyə, kuryeri tələsdirdi.

Təxminən yarım saat yenə keçdi, pizzadan isə yenə də heç bir xəbər yox idi. İsmayılın həyəcanı ikiqat artdı. İndi, doğrudan da, ciddi şəkildə narahat olmağa başladı. Bir tərəfdən də hiss edirdi ki, qardaşı Hikmət müəllim yavaş-yavaş getməyə hazırlaşır. Odur ki, bir az vaxt udmaq üçün söhbəti uzatmaq məqsədi ilə üzünü kiçik qardaşının oğluna tutdu: "Sərvət, sən deyəsən bir roman yazırdın, bir danış görək onun axırı nə oldu?" Sərvət bir qədər utancaq halda yazdığı əsər haqqında danışmağa başladı və "kitabda təsvir olunan hadisə o qədər uzun və o qədər çoxşaxəlidir ki, bilmirəm hardan başlayım?" – deyə, bir qədər tutuldu. İsmayıl onun köməyinə çatdı: "təbii ki, roman uzun olar, sən onun qısa formasını danış, elə bil ki, roman yox, hekayə yazıbsan". Sərvət yazdığı əsər haqqında bir qədər danışandan sonra, "deyəsən, romanı hekayə şəklinə salmaqdan, elə hekayə yazmaq asandır" – deyə, İsmayıl Sərvətə zarafatyana söz atdı. Bu məqamda Hikmət müəllim dilləndi: "Hekayə maraqlı janrdı. Böyük hekayə ustaları olub. Məsələn, Çexov gözü gördüyü hər şeyə bir hekayə həsr edə bilirdi. Bir dəfə o, bir dostu ilə söhbət edərkən, hekayə yazmağın çətin iş olmadığını qeyd edir və stolun üstündəki külqabını göztərib deyir: "bax, bu külqabıdır. İstəyirsən, sabah külqabı haqqında hekayəm hazır olsun?!" Çexov burda olsaydı, bizim bu gecikən pizza haqqında gözəl bir hekayə yazardı". Hamı gülüşdü. İsmayıl da güldü. Hikmət müəllimin zarafatyana verdiyi ideya xoşuna gəlsə də, heç nə demədi, hələ ki, fikri-zikri dörd gözlə gözlədiyi başıbəlalı pizzanın yanında idi. Hətta ürəyində "nahaq yerə bu pizza söhbətini araya saldım, gəlməsə uşağın yanında biyabır olacağıq" – deyə, özünü danlamağa da başlamışdı.

Bu zaman Hafizin telefonuna bir mesaj gəldi. Hamı bir ağızdan "pizzadan xəbər var, gəldi, gəldi" – deyə gülüşdü. Hafiz telefonuna baxdı. "Bu nədir, qəza?" – deyə, dodağının altında danışmağa başladı. Hamı maraqla "nə qəza, nə olub?" – deyə, Hafizin telefonuna baxmağa çalışırdı. Hafiz "buna bax, kuryerin motosikleti qəzaya uğrayıb" – deyə, WhatsApp-ına gələn şəkli hamıya göstərməyə başladı. Kuryer, doğrudan da, qəza keçirmişdi və gecikməsinə bəraət qazandırmaq üçün qəzanın şəklini Hafizə göndərmişdi.

Hafiz kuryerə zəng etdi. Kuryer başına gələnləri nəql edib dedi: "Mənim motosikletim bir maşına dəydi, yararsız vəziyyətə düşüb, müdiriyyətə xəbər vermişəm, indi başqa bir kuryer gəlib, məndən sifarişi götürüb sizə çatdıracaq, təxminən 15-20 dəqiqə çəkər".

Artıq bu "15-20 dəqiqə"lərin əlindən boğaza yığılan İsmayıl özünü saxlaya bilmədi, "andıra qalsın sizin bu pizzanız da, motosikletiniz də, kuryeriniz də. Yox, deyəsən bu pizza gəlməyə-

cək" – deyə, əsəbi halda qalxıb, var-gəl eləməyə başladı. Hikmət müəllim də eyni fikirdə idi, o da gülə-gülə "pizzadan əlinizi üzün, daha gəlməyəcək, amma sizə hekayə üçün yaxşıca bir mövzu oldu" – deyib, Damlaya tərəf döndü: "Gedək, Damla, artıq gecdir". İsmayıl o qədər pərt olmuşdu ki, "bir az da gözləyin" deməyə də üzü yox idi, heç nə deyə bilmədi, ayağa qalxıb onları maşına qədər yola saldı.

Hikmət müəllimi yola salandan sonra İsmayılın sifəti qapqara qaralmışdı, bıçaq vursan qanı çıxmazdı. Heç kimlə danışmır, elə hey hövuzun başına fırlana-fırlana qalmışdı.

Bir qədər sonra, nəhayət ki, pizza gəldi. Uşaqlar dərhal cumuşdular pizzaya, ləzzətlə yeməyə başladılar. Onlar pizzanı yedikcə sanki İsmayılın paxıllığı tuturdu, ürəyi Damlanın yanında idi. Birdən ağlına bir fikir gəldi, üzünü oğlu Aydına tutub dedi: "təcili Damlagilin ünvanına 2 dənə pizza və kola sifariş elə. Onlar hələ yoldadırlar, bəlkə də evə çatana qədər pizza da hazır olar. Amma evlərinə yaxın ünvandan sifariş et ki, burda başımıza gələnlər orda da təkrar olunmasın". Aydın dərhal telefonunu götürüb, deyilənləri sifariş etdi və "elə Damlagilin küçəsində yerləşən bir yerdən sifariş etdim, 15-20 dəqiqəyə ünvana çatdıracaqlar" – dedi. İsmayıl, "yenəmi 15-20" dəqiqə – deyə güldü, amma deyəsən kefi bir az yerinə gəlmişdi, özündən bir az da razı halda "mənə bir istəkan mixəkli çay verin" – deyib, uşaqların yanında oturdu. Sonra da artıq bir az rahat şəkildə Hikmət müəllimin sürücüsünə zəng etdi: "Damla üçün pizza sifariş etdik, 15-20 dəqiqəyə, elə siz oraya çatana qədər hazır olacaq. Əlaqə telefonu olaraq da sənin telefonunu verdik. Xahiş edirəm pizza gələnə kimi orada gözlə, pizzanı əllərinlə Damlaya çatdırandan sonra mənə zəng elə".

Damla üçün pizza sifariş edəndən sonra İsmayıl bir qədər rahatlaşsa da, hələ də içində bir narahatlıq qalmaqda idi. Tez-tez Aydından "nə oldu, pizza çatdımı" – deyə soruşur, yazıq uşağa öz pizzasını rahat yeməyə də imkan vermirdi.

Xeyli vaxt keçdi. Birdən sürücünün telefonundan İsmayıla zəng gəldi. İsmayıl dərindən nəfəs aldı – axır ki, Pizza çatdı! Telefonda sürücünün ucadan, bir az da narazı səsi eşidildi: "Müəllim, yarım saatdır gözləyirəm, nə Pizza gəldi, nə də bir zəng edən var". İsmayıl əsəbdən nə edəcəyini, nə deyəcəyini bilmirdi, Aydının üstünə qışqırdı: "Nə oldu sizin bu zəhrimara qalmış pizzanız, bu necə pizzadır, bu necə sifariş etməkdir?" – deyə bütün acığını oğlundan çıxdı. Yazıq uşaq atasının çox əsəbiləşdiyini görüb, bir şey deyə bilmədi. İsmayıl əsəbi-əsəbi o yan-bu yana var-gəl edir, dişi bağırsağını kəsirdi. Bu arada Aydın atasının, doğrudan da, çox əsəbiləşdiyini görüb, o da əl-ayağa düşdü. 2-3 dəfə Hikmət müəllimin sürücüsü ilə danışsa da, xoş bir xəbər yox idi – pizza gedib çıxmırdı ki, çıxmırdı.

Nəhayət, Aydından şad xəbər gəldi: "Ata, daha narahat olma, pizza çatdı". İsmayıl yaşadığı bu qədər həyəcandan sonra sevinmək əvəzinə, "Allah kəssin sizin belə pizza çatdırmağınızı, lap ürəyim üzüldü, mən bir də ömrüm boyu pizza yeməyəcəm" – deyə, günahsiz uşağa bozardı. İsmayılın bu sözünə hamı gülüşdü.

Aydının sözlərinə baxmayaraq, hələ də İsmayılın ürəyi sakitləşməmişdi. Telefonu götürüb, sürücüyə zəng etdi. Sürücü: "müəllim, narahat olmayın, pizza gəldi, Damlaya çatdırdım". Nəhayət ki, İsmayıl özünə gəldi. Elə bil üstündən dağ götürüldü. Sevincdənmi, həyəcandanmı gözləri yaşardı. Ömür yoldaşına döndü: "Bu axşam bu pizza məsələsi məni ən azı 2 yaş qocaltdı". Ömür yoldaşı: "sən də hər şeyi ürəyinə salırsan, bir az gecikdi də, dünya dağılmadı ki?". İsmayıl: "Bir az? Eeeh, bircə bilsəydin, bu bir az dediyin vaxtda mən nələr çəkdim" – deyib, başını bulaya-bulaya ağır addımlarla evə qalxdı.

Baş verənlərdən mənəvi olaraq elə yorulmuşdu ki, yatağa uzanan kimi gözünə yuxu getdi...

*Buzovna, 4-7 avqust 2024*

İLKİN İLHAMLI

# ŞEİRLƏR

*İlkin İlhamlı Xəzər Universitetində 2004-2009-cu illərdə Hüquq və sosial elmlər fakültəsində bakalavriatura səviyyəsi üzrə təhsil almışdır. Hazırda Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılmış "ABAD"-ın (Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxs) Hüquq və Kadrlar Departamentinin müdiri vəzifəsində işləyir.*



## YAZIBLAR

İnci tək saf olan bulaqlarından
Sel olub axışan dağ çaylarından
Qış - payızlarından, yaz- yaylarından
Yazıblar
Söylə bəs mən nədən yazım?

Dağların qarından, yamaclarından
Cavan təpələrdən, şiş uclarından
Üstü ot saxlamaz qayalarından
Yazıblar
Söylə bəs mən nədən yazım?

Həsrətdən, sevgidən və ayrılıqdan
Tutduğu əməldə peşmançılıqdan
Yolları bağlayan hər qaranlıqdan
Yazıblar
Söylə bəs mən nədən yazım?

Vətəni uğrunda can verənlərdən
Ölümün üstünə mərd gedənlərdən
Ananı, vətəni bir sevənlərdən
Yazıblar
Söylə bəs mən nədən yazım?

Payızda xəzandan, qışda borandan
Yazda qızıl güldən gül qoparandan
Yayda arandakı gün qızmarından
Yazıblar
Söylə bəs mən nədən yazım?

Mirvari bulaqlı Qarabağımdan
Şirvanı adlayıb, Mil-Muğanımdan
Anadan ayrılan Naxçıvanımdan
Yazıblar
Söylə bəs mən nədən yazım?

## QAYIT UŞAQLIĞIM

Qayıt, uşaqlığım, qayıt bir anlıq…
Atamla yenidən görüşdür məni
O vaxt uşaq idim dinləməmişdim
İndi dinləyəcəm atam deyəni.

Qayıt, uşaqlığım, qayıt bir anlıq…
Bəlkə fürsət oldu öpdüm üzündən
O vaxtdan içimə çökən həsrəti
Bəlkə də ağlayıb tökdüm gözümdən.

Qayıt, uşaqlığım, qayıt bir anlıq…
Yəqinki qocalıb atam indiyə
Dəyişib gülüşü, dəyişib səsi
Qoy bu da mənimçün olsun hədiyyə



# ŞAHİN FAZİL

Tanınmış tarixçi alim, şərqşünas, şair, tərcüməçi,"Xəzər Xəbər" jurnalının redaksiya heyətinin üzvü, professor Şahin Fazil 2024-cü il avqustun 18-də vəfat etmişdir.

Şahin Fazil 1940-cı il martın 27-də Quba şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirən Şahin Fazil fasilələrlə on ilə yaxın Əfqanıstanda tərcüməçi işləyib. Əfqanıstanın üç dövlət medalı və SSRİ-nin fəxri fərmanları ilə təltif edilib.

Elmlər doktoru, professor Şahin Fazil uzun illər AMEA-nın A.A. Bakıxanov adına Tarix institutunda çalışmış, son dövrdə institutun "Tarixin nəzəriyyəsi, mənbəşünaslıq və tarixşünaslıq" şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərib. Alimin 37 kitabı (bədii, elmi və tərcümə) çapdan çıxmışdır, 200-dən çox elmi əsərin müəllifi idi. Xarici ölkələrdə keçirilən beynəlxalq elmi konfranslarda iştirak etmişdir.

Orijinal yaradıcılığı ilə həm də tanınmış şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Şahin Fazilin dörd "Divan"ı işıq üzü görmüşdür. Şeirləri xarici ölkələrdə çap olunmuşdur.

Azərbaycanın ilk özəl ali məktəbinin yaranmasını "Xəzər Universiteti" adlı şeiri ilə alqışlayan Şahin Fazil sonradan universitetin yaxın dostlarından birinə çevrildi və həyatının sonunadək bu dostluğa sadiq qaldı. Universitetin"Elm və Sənət Məclisi"nin daimi üzvlərindən biri olan Şahin Fazil elmi məruzələrinin dərinliyi və müzakirələrdə iştirakı ilə də diqqəti cəlb edirdi. Nailəxanım muzeyinin nəşri olan "Tarixdə iz salan, Azərbaycan mədəniyyətinə töhfə verən qadınlar" seriyasından bəzi kitabların müəllifi və həmmüəllifi idi.

Bu ilin mart ayında Xəzər Universiteti rəhbərliyinin və əməkdaşlarının Gəncə şəhərində ictimaiyyətlə keçirilən möhtəşəm görüşündə Şahin Fazil nəinki yaxından iştirak elədi, həm də tədbirə irihəcmli bir şeir də həsr elədi və "Xəzər Xəbər" jurnalında dərc olundu. "Xəzər Xəbər" jurnalının uzun illər redaksiya heyətinin də üzvü olan Şahin Fazilin əziz xatirəsi qəlbimizdə daim yaşayacaq.

**Xəzər Universiteti**

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi universitetin müəllimi professor

**Nəsiman Yaqublunun**

faciəvi vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi "Xəzər Xəbər" jurnalının redaksiya heyətinin üzvü Knyaz Aslana qardaşı

**Niyaz Aslanovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi
- Musiqi müəllimliyi